www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 27-28 sentyabr 2014-cü il Şənbə № 241 (5950) Qiyməti 40 qəpik

**Xəbər**

## Hökmalıdə xüsusi əməliyyat: kənd mollası da saxlanıldı

yazısı səh.12-də

**Gündəm**

### Anar Məmmədovun iddiası niyə geri qaytarıldı?



Rauf Arifoğlu oliqarxla məhkəməni uddu; nazir oğlunun və onun vəkilinin hüquqi savadsızlığı ifşa edildi

yazısı səh.3-də

### Jirinovski Azərbaycanla bağlı dediklərini Bakıda geri götürdü

yazısı səh.8-də

### Hüquq müdafiəçisi məhkəmə zalından azadlığa buraxıldı

yazısı səh.2-də

### Media "hərbi sirr" məsələsində qanuna tabe olacaq

yazısı səh.11-də

### Şəhid qəbirlərini təhqir etmiş şəxsin işi prokurorluqda araşdırılır

yazısı səh.13-də

### Çap mediası deyilənləri nəzərə alır, elektron media isə yox...

yazısı səh.11-də

### Dünyanın ən sərsəm, ən bahalı, ən maraqlı boşanmaları..

yazısı səh.15-də

### İlham Mirzəyev pasiyentlərdən "təsəlli haqqı" alırmış

yazısı səh.13-də

### Ehsan qadağaları paytaxtda niyə işləmir?

yazısı səh.12-də

### Hamilə müğənni Bakıda dəhşətli qəzada öldü

yazısı səh.14-də

### ABU-nun dekanına 10 il həbs cəzası verildi

yazısı səh.2-də

### Bazarlarda qiymət artımı və qıtlıq davam edir

yazısı səh.14-də

## Bu gün Müsavat Partiyasının qurultayıdır

# KRİTİK GÜNDƏ BÖYÜK ANLAŞMA - YENİ DÜSTUR TAPILDI

Qurultay İsa Qəmbərin yeni statusunu müəyyən edəcək; 4 ildən bəri yaşanan həyəcan sona yetir; tədbirdə qonaqlar iştirak etməyəcək; Gülağa Aslanlı: "Bütün bunlar hakimiyyətin bizə yaratdığı şəraitin nəticəsidir"



yazısı səh.4-də

## Şeyxin ehsan müharibəsi - səbəb nədir?

QMİ sədri bir qayda olaraq din sahəsində ona qarşı çıxanların cəzalandırılmasına nail olur

yazısı səh.12-də



### Səməd Seyidov həbsxanada Tofiq Yaqubludan nə xahiş edib?

yazısı səh.3-də



### Cəmil Ünaldan Müsavat və Azərbaycan haqda ilginc açıqlamalar

yazısı səh.6-da



*İsa Qəmbər:*

### "Bu 21 ildə mən hakimiyyəti, o da məni dəyişməyə çalışdı, heç birimiz qələbə çala bilmədik"

yazısı səh.5-də



## ABU-nun dekanına 10 il həbs cəzası verildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində Azərbaycan Beynəlxalq Universitetinin 2002-2010-cu illərdə dekanı olmuş Rabil Amanovun cinayət işinin baxışı yekunlaşıb. Lent.az-ın "qafqazinfo"ya istinadən verdiyi xəbərə görə, Rabil Amanov ABU-nun maliyyə-kredit fakültəsinin dekanı, eyni zamanda digər təhsil müəssisələrindən tələbələrin köçürülmə komissiyasının sədri vəzifəsində işləyib.**

Həmin ərəfədə o, universitetin rektoru və digər məsul şəxslərlə əlbir olub, sonuncunun təşkilatçılığı ilə TQDK-nın xətti ilə imtahan verərək ali məktəblərə qəbul oluna bilməyən abituriyentlərin valideynlərindən külli miqdarda rüşvət alıb.

Bunun müqabilində həmin şəxslərin Dağıstan Respublikasının Mahaçqala şəhərində yerləşən Maliyyə və Hüquq İnstitutunda, Dərbənd şəhər S.Stalski adına Açıq Sosial Universitetində və Dərbənd Humanitar İnstitutunda təhsil almaları haqda arayışlar hazırlayıblar. Sonra Azərbaycan Təhsil Nazirliyinin razılığı olmadan həmin şəxslərin 2-ci kursdan ABU-ya köçürülmələrinin müvafiq əmrlərini şəxsən imzalayıb.

Bundan əlavə, TQDK və universitetin keçirdiyi test imtahanlarının nəticələrinə əsasən qəbul olunmuş tələbələrdən ümumilikdə 240.412 manat məbləğində R.Amanov və qeyriləri rüşvət alıblar.

Məhkəmə prosesində Rabil Amanov ittiham üzrə özünü təqsirli hesab edib.

Məhkəmə təqsirləndirilən şəxsi məhkəmə zalında həbs edib. Elan olunan hökmə əsasən Amanov 2 il müddətində ali təhsil müəssisələrində rəhbər vəzifə tutma hüququndan məhrum edilməklə 10 il müddətinə azadlıqdan məhrum olunub.

O, CM-nin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda ), 311.3.1 (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən rüşvət alma ),311.3.2 ( təkrar rüşvət alma ) və 311.3.3 ( külli miqdarda rüşvət alma ) maddələri ilə təqsirləndirilirdi.

## "Fransalı senator separatçılığı və terroru təşviq edir"

**"Fransalı senator Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etməklə separatçılığın, bəşəriyyət üçün böyük təhlükə olan terrorçuluğun və eyni zamanda insanlığa qarşı törədilmiş cinayətlərin təşviqində rol oynayır. Bu şəxs ilk növbədə öz məsuliyyətini dərk etməlidir".**

Bu sözləri APA-ya açıqlamasında Azərbaycan XİN-in mətbuat katibi Hikmət Hacıyev fransalı senator, Fransa-Ermənistan dostluq qrupunun rəhbəri Filipp Kaltenbaxın işğal olunmuş Dağlıq Qarabağa qanunsuz səfəri və orada etdiyi çıxışa münasibət bildirərkən deyib. Azərbaycanın Fransadakı səfirliyi tərəfindən lazımi addımların atıldığını söyləyən mətbuat katibi bildirib ki, senator F. Kaltenbaxın işğal altındakı Dağlıq Qarabağa səfəri ilə əlaqədar Fransanın rəsmi qurumlarına lazımi müraciətlər ediləcək.

Xatırladaq ki, Fransa-Ermənistan dostluq qrupunun rəhbəri, senator Filipp Kaltenbax Azərbaycanın işğal olunmuş ərazisi olan Dağlıq Qarabağa qanunsuz səfər edib. O, separatçı rejimdə guya demokratik dəyərlərin inkişaf etdiyini deyərək Azərbaycanı bundan nümunə götürməyə çağırıb.


## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz,
biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

## "Elm" tədris mərkəzi

**MAGIC LANGUAGES**

- ➔ Ali məktəblər xarici dillər
- ➔ kompyuter kursları
- ➔ Magistratura - dövlət qulluğu - məntiq
- ➔ 1.C. mühasibat - anbar - bank işi
- ➔ Məktəbə qədər həftədə 5 dəfə
- ➔ Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05


# Tural Abbaslı qurultayqabağı təbliğat kampaniyasına bölgələrdə yekun vurdu





**Müsavat başqanlığına namizəd Tural Abbaslı qurultayqabağı təbliğat kampaniyasına bölgələrdə yekun vurub. Başqanlığa namizəd sentyabrın 26-da Salyan, Cəlilabad və İmişli seçiciləri ilə görüşüb.**

İlk olaraq Tural Abbaslı Salyana səfər edib. Rayon təşkilatının sədri Nizami Osmanoğlu qurultay üzvləri və təşkilatın vəziyyəti ilə bağlı qonaqlara məlumat verib. Ardınca başqanlığa namizəd seçicilər qarşısında çıxış edib. Başqan seçilərsə, görəcəyi işlərlə onları tanış edib. Görüş zamanı iki gənc öz istəkləri ilə Müsavat Partiyasına üzv qəbul olunublar. Görüşün sonunda xatirə şəkli çəkdirilib.

Ardınca Tural Abbaslı Cəlilabadda olub. Rayon təşkilatının sədri Hidayət İsmayılov qurultayla bağlı Bakıda olduğuna görə, qonaqları sədrin müavini Əli Pənah bəy qarşılayıb. Sədr müavini çıxış edərək, Hidayət İsmayılovun seçki ilə bağlı Bakıya getdiyini və görüşü təşkil etməyi ona həvalə etdiyini bildirib. Tural Abbaslı çıxışında görüşə gəldiklərinə görə hər kəsə təşəkkürünü bildirib. Qurultayda istənilən nəticəyə hazır olduğunu söyləyib. Daha sonra o, seçicilərin çoxsaylı suallarını cavablandırıb.

Axşam saatlarında Tural Abbaslı İmişliyə səfər edib. Bununla da başqanlığa namizədin təbliğat kampaniyası çərçivəsində görüşlərinə yekun vurulub.

❑ **Cavanşir ABBASLI**

## Qayınatası ilə qayınanasını öldürüb, amma yenə narazıdır

**Sumqayıt Apelyasiya Məhkəməsində iki nəfəri öldürməkdə təqsirli bilinən 1978-ci il təvəllüdlü Bayram Mirzəağa oğlu Həsənovun apelyasiya şikayəti üzrə məhkəmə prosesi başlayıb.**

Virtualaz.org saytının əldə etdiyi xəbərə görə, hakim İlham Həsənovun sədrliyi ilə apelyasiya şikayəti üzrə məhkəmənin ilkin baxış iclası keçirilib. Məhkəmə baxışı sentyabrın 30-a təyin edilib.

Qeyd edək ki, qətl hadisəsi yanvar ayının 1-də Novxanı bağlarında baş verib. Ailədaxili insident zamanı Bayram Həsənov odlu silahdan açdığı atəşlə qaynatası Nəzər Qəmbər oğlu Hüseynovu, qayınanası Rəfiqə İbrahim qızı Hüseynovu güllələyib. Onların hər ikisi hadisə yerindəcə keçiniblər.

Təqsirləndirilən şəxs qismində dindirilən Bayram Həsənov ifadəsində həyat yoldaşı ilə aralarında narazılıq olduğunu, hadisədən bir müddət əvvəl arvadı Gülnar Həsənova uşaqlarını da götürərək atası evinə getdiyini göstərib. Münasibətlərə aydınlıq gətirmək üçün qohumlarının evinə gələn Bayram burada onlarla mübahisə edib. Mübahisə zəminində əvvəl havaya atəş açan Bayram Həsənov daha sonra ardıcıl olaraq əvvəl qayınanasını, sonra da qayınatasını odlu silahla qətlə yetirib.

Bu cinayət işi Ağır Cinayətlər Məhkəməsində hakim Rauf Əliyevin sədrliyi ilə araşdırılıb. Məhkəmənin hökmü ilə Bayram Həsənov ömürlük azadlıqdan məhrum edilib.

Hökmdən narazı qalan Bayram Həsənov apelyasiya şikayəti verib. O, barəsində olan hökmün dəyişdirilməsini və cəzasının müddəti cəza ilə əvəz edilməsini xahiş edib.



## Suya təzə qiymət qoyulur

**Hesablama Palatası sənaye, kommunal-məişət və digər məqsədlər üçün sudan pullu istifadə xidmətlərinin tariflərinin müəyyənləşdirilməsi ilə bağlı Nazirlər Kabinetinə müraciət edib.**

Tarif (Qiymət) Şurasının "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti tərəfindən göstərilən sudan pullu istifadə xidmətlərinin tarifləri barədə" qərarına əsasən suvarma suyunun hər min kubmetri 0,50 manat, qış otlaq sahələrinə və örüşlərə verilən suyun 1 hektarı üzrə 0,40 manat təsdiq edilib.

Lakin sənaye, kommunal-məişət və digər məqsədlər üçün Tarif (Qiymət) Şurası tərəfindən müvafiq tarif təsdiq edilməyib. Qeyd edilən məqsədlər üçün istifadə edilən suyun tarifləri təsdiq edilmədiyindən "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin yerli strukturları tərəfindən göstərilən sudan pullu istifadə xidmətlərinin tarifləri sərbəst müəyyən edilir ki, bu da mövcud qanunvericiliklə nəzərdə tutulmayıb.

"Meliorasiya və Su Təsərrüfatı" ASC-nin yerli strukturlarında aparılan nəzarət tədbiri zamanı müəyyən edilib ki, bəzi suvarma sistemləri idarələri sudan istifadə edənlər birliklərinin xidmət göstərdiyi ərazilərdən kənarda olan sənaye, kommunal-məişət və digər məqsədlər üçün sudan istifadəçilər ilə birbaşa müqavilə bağlayaraq, onlara hər min kubmetr suya müxtəlif tariflər müəyyən edərək su satışını həyata keçiriblər. Belə vəziyyət respublikanın müxtəlif ərazilərində yerləşən "Meliorasiya və Su Təsərrüfatı" ASC-nin yerli strukturları tərəfindən göstərilən sudan pullu istifadə xidmətlərinin tariflərinin fərqli müəyyən edilməsinə səbəb olmaqla, vahid tarif siyasətinin həyata keçirilməsinə imkan vermir və yerlərdə tariflərin müəyyən edilməsində subyektiv amillərə şərait yaradır. Göstərilənləri nəzərə alaraq, Hesablama Palatası "Meliorasiya və Su Təsərrüfatı" ASC tərəfindən göstərilən sudan pullu istifadə xidmətlərinin tariflərinin (sənaye, kommunal-məişət və digər məqsədlər üçün) Azərbaycan Respublikası Tarif (Qiymət) Şurasında baxılmasını məqsədəuyğun hesab edib (APA).


*«QAYA MƏTBUAT YAYIMI» MMC!*

*İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:*

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

*Ən başlıcası gündəlik*

*«Yeni Musavat » qəzetinə–0,40 man*
*və bundan əlavə 2000 adda yerli*
*və xarici nəşrlər.*

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

Telefonla zəng etməyiniz kifayətdir:

Bakı şəh. 564-63-45 598-35-22

Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41


## Sayt rəhbəri AXCP-dən getməsinin səbəblərini açıqladı

**AXCP sıralarından istefa vermiş fəal cəbhəçi, "Carçı.az" portalının rəhbəri Orxan Carçı istefasının səbəblərinə aydınlıq gətirib. Bu barədə müsavat.com-a açıqlama verən Orxan Carçı tam olaraq müstəqil olmaq istədiyini bildirib.**

Rəhbərlik etdiyi xəbər portalının müstəqil olduğunu deyən keçmiş cəbhəçi vurğulayıb ki, bir çoxları bu media orqanını AXCP-dən asılı olduğunu iddia etsə də, ancaq bu belə deyil: "Bizim məqsədimiz hakimiyyətin, ya da müxalifətin tərəfini tutmaqdan ibarət deyil. Əsas məqsədimiz xalqı maraqlandıran məsələlər barədə yazmaqdır. Mən müxalifətdən, ya da ayrı-ayrı şəxslərdən bir qəpik də pul almamışam".

Orxan Çarçı AXCP-dən istefası ilə bağlı keçmiş partiyadaşları tərəfindən tənqid, ya da təhqir hədəfinə çevrilərsə, susmayacağı barədə dediklərinə bu cür aydınlıq gətirib: "Bəli, istefamda yazmışam ki, tənqid, təhqir olunsam susmayacağam. Çünki Asəf Quliyev AXCP-dən gedəndə bir neçə nəfərlə söz savaşı baş qaldırmışdı. İstəmədim ki, mənimlə də bu cür rəftar olsun. Necə deyərlər, əvvəlcədən özümü sığortaladım. Bu gün məni tanıyanlar yaxşı bilir ki, mən kimsədən maddi vəsait alıb portalı işlətməmişəm. Müstəqil fəaliyyət göstərmək istəmişəm. Fəaliyyətimi bu gün də davam etdirirəm".



## Hüquq müdafiəçisi məhkəmə zalından azadlığa buraxıldı

**Lənkəran Ağır Cinayətlər Məhkəməsində hüquq müdafiəçisi Emil Məmmədov və Tofiq Qasımovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Vəkil Fariz Namazlının APA-ya verdiyi məlumata görə, prosesdə hökm oxunub. Hökmə əsasən, hər iki şəxs 2 il sınaq müddəti təyin olunmaqla 6 il müddətinə şərti olaraq azadlıqdan məhrum olunub. Emil Məmmədov və Tofiq Qasımov məhkəmə zalından azadlığa buraxılıblar.

Qeyd edək ki, E.Məmmədov mayın 13-də həbs edilib və barəsində Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə cinayət işi başlanılıb. Bundan əvvəl isə T.Qasımov həbs edilib.

İttihama görə, E.Məmmədovla T.Qasımov rayon məmurlarını gözdən salan materialları dərc etməmək üçün onlardan pul istəyiblər.

YENİ MÜSAVAT
N 241 (5950) 27 sentyabr 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Anar Məmmədovun şikayəti təmin edilmədi

## Rauf Arifoğlu məhkəməni uddu; nazir oğlunun və onun vəkilinin hüquqi savadsızlığı ifşa edildi

**Sentyabrın 26-da Xətai Rayon Məhkəməsində nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədovun "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlunu xüsusi ittiham qaydasında məhkəməyə verməsi ilə bağlı proses keçirilib. Məhkəmə iclasında R.Arifoğlunun hüquqlarını vəkil Elçin Sadıqov, Cavad Cavadlı və Vaqif Hüseyn təmsil edib.**



Onlar məhkəmə heyətindən A.Məmmədovun şikayətinin təmin edilməməsini tələb ediblər.

Hər iki tərəfin nümayəndələrinin çıxışından sonra hakim Habil Məmmədov müşavirəyə gedib.

Hakim müşavirədən qayıtdıqdan sonra nəqliyyat nazirinin oğlunun şikayətinin təmin edilmədiyini bildirib. Əsas səbəblərdən biri də budur ki, iddiaçı məhkəməyə göndərdiyi ərizəni özü imzalamalı olduğu halda, bir başqası imzalayıb. Bu da məhkəmə qanunvericiliyi ilə birbaşa qanun pozuntusudur.

**Qəzetimizin hüquqşünası Vaqif Hüseyn** musavat.com-a deyib ki, məhkəmədə "Yeni Müsavat"ın vəkilləri Cavad Cavadlı və Elçin Sadıqov çox peşəkar və təsirli çıxış ediblər. Qarşı tərəfin vəkilləri isə özlərini qeyr-peşəkar kimi nümayiş etdiriblər. V. Hüseyn deyib ki, hakimin bu qərarı qanunidir və Cinayət Prossesual Məcəllənin 293.3.7-ci maddəsinə əsaslanır. Bu maddədə birbaşa göstərilir ki, xüsusi ittiham qaydasında şikayət bu şikayəti verən şəxsin özü tərəfindən imzalanmalıdır. Anar Məmmədovun Rauf Arifoğluna qarşı iddia ərizəsi isə onun nümayəndəsi Ruslan Məmmədov tərəfindən imzalanıb. Heç bir hakim bu cür tərtib olunmuş şikayət ərizəsini qəbul edə bilməzdi, bu mümkünsüzdür.

V. Hüseyn bir qədər də "Yeni Müsavat"ın vəkillərinin çıxışları barədə məlumat verib. O deyib ki, vəkillər Anar Məmmədovun etirazına səbəb olan "məmmədovlar terrorist bir klana çevrilir" qiymətləndirici ifadəsini də faktlarla darmadağın ediblər. Belə ki, bu iddanı sübut edən yüzlərlə qəzet məqaləsi, video-reportajlar, təhlillər var. Və onların heç biri indiyə qədər məmmədovlar tərəfindən təkzib edilməyib. Vəkillər həmin məqalələrin və video reportajların surətlərini proses iştirakçılarına, o cümlədən də qarşı tərəfin vəkillərinə təqdim ediblər. Oradakı başlıqların təqdimatı bəs edir ki, hər bir Azərbaycan vətəndaşı məmmədovların terrorist klan olduğu qənaətinə gəlsin.

**Vəkil Elçin Sadıqov:** "Biz tələb edirik ki, Anar Məmmədov özü bu məhkəmədə iştirak etsin. Bunu həm biz, həm də qanun tələb edir. Bundan əlavə iddiaçı Məmmədov Anar Ziya oğlu məhkəməyə göndərdiyi ərizəni özü imzalamalı idi. Amma həmin ərizəni Ruslan adlı şəxs imzalayıb. Həmin şəxs Anar Məmmədovu təmsil edir. Ərizəni onun imzlaması qanun pozuntusudur və bu bizə haqq verir ki, şikayətinin təmin edilməməsini tələb edək".

**Vəkil Cavad Cavadlı:** "Siz deyirsiniz ki, Anar Məmmədovun etirazına səbəb "Yeni Müsavat" qəzetində dərc edilmiş yazıda "məmmədovlar terrorist bir klana çevrilir" cümləsidir. Klan sözü ailə deməkdir. Burada da, bir ailə haqqında işlədilmiş cümlədir. Bu jurnalistin gəldiyi qənaətdir. Bütün dünyada bilinir ki, jurnalist məlumatı bir az şişirə bilər, sərt formada yaza bilər. Bu qanun pozuntusu deyil. Orada təhqiramiz ifadədən söhbət belə gedə bilməz. Bundan əlavə, Məmmədovlar ailəsi ilə bağlı yetərincə mətbuatda yazılar dərc edilib və onların böyük hissəsi mənfi xarakterlidir. Və heç biri təqzib edilməyib. Biz sizə həmin yazıları və videogörüntüləri dəqdim etmişik".

Qeyd edək ki iddia ərizəsində A.Məmmədov R.Arifoğlunun Cinayət Məcəlləsinin 147.1, 147.2 və 148-ci maddələri ilə ittiham olunmasını tələb edirdi. Şikayət ərizəsinə 8 sentyabr 2014-cü il tarixində, saat 11.45-ə Xətai rayon Məhkəməsinin hazırlıq iclasında baxılacağı nəzərdə tutulsa da, baş yazara bu barədə sənədlər sentyabrın 11-də, məhkəmədən 4 gün sonra çatdırılıb.





# Səməd Seyidov həbsxanada Tofiq Yaqubludan nə xahiş edib?

## Müsavat başqanının müavini ilə deputat arasında ilginc polemika yaşanıb

**Ötən ilin yanvarında baş verən İsmayıllı hadisələrinə görə, həbs edilən Müsavat başqanının müavini Tofiq Yaqublu və REAL sədri İlqar Məmmədov yenə həbsdə qaldılar. Şəki Apelyasiya Məhkəməsində keçirilən prosesdə hakim onların şikayətini təmin etməyib.**

Sentyabrın 24-də keçirilən məhkəmədən öncə ölkəmizdə səfərdə olan AŞPA prezidenti Ann Brassörün başçılıq nümayəndə heyəti Tofiq Yaqublu və İlqar Məmmədovla görüşüb.

Bu barədə musavat.com-a T.Yaqublunun vəkili Nemət Kərimli məlumat verib.

O bildirib ki, görüşdə Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov da iştirak edib: "Sentyabrın 24-də AŞPA-nın nümayəndə heyəti Tofiq Yaqublu və İlqar Məmmədovla görüşüb. Nümayəndə heyətində 6 nəfər olub. Görüş iki saata yaxın davam edib. Görüşdə Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov da iştirak edib".

Görüş zamanı T.Yaqublu və S.Seyidov arasında polemika yaşanıb. Bu barədə vicdan məhbusunun qızı Nigar Yaqublu facebookda status paylaşıb.

**T.Yaqublu S.Seyidova bunları deyib:** "Siz Strasburqda deyirsiniz siyasi məhbus yoxdur, ancaq oradan deputatlar gəlib bizimlə görüşürlər. Siz heç burda ola-ola gəlib görüşmürsünüz".

S.Seyidov ona belə cavab verib: "Tofiq müəllim, mən sizinlə görüşməyə gələrəm və dediklərinizin doğru olmadığını sübut edərəm".

**Tofiq Yaqublunun reaksiyası bu cür olub:** "Məni tapmaq çətin deyil. Heç yerə getmirəm onsuz da. Nə vaxt istəyirsiniz gəlin".

Onu da qeyd edək ki, Apelyasiya Məhkəməsindən sonra T. Yaqublu və İ. Məmmədov Şəki İstintaq Təcridxanasından Bakıya köçürülüb.

Amma keçən iki gün ərzində hələ də onların harada saxlanılmasından xəbər yoxdur. Bu barədə musavat.com-a Nigar Yaqublu məlumat verib: "Penitensiar Xidmətə müraciət etdik. Hələ bir xəbər yoxdur. Məhkəmədə atamla qısa görüşüm oldu. Səməd Seyidovla aralarında polemika yaşanıb. Dialoqun tam mətnini bilmirəm. Bildiklərimi facebookda yazdım".


Səməd Seyidov

**T.Yaqublunun vəkili Nemət Kərimli** S.Seyidovla yaşanan polemikadan xəbərsiz olduğunu qeyd etdi: "Yalnız onu bilirəm ki, Səməd Seyidov nümayəndə heyətinin tərkibində təcridxanaya gələndə Tofiq Yaqublunu kənara çəkib deyib ki, insan hüquqlarından yox, Qarabağ məsələsindən danış. Çünki bizim ağrılı yerimiz Qarabağdır. Tofiq bəy deyib ki, Qarabağ məsələsinin həlli demokratiyadan keçir. Qeyd edib ki, demokratiya olacaqsa, insan hüquqları qorunacaqsa, Qarabağ məsələsi həll yolunu tapacaq. Daha sonra Tofiq bəy ölkədə insan hüquqlarının pozulmasından danışıb. Ümumilikdə Azərbaycanda olanlardan danışıb. Tofiq bəy sonda Səməd Seyidova deyib ki, istədiyiniz vaxt gəlin danışaq. Həmçinin Səməd Seyidova deyib ki, siz heç vaxt həbsxana gəlməmisiniz, məhbusların vəziyyəti ilə maraqlanmamısınız".

**N.Kərimli Ali Məhkəməyə müraciət edəcəklərini bildirib:** "Apelyasiya Məhkəməsinin qərarını alan kimi, Ali Məhkəməyə müraciət edəcəyik. Ardınca son ümid yerimiz olan Avropa Məhkəməsinə üz tutacağıq".

❑ **Cavanşir ABBASLI**

# Demokratiya dərsi



**Hüseynbala SƏLİMOV**

**"Yaxın oturun. Demokratiya mövzusunda növbəti dərsimizə başlayırıq". Nə qədər qəribə olsa da, adam hətta bu sözləri də eşitməyə hazırdır.**
**Ona görə "hətta" sözünü işlədirəm ki, heç kim özünə dərs keçilməsini istəmir. Kiməsə bu, bir o qədər yaxşı hisslər oyatmayan məktəb illərini xatırladır, kimi də özünün uşaq yerinə qoyulmasını istəmir...**

Amma mən məmnuniyyətlə bu dərsi keçərdim. Demokratiyanı öyrənərdim. Bu vaxta qədər üç dəfə - bir dəfə ABŞ-da, iki dəfə də Polşada mənə demokratiya dərsi keçilib. Həmin dərsləri mən həyatımın ən mühüm epizodlarından biri kimi qəbul edirəm. O dərslər mənə çox şey verdi. Bu elə bir vaxtlar idi ki, demokratiyanın və insan haqlarının nəzəri və təcrübi əsasları yalnız Qərb ölkələrində tədris olunurdu...

Həm də mən öyrənməkdən heç vaxt qaçmamışam. İnsan bütün həyatı boyu öyrənməlidir. Amma ən çətini demokrat olmağı öyrənməkdir. Buna illər sərf etmək lazım gəlir. Son nəticədə kiməsə demokrat olmaq müyəssər olur, kimsə də bütün ömrü boyu avtoritar düşüncəli adam kimi qalır...

Bütün bunları mən niyə görə deyirəm? Bir əngəl meydana çıxmasa, hansısa fors-major situasiya yaranmasa, bu yazı Müsavat Partiyasının qurultayı keçirilən gün işıq üzü görəcək. Hətta irəlicədən planlaşdırılmayan bir hadisə baş versə də burada yazacaqlarımız öz aktuallığını itirməyəcək...

"Onlar bacaracaqmı?" Siyasi prosesləri izləyənlərin bu gün özünə verdiyi əsas suallardan biri də budur. Bəli, bunu Müsavat bacaracaqmı? İndiki halda hər hansı bir postdan getmək, necə deyərlər, vəzifədən getmək çətin, həm də asan məsələdir.

Ona görə çətindir ki, səni qıraqda heç nə gözləmir. Normal ölkələrdə siyasətçilər postdan gedəndə ya hansısa fond təsis edirlər, ya maarifçiliklə məşğul olurlar, ya da ictimai fəaliyyətə və ya xeyriyyəçilik işlərinə cəlb olunurlar...

Ukraynadakı prosesləri izləyənlər yəqin ki, iki detalı sezdilər. Prezident P.Poroşenko ölkənin ən gərgin çağında keçmiş prezidentlərlə məsləhətləşmək qərarına gəldi. Onlardan biri- L.Kuçma isə çox fəal şəkildə münaqişənin nizamlanması prosesinə cəlb edildi.

Təbii ki, Azərbaycandakı siyasətdən bunu gözləmək əbəsdir. Burada siyasətçilər lap peşəkar boksda olduğu kimi son ana, necə deyər, nokauta qədər mübarizə aparırlar. Bu elə bir oyundur ki, onu yalnız sınaraq, əzilərək tərk etmək mümkündür.

Ona görə də vəziyyət düşünülən qədər də primitiv deyil. Çox çətindir. Hətta elə ola bilər ki, yaxın dostlar da adamı tərk edər- böyük siyasətdə heç bir şansı olmayan siyasətçi, siyasi ömrünü uğursuzluqla başa vuran adam kimə lazımdır ki?

Təbii ki, bütün bunları deməklə biz Müsavat ətrafında dramatik mənzərə cızmaq niyyətində deyilik. Amma nə varsa, o var- elə bir vəziyyətdir ki, heç nəyi nə əskiltmək, nə də şişirtmək olmur...

Amma bəzən elə olur ki, bizim özümüzə öz prinsiplərimizlə hesablaşmaq elə də asan başa gəlmir. Fəqət, başqa yol da yoxdur. Prinsiplər ondan ötrüdür ki, birinci növbədə sən özün ona əməl edəsən. Biz burada "başaqlarına nümunə" olmaq kimi çeyənənmiş ifadələri təkrar etmək istəməzdik.

Əslində bu və ya başqa addımı atanda insan özü ilə çarpışır, vuruşur, çünki daxili "eqo" daim "Sən bunu etmə! Heç digərləri belə edərdimi?" deyir. Bəlkə bu da siyasətin bir kədərli tərəfidir- illər keçdikcə siyasətdə insan diqqətə alışır, daim göz önündə olmağa öyrəşir. Düzdür, Azərbaycan reallıqları elədir ki, müxalifət düşərgəsində olanlar diqqət sarıdan bir az korluq çəkiblər.

Bu mənada siyasi postu tərk etmək həm də asandır, burada dəhşətli dərəcədə çətin bir şey də yoxdur. Bu, bizim hər birimizə aid edilə bilər. Son illəri onsuz da cəmiyyətdən təcrid olunmuş vəziyyətdə keçirmişik. Dərindən fikirləşəndə, itiriləsi şey elə çox da deyil.

Amma bir ictimai status məsələsi var. O, insanın sosial məzmunu kimi bir şeydir. İnsan onu illər ərzində formalaşdırır. Yalnız dahilər öz sosial məzmunlarını əlcək kimi dəyişə bilirlər. Amma hamı dahi də olmur...

Hətta Müsavat (nəzəri cəhətdən fərz etsək!) gözlənilən qərarı qəbul etməsə də, iki dəfəlik məhdudiyyətə əməl etməsə də şəxsən mən bunu faciə hesab etməyəcəm. Bu, nə demək olardı? Bir nəticə alınar ki, bizim hələ demokratiya dərslərinə ehtiyacımız çoxdur...

**Lazım gələr, bu dərsləri davam etdirərik-həm öyrənərik, həm də öyrədərik...**

# Bu gün Müsavat Partiyasının qurultayıdır

# Kritik gündə böyük anlaşma - yeni düstur

## Qurultay İsa Qəmbərin yeni statusunu müəyyən edəcək; 4 ildən bəri yaşanan həyəcan sona yetir; tədbirdə qonaqlar iştirak etməyəcək; **Gülağa Aslanlı:** "Bütün bunlar hakimiyyətin bizə yaratdığı şəraitin nəticəsidir"

**Bu gün Müsavat Partiyasının VIII qurultayı öz işinə başlayır. 2010-cu ildən bu yana məlum səbəblər ucbatından təxirə salınan qurultay həyəcanı nəhayət bu gün sona yetir. Hazırki başqan İsa Qəmbərin partiyanın nizamnaməsini rəhbər tutaraq başqanlığa namizəd olmaması ali tədbirə olan marağı daha da artırır.**

Qurultayda partiyanın başqanı, Məclis və MNTK üzvləri seçiləcək. Müsavat başqanlığına partiyanın İcra Aparatının keçmiş rəhbəri Arif Hacılı, Divan üzvləri Qubad İbadoğlu və Tural Abbaslı, sabiq başqan müşaviri Səxavət Əlisoy iddialıdır. Sərbəst Məclis üzvlüyünə 146, MNTK-ya 31 nəfər namizədliyini irəli sürüb. Partiyanın yeni seçiləcək başqanının kimliyinə qurultay qərar verəcək. Müsavat MNTK da orada elan olunacaq. Lakin Məclisə keçirilən seçkilərin nəticələri bir gün sonra partiyanın qərargahında elan olunacaq. Buna səbəb razılaşdırılmış müqaviləyə əsasən, mədəniyyət evinin rəhbərliyinin tədbirin hər saatı üçün partiyanın 220 manat məbləğində pul ödəmə tələbidir.

Tədbir BŞİH-nin ayırdığı Bakı şəhəri, Suraxanı rayonu, Əmircan qəsəbəsi, Park küçəsi 26 ünvanında yerləşən Səttar Bəhlulzadə adına Mədəniyyət sarayında keçiriləcək. Partiya qurultayın keçəcəyi zamanın hər saatı üçün 220 manat məbləğində pul ödəyəcək.

**Qurultay nümayəndələrinin qeydə alınması saat 09.00-dan başlayır, qurultayın açılışı saat 11.00-a müəyyənləşdirilib.**

KİV nümayəndələrinin də saat 11.00-a qədər qeydiyyatdan keçmələri zəruridir. Qurultayın keçiriləcəyi Səttar Bəhlulzadə adına Mədəniyyət sarayına metronun "Nərimanov" stansiyasından başlayaraq "Koroğlu" (keçmiş "Əzizbəyov") stansiyasından keçən 184 saylı marşrutla Əmircan qəsəbəsində məhkəmənin yanındakı dayanacaqda düşmək şərtilə, metronun "Qara Qarayev" stansiyasından 113 saylı marşrut avtobusu ilə Suraxanı rayon Polis İdarəsinin yanındakı dayanacağa qədər gəlmək olar.

Onu da qeyd edək ki, bu gün keçiriləcək Müsavat qurultayına qonaqlar dəvət olunmayıb.

Bunun səbəbləri barədə Müsavat başqanının müavini Gülağa Aslanlı musavat.com-a bunları deyib: "Qonaqların çağırılmamasına səbəb yerin, vaxtın azlığıdır. Başqa heç bir səbəb yoxdur. Qurultay nümayəndələrinin yerləşməsi problemi var. Dəvət olunan qonaqların çıxışı üçün zamanımız yoxdur. Bütün bunlar hakimiyyətin bizə yaratdığı şəraitin nəticəsidir. İstədiyimiz kimi, 800-1000 nəfərlik yer versəydilər, normal qurultay keçirmək şəraiti yaradılsaydı, onda təbii ki, qonaqlarımızı da dəvət edərdik. Qonaqların dəvət olunmaması o demək deyil ki, iştirak etmək istəyənlərə qadağa qoyulur. İstəyən iştirak edə bilər".

**Başqan müavini qurultayın sürəcəyi vaxt barədə də danışıb:** "Qurultayımız saat 11:00-da başlayıb, 20:00-da bitməlidir. Başqan və MNTK-ya keçirilən seçkilərin nəticələri mədəniyyət evində müəyyən olunacaq. Məclisə seçkilər mədəniyyət evində keçirilsə də, nəticələr partiyamızın qərargahında elan olunacaq".

Sonda dəyərli oxucularımıza məlumat üçün bildirək ki, Müsavatın ilk rəsmi başqanı



Məmməd Əmin Rəsulzadədir. Tarixi mənbələrə görə, bu şanlı təşkilatın ikinci başqanı Mirzə Bala Məmmədzadə olub. Onun ölümündən sonra isə mühacirətdəki Müsavat Partiyasına və Azərbaycan Milli Mərkəzinə M.Ə. Rəsulzadənin daha bir əski silahdaşı Əbdül Vahab Yurdsevər rəhbərlik edib. 1976-cı ildə Azərbaycan Milli Mərkəzinin Başqanı Əbdülvahab Yurdsevərin vəfatından sonra partiya və mühacir Azərbaycan hakimiyyəti statusunda olan Milli Mərkəzə başqanlıq Kərim Odərə tapşırılıb. Kərim bəyin də 1981-ci ildə vəfatından sonra o zaman Milli Müsavat Xalq Partiyasının başqanlığına Məhəmməd Azər Aran keçib. O, 1992-ci ilə , Müsavat Partiyası rəsmən Azərbaycana qayıdana kimi bu təşkilatın rəhbəri olub. Məhəmməd Azər Aran bəy 1993-cü ildə Allahın rəhmətinə qovuşub. Müsavatın bu gün vəzifəsi sona yetəcək başqanı İsa Qəmbər isə 1992-ci ildən bəri bu vəzifədədir. Yeni seçiləcək şəxs partiyanın 7-ci başqanı olacaq. Yeni başqanın kimliyi bu günkü seçkilərdən sonra məlum olacaq.

**Bu statistik məlumatlardan sonra "Yeni Müsavat"a məlum olan bir sıra pərdəarxası məqamlara da diqqət edək.** Müsavatdakı mötəbər mənbələrdən gələn xəbərlərdən belə aydın olur ki, təşkilatda uzlaşdırıcı İsa Qəmbər faktorunun azalmaması üçün bir sıra düsturlar hazırlanıb. Bunlardan birincisi budur ki, qurultay böyük ehtimalla Azərbaycanın eks-spikeri İsa Qəmbərin yeni statusunu siyasi qərarla müəyyən edəcək. İsa Qəmbər milli-demokratik müsavatçı cameənin lideri və həmçinin prezidentliyə namizədi kimi qəbul olunacaq. Bu zaman partiyanın seçkili strukturlarına (o cümlədən də yeni başqana) ali orqan - qurultay tərəfindən həvalə olunacaq ki, təşkilatın bütün potensialını müsavatçı cameənin lideri və prezidentliyə namizədi üçün səfərbər etsin...

Bununla da Müsavatda və onun təsir sferasında, müsavatçı cameədə yenə də uzlaşma amili və lider İsa Qəmbər olacaq. Bu da təşkilatda parçalanma, küsmə və s. amilləri minimuma endirəcək.

**"Yeni Müsavat"a o da məlum olub ki, Müsavatın 5-ci başqanı İ.Qəmbər qurultayda tərəf tutmayacaq, hansı namizədə səs verəcəyini bildirməyəcək, başqanlıq yarışı tam şəffaf və adil olacaq. İsa Qəmbər, kim başqan olsa, onu da qəbul edəcək. Bu da seçilməyən iddiaçının cığallıq etməsini, seçkinin nəticələrini şübhə altına almasını mümkünsüz edəcək, konflikt ehtimalını sıfırlayacaq. Məhz bu taktika və qərarların uyğulanması bugünkü seçkidən Müsavatın daha da güclənərək, çıxmasına səbəb olacaq.**

❑ Cavanşir ABBASLI

# Seçkini uduzan namizəd qalibin əlini sıxacaqmı?



**Arif Hacılı:** "Nəticələrdən asılı olmayaraq bütün opponentlərimlə qucaqlaşmağa hazıram"



**Qubad İbadoğlu:** "Biz həm şərəflə qalib olmağa, həm də şərəflə məğlub olmağa hazırıq"



**Tural Abbaslı:** "Qalibin kim olmağından asılı olmayaraq onu təbrik edəcəyəm və onun başqanlığı altında fəaliyyətimi davam etdirəcəyəm"



**Səxavət Əlisoy:** "Partiyaya kimin başqan seçilməsindən asılı olmayaraq həmin şəxsin əlini də sıxacam və əvvəlki münasibətlərimiz də davam edəcək"

**Ölkələrin əksəriyyətində bələdiyyə, partiya başqanlığı, parlament seçkiləri və sair bu kimi seçkilər keçirilərkən namizədlər arasında qızğın mübarizə gedir. Hətta onlar seçki kompaniyası boyunca bir-birilərinin nöqsanlarını üzə çıxarır, sözün əsl mənasında rəqabət aparırlar. Ancaq bütün bunlara baxmayaraq sonda uduzan tərəf udan tərəfin əlini sıxır və ona müvəffəqiyyət arzulayır. Bunu Türkiyə nümunəsində dəfələrlə müşahidə etmişik.**

Bu gün Müsavat Partiyasının qurultayıdır. Bu qurultayın sonunda səsvermə nəticəsində dörd namizəddən biri Müsavat Partiyasının başqanı olacaq. Maraqlıdır, başqanlığa namizədlər udan şəxsin əlini sıxıb təbrik edəcəkmi?

**Müsavat başqanlığına iddialı Arif Hacılı** "Yeni Müsavat"a müsahibəsində seçkidən sonra nəticələrdən asılı olmayaraq, bütün opponentləri ilə qucaqlaşmağa, hətta ona qarşı kampaniya aparan insanlarla da işləməyə hazır olduğunu bəyan edib: "Seçkilərin nəticələrindən asılı olmayaraq Müsavat Partiyasında qalacağam. Keçirdiyim görüşlərdə də bunu bildirmişəm ki, nəinki bütün opponentlərimlə qucaqlaşmağa, onlarla birlikdə fəaliyyət göstərməyə, eyni zamanda onların komandasında olan, hətta bəzi hallarda etik qaydaları pozaraq müəyyən yolverilməz üsullardan istifadə edib mənə qarşı kampaniya aparan insanlarla da işləməyə hazıram. Bildirirəm ki, əgər o şəxslər desələr ki, bütün bunlar seçki kampaniyası kontekstində baş verən hadisələrdir, o kontekstdə ifadə edilən fikirlərdir, mən təbii ki, hər şeyi unutmağa və Müsavat Partiyasının hər üzvü ilə birlikdə fəaliyyət göstərməyə hazıram".

Başqanlığa digər **namizəd Qubad İbadoğlu** həm şərəflə qalib olmağa, həm də məğlub olmağa hazır olduqlarını bildirdi: "Proses eyni zamanda bizim apardığımız seçki kampaniyası Azərbaycana yeniliklər gətirib və biz bu istiqamətdə də yenilikləri davam etdirəcəyik. Bu sahədə Azərbaycanda da bir nümunə göstərəcəyik".

**Tural Abbaslı da qalibin kim olmağından asılı olmayaraq həmin şəxsi təbrikdə edəcəyini bildirdi:** "Müsavatda keçirilən seçkilərin ədalətli və demokratik olacağına heç bir şübhəm yoxdur. Odur ki, mən də qalibin kim olmağından asılı olmayaraq həmin şəxsi təbrik edəcəyəm və onun başqanlığı altında növbəti dörd ildə Müsavatda fəaliyyətimi davam etdirəcəyəm. Qeyd edim ki, burada seçkilərin demokratik, ədalətli keçirilməsi faktoru əsasdır. Müsavat Partiyasının bu günə qədər seçkiləri ədalətli keçirilibsə, yenə də belə olacaq. Odur ki, udan tərəfin təbrik etməməyim və əlini sıxmamağım üçün heç bir səbəb qalmayacaq".

**Digər namizəd Səxavət Əlisoy** da bildirdi ki, partiyaya kimin başqan seçilməsindən asılı olmayaraq həmin şəxsin əlini sıxacaq. "Mənim bu gün Müsavata yenicə üzv olan şəxsdən tutmuş İsa Qəmbərə qədər heç kiminlə şəxsi problemim olmayıb. Məndən ötrü önəmlisi Müsavat Partiyasıdır, qruplaşmalar yox. Mən açıq şəkildə bəyan edirəm ki, partiyaya kimin başqan seçilməsindən asılı olmayaraq həmin şəxsin əlini də sıxacam, əvvəlki münasibətlərimiz də davam edəcək. Sadəcə olaraq heç kim qırmızı xətt deyilən o xətti keçməməli, təkəbbür nümayiş etdirməməlidir. Tənqid olar, amma təhqir olmaz. Təhqiramiz ifadələr işlətmək Müsavatın təməl, ləyaqət prinsiplərinə ziddir. Sözdə bir şey deyib əməldə isə başqa bir şey edilməməlidir".

❑ Günel MANAFLI



Derek Hogan

# Qubad İbadoğlu ABŞ səfiri ilə görüşüb

**Musavat.com-a daxil olan məlumata görə, sentyabrın 26-da iqtisadçı-alim, Müsavat başqanlığına namizəd Qubad İbadoğlu ABŞ səfirliyində olub. Məlumatı dəqiqləşdirmək üçün Qubad İbadoğlu ilə əlaqə saxladıq. Görüş xəbərini təsdiqləyən Q.İbadoğlu ABŞ səfirinin səlahiyyətlərini icra edən Derek Hoganla görüşdüyünü və bu görüşün qapalı keçdiyini bildirdi. Ona görə də geniş məlumat verə bilməyəcəyini bildirən Qubad İbadoğlu görüşdə vətəndaş cəmiyyətinin şəffaflıq təşəbbüsündə iştirakı və Müsavat Partiyası başqanlığına namizədliyi ilə əlaqəli məsələlərin müzakirə olunduğunu açıqladı.**

❑ Xəbər xidməti

YENİ MÜSAVAT
N 241 (5950) 27 sentyabr 2014

# İsa Qəmbər başqan kimi sonuncu mətbuat konfransı keçirdi

## Müsavat başqanı: "Bu 21 ildə mən hakimiyyəti, o da məni dəyişməyə çalışdı. Heç birimiz qələbə çala bilmədik"

**Müsavat Partiyasının başqanı İsa Qəmbər sentyabrın 26-da başqan kimi son mətbuat konfransını keçirdi. İsa Qəmbər öncə dedi ki, qurultay ərəfəsində ona media qurumlarından çoxsaylı suallar olub. Ona görə də qərara gəlib ki, qurultaydan bir gün öncə mətbuat konfransında bütün suallara aydınlıq gətirsin.**

İ.Qəmbər dedi ki, 27 sentyabr qurultayı Müsavat üçün çox önəmli hadisədir: "Bu, partiyamızın tarixində 8-ci qurultaydır. Qurultayda partiyanın ötən ali tədbirindən bu günə qədər olan dövr haqqında fəaliyyətimiz müzakirə ediləcək, qiymətləndiriləcək. Nizamnamə və proqramda müəyyən dəqiqləşdirmələr, dəyişikliklər nəzərdə tutulub, partiyanın yaxın dövr üçün fəaliyyət istiqamətlərinə bir daha baxılacaq və qərarlar veriləcək, ölkədəki vəziyyətə və ölkənin bu günü və sabahı ilə bağlı müsavatçıların iradəsi ortaya qoyulacaq. Eyni zamanda açıq-aydın görünür ki, qurultayı cəmiyyətin maraq dairəsinə gətirən, önəmli bir hadisəyə çevirən əsas hadisələrdən biri də keçiriləcək seçkilərdir. Müsavatda hər zaman azad və ədalətli seçkilər keçirilib. Bəlkə də Azərbaycanda nadir partiyalardandır ki, Müsavatda bütün seçkilər gizli səsvermə yolu ilə keçirilir. Son illərdə ümumiyyətlə bu sahədə ciddi yeniliklərə getdik. Başqa təşkilatlarda olduğu kimi namizədlər iclasların, qurultayların gedişində irəli sürülmür. Namizədlər üçün öncədən zaman müəyyənləşdirilir. Ölkənin prezident və parlament seçkilərində olduğu kimi namizədlərin mövqelərini, platformalarını seçicilərə çatdırması, təbliğatlarını qurması üçün zaman tanınır və həqiqi bir seçki mühiti yaradılır. Bu, Müsavatın ənənəsidir. Amma növbəti qurultayda daha önəmli bir addım atılacaq. Bu başqanın dəyişməsi ilə bağlı seçkilərdir".

**İ.Qəmbər qeyd edib ki, bu, iki istiqamətdə ciddi hadisədir:** "Birincisi, ölkədə avtoritar rejim formalaşıb. Bu rejim hakimiyyətdən ayrılmağı özü üçün faciə hesab edir, hər hansı başqa siyasətçinin hakimiyyətə gəlmək iddiasına az qala vətənə xəyanət, dövlət çevrilişi səviyyəsində bir məsələ kimi yanaşır. Bu rejim artıq bu sistemi daşlaşmış bir hala gətirmək istəyir. 2009-cu ildə saxta referendum keçirildi və bir şəxsin iki dəfədən artıq prezident seçilməsinə qadağanı konstitusiyadan çıxardılar. Daha sonra digər vəzifəli şəxslərin də faktiki olaraq ömürlük öz vəzifələrində qala bilmələri üçün-bəzilərində qanun vasitələri ilə, bəzilərində başqa gerçəklikdə addımlar atmaqla-ömürlük vəzifələr müəyyənləşməyə başladı. Prokurorluqda, ombudsman vəzifələrində, digər sahələrdə, hətta Şeyxülislamın da ömürlük olması razılaşdırılıb. Son illərdə hətta deputatlar da deputat kürsüsünü öz ömürlük mülkiyyətlərinə çevirirlər, üstəlik də hansısa deputat ya çox yaşlananda, ya hansısa səbəbdən parlamentdən saxlanması nəzərdə tutulanda çox rahat şəkildə həmin deputatın yerinə onun oğlunun və ya nəvəsinin gəlməsi məsələsi müzakirə olunur. Yəni yüz il əvvəl Məhəmməd Əmin Rəsulzadə tərəfindən dövrünün ən inkişaf etmiş dəyərlərinə uyğun şəkildə qurulan cümhuriyyətin bu günündə hakimiyyətdə olan rejim bir feodal sistem qurmağa başlayıb. Belə bir mərhələdə Müsavat Partiyası özünün hələ 2001-ci ildə qəbul edilmiş Nizamnamə dəyişikliyinə əsasən, başqan seçkisi keçirir və başqan dəyişir. Bu, Azərbaycana Müsavat Partiyası tərəfindən növbəti bir demokratiya nümunəsidir. Bu, hakimiyyətə xəbərdarlıqdır ki, Müsavat Partiyası digər demokratik qüvvələrlə birlikdə imkan verməyəcək ki, hakimiyyət Azərbaycanı bir feodal ölkəsinə çevirsin. Bu seçki bunun mesajıdır. Digər tərəfdən, başqan seçkisi azad və ədalətli seçki ilə həyata keçiriləcək. Bu, texniki bir dəyişikliklə, təyinatla olmayacaq, həqiqi bir seçki yarışı ilə olacaq. Müsavatın bu qurultayı, başqan seçkiləri Azərbaycanda medianın, gündəmin əsas mövzularından birinə çevrilibdir. Bu, özü-özlüyündə çox önəmli bir nəticədir. Çünki Müsavat Partiyası bir daha cəmiyyətə azad və ədalətli seçkinin mümkünlüyünün mesajını verir. Biz dövlətimizə, xalqımıza xidmətimizi davam etdiririk və etdirəcəyik. Müsavatın bu qurultayı Müsavat Partiyasının daha da güclənməsinə, daha güclü siyasi təşkilat halına də kömək edəcək, eyni zamanda cəmiyyətdə də müsbət dəyişikliklərin, düzgün istiqamətdə addımların atılması önəmli bir siqnal olacaq".

Mətbuat konfransında Türkiyədən qurultayda iştirak üçün gəlmiş qonaqlar, Azərbaycan Kültür Dərnəyinin rəhbərləri Cəmil Ünal və İsa Yaşar Tezel də iştirak edirdilər.

**Cəmil Ünal və İsa Yaşar Tezəl də çıxış edərək müsavatçılara uğur arzulayıblar.**

C.Ünal bildirib ki, İsa Qəmbərin başqanlıq kürsüsü uğrunda növbəti dəfə seçkilərə qatılmaması böyük fədakarlıqdır, demokratiya nümunəsidir: "Bu, fədakarlıqdır. Ən çox ehtiyac duyulan bir zamanda İsa bəy çoxlarına örnək olacaq bir hərəkət edir. Bu bölgədə kürsüsündən asanlıqla əl çəkən partiya lideri görmədim. Amma İsa bəyin bu hərəkəti örnəkdir. Müsavat bu millətin həm taleyidir, həm tarixidir. 22 il ərzində İsa Qəmbər Müsavat Partiyasına ləkə gətirmədən idarə etdi. Müsavatçılar bundan sonra İsa bəyə daha çox sahib çıxacaqlar, çıxmalıdırlar. Çünki belə insanlar asan yetişmir. Partiyada seçim bir etapın başlanğıcıdır. Müsavatdakı seçkidə bir nəfər qalib gələcək, amma digərləri də uduzmayacaqlar. Qazanın yanında onu qucaqlayaraq, onunla müsavatçılıq yolunda birləşərək Müsavat ideyalarına, xalqa xidmət edəcək. Hər kəsin gözü bu qurultaydadır. Müsavatçılara müraciət edirəm ki, Müsavatı sevməyənlər bu partiyanın içində çalxalanmaların olmasını istəyirlər onların sevinməsinə imkan verməyin. Namizədlərin hansı seçilir seçilsin onun Məhəmməd Əmin Rəsulzadə yolunda Müsavata xidmət edəcəyini umuruq və gözləyirik. İsa bəyə can sağlığı arzu etməklə yanaşı bundan sonra da Müsavatın onun kölgəsində siyasətinə davam edəcəyinə inandığımızı bildirirəm".





İsa Yaşar Tezel də çıxışında Müsavatçılara qurultayda və sonrakı fəaliyyətində uğurlar arzuladığını bildirdi. İsa Qəmbəri böyük dostu adlandırdı.

**Daha sonra İsa Qəmbər jurnalistlərin suallarını cavablandırdı.**

"Başqanlığa namizədlərdən Arif Hacılı istisna olmaqla digər üçünün bu mətbuat konfransında iştirak etməməsini necə qiymətləndirirsiniz" sualına İsa Qəmbər belə cavab verdi: "Namizədlərin mətbuat konfransında iştirak etmək kimi nə öhdəlikləri, nə məsuliyyətləri yoxdur. Arif bəyə təşəkkür edirəm ki, zaman tapıb gəlib iştirak edir. Digər namizədlər də qərargahda olsaydılar yəqin ki, onlar da iştirak edərdilər".

*"Yeni seçiləcək başqanın müddəti başa çatandan sonra başqanlığa yenidən namizədliyiniz verə bilərsinizmi"* sualını isə İsa Qəmbər belə cavablandırdı: "Nizamnamə bunu qadağan eləmir. Nizamnamədə yazılıb ki, iki dəfədən artıq ardıcıl olaraq eyni adam seçilə bilməz. O baxımdan nəzəri cəhətdən mənim də, məndən sonra iki müddət başqanlıq edən şəxslərin də Nizamnamə dəyişməsə hüququ olacaq yenidən başqanlıq yarışına qatılmağa. Ancaq düşünürəm ki, məndən sonra seçiləcək başqan elə yüksək idarəçilik aparacaq ki, biz də ona tam dəstək verəcəyik və bizim yenidən Müsavat başqanlığına iddia eləməyimizə ehtiyac qalmayacaq. Bizim fikrimiz odur ki, başqanlıqdan çəkilməyim mənim daha sərbəst, daha rahat şəkildə ümumi proseslərlə məşğul olmağıma imkan yaradacaq. Biz inanırıq ki, növbəti prezident seçkilərində Müsavatın namizədi hakimiyyətə gələcək".

**Partiyada hansı vəzifəyə iddiasının olduğu haqda suala cavabında İsa Qəmbər dedi ki, heç bir vəzifəyə iddiası yoxdur:** "Müsavat Partiyasının sıravi üzvü olmaq da məsuliyyətli və şərəflidir. Mən də arzu edirdim ki, Müsavatın sıravi üzvü olmaq şərəfini, zövqünü yaşayım. Partiya yoldaşlarımdan bir sıra təkliflər var. O təkliflərin hansı Müsavatın Nizamnaməsinin məntiqinə, təməl prinsiplərinə uyğun gəlirsə, onları dəyərləndiririk. Hansında başqa qüvvələrdə olduğu kimi, lider statusu və sair söhbətlər olursa, onları biz qəbul eləmirik. Biz hesab edirik ki, vəzifələr insanlara üstünlük gətirmir, insanlar vəzifələrə üstünlük gətirir. O baxımdan bizim heç bir vəzifəyə iddiamız yoxdur. Müsavatın əsgəri kimi xidmət eləməkdə davam edəcəyik. Əgər Müsavat Partiyası məqsədəuyğun saysa Məclis üzvü kimi fəaliyyət göstərə bilərik. Müsavat üzvləri prezident seçkilərində mənim namizədliyimi irəli sürməyi məqsədəuyğun saysalar mənim buna etirazım olmayacaq".

**İsa Qəmbər onu da dedi ki, Milli Strateji Düşüncə Mərkəzinin sədri olaraq da cəmiyyətə, demokratik dəyərlərə xidmət eləyə biləcək.**

Özünün 22 illik başqan kimi fəaliyyətini necə qiymətləndirməsi ilə bağlı suala isə İsa Qəmbər belə cavab verdi: "1980-ci illərin sonlarından ictimai-siyasi proseslərdə iştirak edirəm. 1980-ci illərin sonları, 1990-cı illərin əvvəllərində Cəmil Ünal, rəhmətlik Mehmet Kəngərli, Əhməd Qaraca kimi böyüklərimizlə, ağsaqqallarımızla görüşlərimizdən, məsləhətləşmələrdən sonra faktiki olaraq 1992-ci ilin martından Müsavatın bərpa mərkəzinə rəhbərlik etməyə başlamışam. 1992-ci ilin noyabrında isə başqan seçilmişəm. 22 ildən artıq müddətdir ki, bu partiyaya rəhbərlik edirəm. Bu dövrə qiymət vermək elə də sadə deyil. Yaxşı olardı ki, bunu cəmiyyət, başqaları etsin. Mən bəlkə də nə zamansa bu dövrü qiymətləndirmək üçün müəyyən yazılar yazacağam. İndi isə qısaca bir şey deyə bilərəm. Bu 21 ildə mən Azərbaycanda hakimiyyəti, Əliyev rejimini dəyişməyə çalışdım. Əliyev rejimi də məni dəyişməyə çalışdı. Heç birimiz qələbə çala bilmədik. Meydan, hakimiyyət onların əlində olduğu üçün mən hesab edirəm ki, mənim baxımımdan rəqib meydançasında heç-heçədir hələlik. Ancaq proses davam edir. Biz mübarizəni davam etdirəcəyik. Bu, şəxs mübarizəsi deyil. Bu, dəyərlərin mübarizəsidir. Yüz ildir Azərbaycanda bu dəyərlərin mübarizəsi açıq şəkildə gedir..."

**Başqanlığa namizədlərin seçki kampaniyasını necə qiymətləndirdiyi haqda suala da İsa Qəmbər cavab verdi:** "Namizədlərin seçki kampaniyasını maraqla izləyirəm, kampaniya çox yaxşı gedir. Arif bəy, görkəmli siyasətçi olmaqla yanaşı, çox təcrübəli seçki mütəxəssisidir. Qubad bəy QHT sektorunda bir sıra uğurlu seçki kampaniyaları apardığını təqdim edib. Tural bəy də çox iddialı, mübariz, əzmli bir gəncimizdir. Səxavət Əlisoy da orijinal şəkildə seçki kampaniyasını aparır. Gərginliklər var, həqiqi seçki gərgin olmalıdır. Hesab edirəm ki, seçki bitdikdən sonra hamımız seçilən növbəti başqanı başqanımız kimi qəbul edəcəyik və onun fəaliyyətinin uğurlu olması üçün əlimizdən gələni edəcəyik".

"Namizədlərdən hansının başqan seçilməsini istədiyiniz nə üçün digər müsavatçılar kimi açıqlamırsınız" sualını İsa Qəmbər bu cür cavablandırdı: "Bu, ciddi və mənim özümü də düşündürən bir sualdır. Çünki bir tərəfdən mən də qurultay nümayəndəsiyəm və mənim də bir səsim var. Mən də bir səsimi dörd namizəddən birinə verəcəyəm və səsimi kimə verəcəyimi bilirəm. Amma dostlarımızın bəziləri xahiş edirlər ki, bunu mən açıqlamayım. Hesab edirlər ki, mən hansı namizədi dəstəklədiyimi bildirsəm bu artıq seçki prosesini bitirər. Çünki müsavatçıların böyük əksəriyyəti dostlarımızın dediyinə görə, mənim fikrimi başqan olaraq yüksək dəyərləndirir və mənim fikrim onların mövqeyinə əhəmiyyətli dərəcədə təsir eləyə bilər. Mən də bu iki məntiqli yanaşmanın hansına üstünlük verəcəyimlə bağlı hələ son qərarımı qəbul eləməmişəm. Ən azı qurultaya qədər bu şəkildə davam edəcək. Qurultayın gedişində yenə də bir dəyərləndirmə yapıb şəxsən öz qərarımı qəbul edəcəyəm. Çünki hamının mövqeyini başa düşürəm, amma hamı da mənim də mövqeyimi dərk eləməlidir ki, mən də müsavatçıyam, mən də Müsavat Partiyasının qurultay nümayəndəsiyəm və kimə səs verəcəyimi açıqlayıb açıqlamamaq müstəsna olaraq mənim hüququmdur. Xüsusən də nəzərə alsaq ki, qurultay başlayandan sonra artıq mənim başqan statusum bitəcək və mən də bütün qurultay nümayəndələri kimi bərabər səviyyədə prosesdə iştirak edəcəyəm".

**İsa Qəmbər Müsavatın qurultayına hansı partiyaların dəvət olunacağından da danışdı. O bildirdi ki, qurultaya heç bir partiya dəvət olunmayacaq:** "Əgər Azərbaycanın tanınmış ekspert və ya ictimai xadimləri qurultayda qonaq kimi iştirak etmək istəyəcəksə, buyurub gələ bilərlər. Yer kiçik olduğu və danışılası məsələlər bol olduğu üçün digər partiyaları konfransa dəvət etməmək qərarına gəlmişik".

İsa Qəmbər ona verilən daha bir suala cavab olaraq bildirdi ki, qurultaydan sonra partiyadan bir neçə nəferin gedişi ola bilər, bu cür hallar həmişə qurultaylarda müşahidə olunandır: "Amma ciddi bir sarsıntının yaşanacağını gözləmirəm"

**Başqan daha sonra bildirdi ki, hələ ki memuar yazmaq fikrində deyil:** "Bunu pensionerlər edir. Pensiya yaşı kişilər üçün 63-dür, mənim isə 57 yaşım var. Yazmaq istədiyim vaxt memuar yazacağam. 22 illik kapitan kimi hakimiyyətin qapısına qol vurmamaqla bağlı suala gəldikdə isə Müsavat 2000-ci ildə parlament seçkilərinin qalibi olub. Bundan ciddi qol ola bilərmi, Bəndəniz isə 2003-cü ildə prezident seçkilərini udub. Əgər hakim vurulmuş bu qolları saymırsa, başqa nə üsul var ki. Biz müstəsna olaraq dinc mübarizə aparırıq. Biz başqa mübarizə üsulunu Müsavat olaraq qəbul eləmirik".

**İsa Qəmbər qurultaydan sonra özünün siyasi çəkisi ilə partiyanın işinə necə təsir edəcəyi barədə də danışdı. İsa Qəmbər bildirdi ki, partiyaya müdaxilə üçün xüsusi iddiası yoxdur:** "Bu ya çox çətin, ya da çox asan sualdır. Məni də düşünməyə məcbur edir. Mənim Müsavat üzərində məsuliyyətim var. Təklif olunur ki, Məclis üzvü olum. Sizə bir sirr açım. Məclis üzvü elə rahat postdur ki, istəsən partiyanın qərarlarına təsir edə bilərsən, istəsən heç iclaslara da gəlmirsən. Əgər hər şey qaydasında olsa, müdaxilə etməyimə ehtiyac olmayacaq. Ümid edirəm ki, qaydasında olacaq".

**Sonda İsa Qəmbər media nümayəndələri ilə onların xahişi ilə xatirə şəkli çəkdirdi.**

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 241 (5950) 27 sentyabr 2014



# Tüpürdüyünü yalayan Jirinovski

Azər RƏŞİDOĞLU

**Rus millətçiliyinin karikaturası olan Vladimir Jirinovski Bakıya gəlib. Rusiyanın ən qalmaqallı siyasətçisi olan Liberal Demokrat Partiyasının sədri Vladimir Volfoviç Jirinovski Bakıya RF Dövlət Dumasının vitse-spikeri kimi dəvət olunub.**

V.Jirinovski daim Azərbaycan xalqını təhqir edib. Bu sərsəm sima qeyri-ruslara nifrəti ilə seçilib. Odur ki, onun mövcudluğunu belə qəbul etmədiyi Azərbaycana təşrif buyurması çoxsaylı suallar doğurur.

Hər kəs belə bir sual üzərində baş sındırır - Jirinovskini Bakıya çağırmaq kimin ideyasıdır və bu səfərin pərdəarxasında hansı məqsədlər durur?

Rusiyanın ən riyakar siyasətçisi olan V.Jirinovski Bakıda Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, Qarabağın Azərbaycan mədəniyyətinin mərkəzi olduğunu, Azərbaycanla Rusiyanın strateji tərəfdaş olduqlarını söyləyib.

Əlbəttə ki, bütün bunların müqabilində bu təlxəyin yaxşı qonorar alacağını da ehtimal etmək olar. Yaxşı qonorara V.Jirinovski rus kimliyindən belə imtina etməyə hazır olan biqəlamun siyasətçilərdəndir.

***

İraqda Səddam Hüseynin rəhbərlik etdiyi vaxtlar idi. Bağdadda idim. Jirinovski ilə bir oteldə - "Palestin otel"də yerləşmişdik. Oteldən çıxanda Jirinovskini gördüm. Jurnalist ənənəsinə sadiq qalaraq, müsahibə almaq istədim. Maraqlı söhbət alındı. Söyüşləri ixtisar etməklə bu təlxəklə söhbətimi təqdim edirəm.

**- Здравствуйте, Владимир Вольфович.**

**- Здравствуй, араб.**

**- Я не араб.**

**- А кто ты?**

**- Я азербайджанец. Журналист из Баку. Хочу делать с Вами интервью.**

**- Азербайджан? Нет такого названия.**

**- Владимир Вольфович, как это нет такого названия?**

**Сющбятин давамы тцґкъя эедиг.**

**- Лан, ....... аула, лан, анладын бени?**

**- Сянин нянян баґядя ейни дцшцнъяляґи райлашыґам.**

**- Анламадым, сен не сюйледин, лан?**

**- Ничего осебенного. Интервью хочу делать с Вами, господин Жириновский.**

**- Лан, ....... аула, Анламадынмы? .........**

Söhbət rus dilində davam etdi və mən Jirinovskinin anasını Azərbaycanda çox sevdiklərini rus dilində izah etməyə çalışdım...

***

Prinsipcə, Jirinovskidən ancaq belə kobudluq gözləmək mümkün idi. İlk baxışda şizofreniyadan əziyyət çəkən bir xəstə təsiri bağışlayan V.Jirinovski rəsmi Moskvanın planlarını açıqlayan bir müqəvva kimi tanınır.

Bu sarsaq siyasətçinin Bakıya gəlişini təbii olaraq bir çoxları təhqir kimi qəbul edir. Lakin rus şovinizminə parodiya olan Jirinovski bu yaxınlarda birdən-birə Azərbaycan hakimiyyətini tərifləməyə başladı.

Tamahkar, pulgir Jirinovskinin mövqeyini dəyişməsinə ciddi önəm verən olmadı. Bu adama baş qoşmaq özü mənasızdır. Lakin ortada fakt mövcuddur. Azərbaycanı təhqir edən, belə bir ölkənin və xalqın olmadığını dilə gətirən bir rus millətçisi Bakıya gəlib, Azərbaycanı mədh edir.

Jirinovski heç kimdir. Bir heçdir. Amma o hamını vahimə içərisində saxlayan bir ideologiyanın - rus millətçiliyinin təmsilçisidir. Bu millətçiliyin təmsilçiləri öz ideyalarını da satmağa, ona dönük çıxmağa adət ediblər. Azərbaycana tüpürən Jirinovski bu gün ölkəmizə gəlib, tüpürdüyünü yalayır. Rus millətçiliyinə yaraşanı da elə budur.

Söhbət siyasətçidən daha çox təlxəyə bənzəyən Jirinovskinin dönüklüyündən də getmir, ənənəvi rus millətçiliyinin simasızlığından gedir.

***

Jirinovski bu gün bizləri tərifləyir. Lakin hər kəs onun bizə nifrətinin miqyasının böyüklüyünü də dərk edir.

**Rus millətçisi olan Jirinovski öz niyyətini gizlətmir. LDPR sədri belə hesab edir ki, bütün qonşu millətlər rus çəkmələrini öpməyə məhkumdurlar. Bunu etməyənlər isə yenidən Sibirə sürgün oluna bilər. Bu, Jirinovskinin və onunla eyni ağılda olanların fikirləridir. Azərbaycanda isə imperiyanı dağıdan insanlar hələ sağdırlar və onlar ölkələrinin yenidən müstəmləkə olması ilə barışa bilməzlər. Elə bu insanlar Jirinovskiyə və onun arxasında dayananlara yerlərini göstərmək gücündədirlər...**





# Cəmil Ünal və İsa Yaşar Tezəldən Müsavat və Azərbaycan haqda ilginc açıqlamalar

**Cəmil Ünal:** "Bu seçkilərə kim girirsə-girsin, qazananın ətrafında toplaşmaq lazımdır; bu seçimdə, əlbəttə, bir kişi qazanacaq, amma qazanmayan olmayacaq"





**İsa Yaşar Tezəl:** "Azərbaycanda bir siyasətçi öz istəyi ilə siyasətdən çəkilir və yeni başqanla yola davam etmək istəyir. Bu, Azərbaycan siyasətinin demokratikləşməsi üçün çox gözəl bir addımdır"

**Müsavat Partiyasının 27 sentyabrda keçiriləcək qurultayında iştirak etmək üçün Bakıya gələn Azərbaycan Kültür Dərnəyinin rəhbərləri Cəmil Ünal və başqan yardımçısı İsa Yaşar Tezəl "Yeni Müsavat" qəzetinin qonağı olub. Baş redaktor Rauf Arifoğlu, Xalq Partiyasının sədri Pənah Hüseyn və redaktor korpusunun, qəzet əməkdaşlarının iştirak etdiyi görüşdə dəyərli qonaqlar qəzetimizə maraqlı açıqlamalar da verib.**

Tarixi məqamda, Müsavat qurultayının keçirildiyi ərəfədə Azərbaycana gələn C.Ünaldan vəziyyətlə, partiyadakı durumla bağlı düşüncələrini bölüşən Kültür Dərnəyinin başqanı Müsavatda həyəcan olduğunu vurğuladı: "Təbii bu həyəcanın bir qismi İsa bəydən sonra başqanlığa iddiasını qoyan qardaşlar arasındakı yarışla bağlıdır. Amma daha önəmli olan qismi də xalqın, ölkə xaricindəki əcnəbilərin bu qurultayı yaxından izləməsi ilə əlaqədardır. Hər kəs bu qurultaydan bir şeylər gözləyir. Müsavata könül verənlər, iqtidardan rahatsız olanlar və Azərbaycanın gələcəyini düşünənlər də bu qurultayla maraqlanır. Əlbəttə ki, yarışların sonunda bir para sıxıntılar ola bilər. Amma siyasətdə və partiyaçılıqda önəmli olan siyasətə, partiyaçılığa davamdır. Yəni siyasətə girən qardaşlar içərisində ən nəhayət, bir dənəsi qazanacaq. Amma digərləri uduzmuş sayılmaz. Yəni seçimdə qazanmayan "mən uduzdum" deməməlidir. Bəlkə onun partiyada yeri, göstərəcəyi fəaliyyəti daha gözəl olacaq". Cəmil Ünal bildirdi ki, başqanlığa iddialılara münasibətindən asılı olmayaraq son qərarı qurultayın verməsi lazımdır: "Qurultay iştirakçıları bu partiyanın başında kimi görmək istəyirlərsə, əlbəttə ki, onu seçəcəklər. Amma bir insanın yetişməsi asan olmur. Sizlərlə bərabər İsa bəy 25 ilə yaxındır partiyanın başındadır. Azərbaycan kimi bir coğrafiyada siyasətçi olmaq, partiya başqanı olmaq, politikanı namuslu, şərəfli, xalqın istədiyi şəkildə yürütmək asan deyil. Deyərdim ki, hələ də bu coğrafiyada soyuq savaş dönəmidir. İki qütblü dünyanın təsirləri hələ bu coğrafiyada mövcuddur. Yəni bir ölkədə keçirilən seçkidə bir partiyada yüzdə doxsan, yüzdə səksən beş faiz səs alırsa, o ölkənin idarəsi demokratik deyil, yavaş-yavaş polis dövlətinə, faşizmə doğru gedən bir siyasət yürüdür. Müsavat bu, deyil".

**Ölkə iqtidarı ilə bağlı da fikirlərini bölüşən C.Ünal qeyd etdi ki, bu seçkilərdən sonra Müsavatın öz proqramı, xalqa xidməti ilə çox aktiv şəkildə millətin qarşısına çıxması lazımdır:** "İnanın, Azərbaycanda bugünkü iqtidara yaxın görünənlərin böyük bir qismi də bu idarəçilikdən məmnun deyil: "Amma qorxularından, əzildiklərindən, yaxud basqı səbəbindən üzə çıxa bilmirlər. İkincisi də "Müsavat nə edirsə-etsin, ona iqtidar verməzlər" deyə, xalqda düşüncə var. Bu qurultayda Müsavat xalqın güvənini qazanacaq, keçmişdən qalan yanlış düşüncə yıxılacaq. Bu qurultay həm Müsavatın, həm Azərbaycanın, həm də Azərbaycanın gələcəyinin fotosunu çəkmək istəyən yabançıların diqqət mərkəzində olacaq".

**Dərnək başqanı iddiaçılarla görüşlərindən, onlarla söhbətindən də bəhs etdi:** "Bir neçə ay əvvəl Arif bəy Türkiyəyə gəlmişdi, görüşdük, axşam da bizim evdəydi. Söhbət etdik. Arif bəyə bunu dedim: İsa bəyin ayaqda qalması, partiya başında da mücadilə aparmasının ən önəmli səbəbi sizin kimi dəyərli qardaşların onun yanında olması, çiyin-çiyinə yürüməsiydi. Dedim, inşallah, mən də arzu edirəm ki, sizin yanınızda da sizin kimi dəyərli qardaşlar olar. Əlbəttə ki, bu, bir yarışdır, bu yarışa girənlərin hamısı dəyərli, onlar hamısı Müsavat yolunda xidmət göstərmək məqsədilə seçkilərə qatılıblar. Bu seçkilərə kim girirsə-girsin, qazananın ətrafında toplaşmaq lazımdır. Bir neçə gün əvvəl də Qubad bəy gəldi. Azərbaycanla əlaqəli baxışlarını bölüşdü. Ona da eynilə Allah yolunuzu açıq etsin dedim və bildirdim ki, bu xidmət yolunda hansınız qazanırsınızsa-qazanın digər qardaşlarla da qucaqlaşmaqla Azərbaycanın gələcəyinə xidmət edin. Bu seçimdə əlbəttə, bir kişi qazanacaq, amma qazanmayan olmayacaq. Biz tərəfik, Müsavatın, müsavatçılığın, Məhəmməd Əmin Rəsulzadə yolunun tərəfindəyik. Amma digər seçimlərdə qərarı verəcək Azərbaycan müsavatçılarıdır. Onların verəcəyi qərara da hər kəsin saygı göstərməsi və qucaqlaşmaları lazımdır".

**İsa Yaşar Tezəl isə Müsavatın 3-cü Bərpa Qurultayında da iştirakçı olduğunu xatırlatdı:** "Orda çox gözəl bir atmosfer var idi. Azərbaycanın müstəqilliyini qazanması uğrunda hərəkatın liderliyini Elçibəy və İsa Qəmbər edib. İsa bəyin başqanlıqdan ayrılmasını mən də istəmirəm. Amma getmək qərarında çox israr etdi. Müsavat başqanlığına iddiali şəxslərin hər birinə uğurlar arzulayırıq. Qurultayın da küsüşmə, ayrılma olmadan bitəcəyi ən böyük arzumuzdur. Hər kəsə xeyirli-uğurlu olsun".

*"Bərpasından sonrakı 22 illik dönəmdə İsa Qəmbərin başqanlıq etdiyi Müsavatın sonrakı taleyi ilə bağlı narahatlığınız varmı və İsa bəyin başqan olmadığı partiyanın taleyini necə görürsünüz"* sualına cavabında Cəmil Ünal dedi ki, xidmət bir yerdə oturmaqla olmur: "Xidmətin ediləcəyi yerlər, məkanlar var. İsa bəy gənc yaşında 25 ilini bu davaya vermiş qardaşımızdır. İsa bəy xasiyyəti, duruşu, namusu, bilgisi ilə Azərbaycanda nümunə şəxsiyyətlərdən biridir. Müsavat qadirbilən bir partiyadır. İsa bəy harda olursa-olsun müsavatçılar, Müsavata könül verənlər, Müsavat Partiyasını idarə edənlər bir çox mövzuda İsa bəyin fikirlərindən bəhrələnəcək. Çünki biz 65 illik Dərnəyik. Bu müddətdə Müsavata, müsavatçılığa ən xırda bir ləkə gəlmədi. Məhəmməd Əmin Rəsulzadə 1953-cü il toplantısında Azərbaycanda istiqlal elan edildiyi zaman bayrağın, Müsavat Partiyasının və Milli Mərkəzin Azərbaycana göndərilməsini əmr etmişdi. Biz bu ikisini yerinə yetirdik: bayrağı da, Müsavatı da. Əlbəttə, bayrağı təslim alan Elçibəy də, Müsavatı təslim alan İsa bəy də Məhəmməd Əmin Rəsulzadənin yolunda şərəflə mücadilə verdilər. Bundan sonra da Müsavatın İsa bəyə daha çox dəyər, qiymət verməsi, ondan istifadə etməsi lazımdır. Sizlərin də Azərbaycanda gözəl bir heyət olaraq həm seçilən qardaşlarımızın arxasında olacağını, həm də Müsavatı daha yaxşı gələcəyə daşımaq üçün Müsavat üçün daha çox faydalı olacağınıza əminəm. O baxımdan mənim bir əndişəm yoxdur. Çünki yarışa girən qardaşlarımızın da ürəyində bu amal var. Amma onları təhrik etməmək, bir-birinə girməmələri üçün yol göstərməmək lazımdır. Azərbaycanın gözəl bir xalq deyimi var:

***Alçalar, alçalar,***
***Çiçək açar alçalar.***
***Mən öləndə elə yerdən aparın***
***Dost görər, qəmgin olar,***
***Düşmən görər, əl çalar.***

Müsavat olaraq biz nə düşməni sevindirəcəyik, nə də dostu üzəcəyik. Bunu nəzərə almaq lazımdır. Çünki Müsavatın uğursuzluğunu gözləyib alqışlamaq istəyənlər var. Bir də Müsavata ümid bağlayıb Müsavatın uğurları üçün əl çalmağa hazır olanlar var. Siz uğurlar üçün əl çalmaq istəyənləri təşviq edin, düşməni sevindirməyin".

**İsa Yaşar Tezəl isə "Azərbaycanda bir siyasətçi öz istəyi ilə siyasətdən çəkilir və yeni başqanla yola davam etmək istəyir. Bu, Azərbaycan siyasətinin demokratikləşməsi üçün çox gözəl bir addımdır, bunu da alqışlamaq lazımdır" deyə, əlavə etdi.**

**Elşad PAŞASOY**
**FOTO: Cavanşir ABBASLI**

# “Ölkə gəncliyinin ciddi problemləri var”

## Paşa Çıraqov: “Gənclər elmi, fiziki potensiallarını ölkəmizin gələcəyinə sərf etməlidirlər”

**Ümid Partiyası Gənclər şöbəsinin sədri Paşa Çıraqov gənclərlə bağlı partiyanın yürütdüyü siyasət və qurumun gördüyü işlərlə barədə partiyanın mətbuat xidmətinə danışıb. Onun düşüncələrini təqdim edirik:**

**- Bu gün Azərbaycanda gənclər üçün onların maraq dairələrini əhatə edən proqramlar mövcud olsa da, həmin proqramların sayı və hədəf qrupu məhdud saydadır.** Bu səbəbdən Ümid Partiyasının gənclər siyasəti, gənclərin problemlərinin kökündən həllinə yönəlib. Gənclərimiz daha yaxşı təhsil almaq, daha sağlam bir karyera qurmaq, ən əsası gələcəyə daha ümidlə baxmaq üçün xarici ölkələrə üz tuturlar. Bu səbəbdən onlar elmi və fiziki potensiallarını da üz tutduqları ölkələrə sərf edirlər. Bu cür axının qarşısının alınması üçün ölkədə gənclərlə bağlı daha cəlbedici addımlar atılmalı, mövcud imkanlar isə daha da şaxələndirilməlidir. Onların asudə vaxtlarının səmərəli keçirilməsi, işlə təmin olunması, sağlam və güvənli yaşamaları, yüksək elmi potensiala malik olmaları üçün ölkədə ciddi islahatlara ehtiyac var. Hazırda ölkə gəncliyinin ciddi problemləri var. Mövcud problemlərin olması gənclərin inkişaf etməsinə maneçilik törədir. Bu səbəbdən Ümid Partiyasının siyasətinin əsas hissəsini gənclər siyasəti təşkil edir və gənclərə böyük önəm verilir. Bunun nəticəsidir ki, son dövrlər partiyamızın sədri, millət vəkili İqbal Ağazadənin sərəncamı ilə bir neçə gəncə partiyanın yüksək orqanlarına təyinat alıb. O, hər zaman gənclərin problemləri ilə maraqlanır, bu istiqamətdə ciddi təkliflər verir və problemin həllinə çalışır.

**Biz isə Ümid Partiyası Gənclər təşkilatı olaraq cari fəaliyyət planımızı sırf gənclərin mədəni maariflənməsi və fərdi inkişafı istiqamətində qururuq.** Fəaliyyət planımıza əsasən 2 aydan artıqdır ki, gənclər üçün beynəlxalq aləmə birbaşa çıxış yolu olan ödənişsiz ingilis dili dərslərinə və conversation-lara start vermişik. Bu təşəbbüsümüz gözlədiyimiz nəticəni verir. Artıq kifayət qədər gənc dərslərimizə qatılıb kurslarımızdan yararlanır. Bundan əlavə təşkilatımız hər həftə müxtəlif mövzularda təlimlər keçirir və bu kifayət qədər gənclərin marağına səbəb olub. Bu səbəbdən tədbirləri davam etdirməyi planlaşdırırıq. Təlimlərimiz xaricdə təhsil, iqtisadiyyat, siyasət, hüquq, psixoloji mövzularda olmaqla yerli və beynəlxalq dərəcəli ekspertlərin, təlimçilərin iştirakı ilə keçirilir. Sonda isə iştirakçılara beynəlxalq və yerli əhəmiyyətli sertifikatların verilməsini planlaşdırırıq. Təkcə Bakıda deyil eyni zamanda regionlarda da müxtəlif tədbirlər həyata keçirilir. Bölgələrlə sıx işləməyə də çox önəm veririk. Orada kifayət qədər intellektual və aktiv gənclərimiz var ki, onlar ölkə üçün çox güclü potensiala malikdirlər. Lakin, bunun üçün münbit şərait yoxdur. Bizim görəcəyimiz işlər onların daha da inkişaf etməsi və özlərini kəşf etməsinə hesablanıb. Bakıda, keçirdiyimiz təlimlərə bölgələrdə olan üzvlərimizi və fəal gəncləri də dəvət edirik. Onların bir-biri ilə əlaqələri qurulur və müxtəlif mövzularda müzakirələr aparırlar. Bundan əlavə Partiyanın Mərkəzi Qərargahında həftədə bir dəfə müxtəlif mövzularda gənclər üçün film nümayişlərimiz də olur. Arzu edən hər bir kəs iştirak edə bilər.



Paşa Çıraqov

**Oktyabr ayında Ümid Partiyası Gənclər Təşkilatı növbəti konfransını keçirməyə hazırlaşır.** Konfransdan sonra isə yeni layihələrə start veriləcək.

**Konfransla bərabər Gənclər təşkilatı olaraq qarşıdan gələn Bələdiyyə seçkilərinə də ciddi hazırlaşırıq.** Gənclərin Bələdiyyələrə namizəd verilməsinə xüsusi önəm veririk. İstəyimiz odur ki, gənclər ictimai-siyasi proseslərdə aktiv olsunlar, proseslərdən kənar qalmasınlar, həm aktiv, həm də passiv seçki hüququndan istifadə etsinlər. Düşünürük ki, ölkənin gəncliyi ölkənin inkişafında mütləq yaxından iştirak etməli, elmi, fiziki potensiallarını ölkəmizin gələcəyinə sərf etməlidir.

**Ümid Partiyası Gənclər Təşkilatı olaraq ətrafımızda xeyli tələbə gənc var və onların partiyamıza cəlb olunması prosesi davam edir.** Fəaliyyət planımızda universitetlərlə əməkdaşlıq da nəzərdə tutulur. Bizim universitet tələbələri üçün də cəlbedici təkliflərimiz olacaq. Misal üçün deyə bilərəm ki, hazırkı şəraitdə tələbələrin əsas maraqlandıqları mövzuların başında xaricdə magistr təhsili və Erasmus proqramıdır. Biz bu sahələrdə maarifləndirici təlimlər təşkil edəcəyik. Bu yolla gənclərimiz bu mövzuda mütəxəssislərdən məlumatlar da ala biləcəklər.

Partiya olaraq gənclərlə bağlı xüsusi fəaliyyət proqramı ortaya qoyduğumuz, siyasətimizi gənclərin problemlərinin həlli istiqamətində qurduğumuz üçün gənclər bizi seçir və yeni qoşulan üzvlərimizin sayı artır.

**Ümid Partiyası olaraq hesab edirik ki, gənclərimizin Azərbaycanın idarə edilməsində iştirakı maksimum təmin edilməli, onların siyasi seçim etməsini və siyasi institutlarda iştirakına şərait yaradılmalıdır.** İctimai institutlarda, vətəndaş cəmiyyətlərində gənclərin iştirakına təminat verilməli və həvəsləndirilməli, dövlət idarəçiliyi üzərində gənclərin ictimai nəzarəti həyata keçirməsinə yardım edilməlidir. Gənclərin keyfiyyətli təhsil almaları üçün dövlət təhsil proqramı ardıcıl həyata keçirilməli, oxumaq və elm vərdişlərinin yaranmasına dövlət qayğısı həyata keçirilməlidir. Gənclərin sağlam həyat tərzi keçirmələri, onların pis vərdişlərdən qorunması üçün xüsusi proqram işlənib hazırlanmalıdır. Gənclərin tolerant, liberal, ölkəsini və bəşəriyyəti sevən insan kimi yetişdirilməsi hər bir dövlət orqanının vəzifəsi olmalı, hamı bu istiqamətdə özünün işini təşkil etməli, barış və sülh içərisində yaşamını saxlaya bilən yeni nəsil yetişdirilməlidir.

# “Azərbaycan dünyadan təcrid olunmuş ölkə deyil”

## Ənvər Ağazadə: “Avropa Parlamentinin qətnaməsini qeyri-obyektiv və qərəzli hesab etmək, bu sənədin özünə qeyri-obyektiv yanaşmanın nəticəsidir”

**Avropa Parlamentində Azərbaycanda insan haqları və demokratiyanın vəziyyəti ilə bağlı qətnamə qəbul olunub. Sənəddə Azərbaycanda vətəndaş cəmiyyəti nümayəndələrinə qarşı təqiblər pislənir, Azərbaycan hökuməti isə insan haqları sahəsində islahatlar aparmağa çağırılır. Avropa Parlamentinin deputatları Azərbaycan hakimiyyətini insan haqları sahəsində həllini çoxdan gözləyən problemləri ləngimədən aradan qaldırmağa, bu sahədə müvafiq islahatlar aparmağa, vətəndaş cəmiyyəti fəallarının, müxalif siyasətçilərin və müstəqil jurnalistlərin sıxışdırılmasına son qoymağa səsləyiblər. Qətnamədə Bakıda sərbəst toplaşmağa qoyulan qadağanın aradan qaldırılmasının vacibliyi də vurğulanır. .**

Azərbaycan hökuməti isə beynəlxalq təşkilatların hökumət əleyhinə qəbul etdiyi qərarları həmişə olduğu kimi qərəzli hesab edir və ermənipərəst qüvvələrin diktəsi ilə qəbul edildiyini söyləyir.

Ümid Partiyası sədrinin birinci müavini Ənvər Ağazadə isə Avropa Parlamentinin Azərbaycanla bağlı qəbul etdiyi son qətnaməni qərəzli hesab etməyi doğru saymır.

“Mahiyyətindən və hansı beynəlxalq təşkilat tərəfindən qəbul olunmasından asılı olmayaraq Azərbaycan əleyhinə hər hansı qətnamənin qəbulu təəssüf doğurur. Çox təəssüf ki, ölkəmizlə bağlı belə bir qətnamə qəbul edilib və sənəddə sadalanan problemlər ölkəmizdə var. Bu qətnaməni qeyri- obyektiv və qərəzli hesab etmək, bu sənədin özünə qeyri -obyektiv yanaşmanın nəticəsidir. Unutmaq olmaz ki, Avropa



Ənvər Ağazadə

Parlamenti Dağlıq Qarabağla bağlı bir necə obyektiv qətnamə də qəbul edilib. Keçən ilin oktyabrında qəbul olunan qətnamədə işğalçı qüvvələrin dərhal, qeyd-şərtsiz və tam şəkildə işğal olunmuş Azərbaycan torpaqlarından çıxarılması, habelə Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının təmin olunmasını tələb edən BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməli olduğu qeyd edilib.

Ona görə də, Avropa Parlamentinin timsalında özümüzə qarşı düşmən obrazı yaradıb, onu topa-tüfəngə tutmağa ehtiyac yoxdur. Sadalanan problemləri aradan qaldırmaq və Avropa Birliyi ilə əməkdaşlığı genişləndirmək lazımdır. Zatən Avropa Birliyi Azərbaycanla əməkdaşlıqda maraqlıdır və onu dəstəkləyir, eyni zamanda insan hüquq və azadlıqlarının qorunmasını bu münasibətlər üçün şərt hesab edir."

Ə.Ağazadənin fikrincə, beynəlxalq təşkilatlar tərəfindən ölkəmiz əleyhinə belə sənədlərin qəbul olunmasında əsas günahkar hakimiyyət nümayəndələridir: “Çox güman ki, yaxın vaxtlarda Azərbaycan insan haqlarının vəziyyətinə görə BMT tərəfindən də tənqid olunacaq.

BMT-nin İşgəncələrin qarşısının alınması üzrə alt komitəsinin (İQAT) Azərbaycana gəlmiş nümayəndə heyəti səfəri yarımçıq dayandırmaq və ölkəni tərk etmək məcburiyyətində qalıb.

BMT-nin İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyasının fakültativ protokoluna (OPCAT) Azərbaycan da qoşulub və nümayəndə heyəti də Azərbaycana bu protokol əsasında öz mandatını həyata keçirməyə gəlib. Ancaq heyət Azərbaycanda maneələrlə qarşılaşıb, onu öz mandatını həyata keçirməyə qoymayıblar və səfəri dayandırıb ölkəni tərk etmək qərarı da buna görə verilib. Hakimiyyət təmsilçiləri unutmamalıdırlar ki, Azərbaycan dünyadan təcrid olunmuş ölkə deyil. Üzv olduğu beynəlxalq təşkilatların prinsip və dəyərlərinə, qoşulduğu beynəlxalq konvensiya və protokollara hörmətlə yanaşmalıdır".

YENİ MÜSAVAT
N 241 (5950) 27 sentyabr 2014



# Dəvəsi ölmüş urus

Zamin HACI
zaminhaci@gmail.com

**Neçə illərdir bizdə sirr dolu mövzular dövri olaraq gündəmə gəlir, ancaq sirri açılmadan əriyib itir. Ta ki yenidən ortalığa çıxanacan. Belə mövzulardan biri xaricdən eşşək almağımızdır. Dövlət Statistika Komitəsi hər il hesabat açıqlayanda Azərbaycanın xaricdən safqanlı, cins eşşəklər alması haqda məlumatlar olur.**

Bəzən bu eşşəklərin birinin qiyməti "Prado" maşını qədər - 50 min manata çatır. Bəzən 10 eşşək alınır, bəzən 40. Bəzən cəmiyyət buna çox donquldanır, bəzən az. Amma həmişə diqqət çəkir. Bizdə bu eşşəklərin satirik videosunu hazırladığına görə hətta siyasi dustaq olan yoldaşlar da var idi. Onların adı Avropa Məhkəməsinin sənədlərində elə bu cür qeyd edilmişdi: "Eşşək məhbusları".

Qeyd etdiyim kimi, hər dəfə bu mövzu saysız-hesabsız şərhlərə, müzakirələrə səbəb olur, ancaq heç vaxt fərli, ağıllı izahat verilmir ki, bu eşşəklər Azərbaycanda kimə lazımdır, nə üçün ölkəmizdə öz eşşəklərimiz olduğu halda biz xaricdən eşşək almalıyıq, niyə milli istehsal qorunmur, eşşək idxalının monopolisti hansı məmurdur, bu eşşəklər hansı musiqi üstündə anqırırlar, tənək yarpağını, yoxsa kələm dolmasını sevirlər və sairə. Suallar eşşək qulağı qədər uzundur, ancaq cavab yoxdur. Mən sizə deyim, artıq belə bir əminliyim yaranıbdır: vaxt gələcək amerikalılar Marsda həyat tapacaqlar, avropalılar adron kollayderində Hiqqs bozonu hissəciyini tutub onunla selfi çəkdirəcəklər, lakin biz eşşəklərin xaricdən alınma səbəblərini bilməyəcəyik.

Halbuki, başqa heyvanlar da alınır, ancaq heç müzakirə mövzusu olmur. Nəsə bizdə eşşək mövzusu həssas mövzudur. Tarixən belədir. "Kitab yüklü eşşək", "Eşşəyin itməkliyi" kimi əsərlərimiz var. Molla Nəsrəddinin eşşəyi də bizdə ictimai-siyasi fiqurdur. Bax, elə son statistik açıqlamada daha ekzotik bir detal var idi, cəmiyyət isə buna heç diqqət etmədi: bu ilin 6 ayı ərzində Rusiyadan 16 baş... dəvə də almışıq, dəvələrin pulu isə cəmi 21 min manat olmuşdur.

Gördüyünüz kimi, çox əcaib, ekzotik bir alış-verişdir. Biz görmüşdük dəvəni ərəbdən alarlar, dəvə səhra heyvanıdır, amma bizim tacirlər şimaldan, qarın içindən dəvə gətirir. Yəqin bu xüsusi növ, analoqu olmayan, soyuğa davamlı dəvə növüdür. Qlobal istiləşmə dövründə nə desən olar. Sabah Afrikadan ağ ayı alsaq təəccüblənmərəm.

Qlobal istiləşmə demişkən, bu günlərdə ekologiya və təbii sərvətlər nazirimiz Hüseynqulu Bağırov BMT-də çıxış edib, Azərbaycanın qlobal istiləşmə ilə mübarizədə uğurlarından danışıb. Bəli, nə az, nə çox. Sən demə, biz qütb buzlaqlarının əriməsinin, ozon dəliyinin yekəlməsinin qarşısının alınmasına böyük töhfələr veririk. Necə? Mazut yerinə təzək yandırmaqla. Belimizi Günəşdə qızdırmaqla. Dondurmanı qışda, təzə xiyarı baş nazir Artur müəllimin məsləhəti ilə yayda yeməklə. Bu kimi hallardan çox sayıbdır.

Ancaq sənayesi xammal çıxartmaqdan ibarət, tüstüsü gələn iki-üç sexi olan bir vilayətin planetar önəmi daha böyükdür, məncə nazirimiz gərək təvazökar olmazdı, yüksək tribunadan bəyan edəydi ki, qlobal istiləşmənin kökü respublikamızda ümumiyyətlə kəsilmişdir! Biz suveren dövlətik! Müstəqilliyimiz də əbədidir, daimidir, dönməzdir! Bizdə ozon deşilmir! Lazım gəlsə, pandaların nəslini də qoruyarıq! Elə həmin Hüseynqulu müəllim 3-4 il qabaq Antarktidaya gedib Erebus vulkanına Azərbaycanın iqtisadi yüksəlişi haqqında danışandan sonra vulkan daha püskürməkdən imtina etmədimi? Gərək müsbət işləri qeyd etməyi bacarasan.

Ümumiyyətlə, son dövrlər Amerika və Avropanın embarqosu ilə üzləşən Rusiyanın Azərbaycana üz tutması sevindirici haldır. Biz dərd ortağıyıq. Jirinovski gedir, Sobyanin gəlir, günəş şimaldan doğmaq üzrədir. 12-ci qızıl ordu da istəsə gəlsin. Ancaq rusların bizim xiyar-pomidorun ümidinə qalması bir az kədərlidir. Çünki biz özümüz eşşəyi Almaniyadan, qoyunu Gürcüstandan, kartofu Türkiyədən alırıq. Dəvəni heç demirəm, özünüz bilirsiniz.

**Necə deyərlər, embarqo olan qonaq öz kisəsindən yeməlidir. Dəvə qutabı yeyin.**

# Jirinovski Azərbaycanla bağlı dediklərinə Bakıda düzəlişlər etdi

## RLDP sədrini prezident qəbul etdi, onun səfərinə reaksiyalar fərqlidir

**Sentyabrın 25-də Azərbaycana səfərə gələn Rusiya Liberal-Demokrat Partiyasının sədri, Dövlət Dumasının üzvü Vladimir Jirinovskini prezident İlham Əliyevlə görüşüb. "AzərTAc"ın məlumatına görə, söhbət zamanı ikitərəfli münasibətlər, parlamentlərarası əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.**

Görüşdən sonra Bakı şəhərindəki 23 saylı orta məktəbə baş çəkən Vladimir Volfoviç ölkəmiz haqda əvvəllər söylədiyi fikirlərin tam əksini deyib: "Azərbaycan gözəl ölkədir, yaxşı inkişaf edir. Bu ölkənin çox yaxşı rəhbərliyi var". APA-nın xəbərinə görə, V.Jirinovski 6-cı sinif üçün rus dili və ədəbiyyatından açıq dərs keçib. O, şagirdlərdən Turgenev və onun "Mumu" əsəri barədə məlumatlı olub-olmadıqlarını soruşub, sonra 10-cu sinif şagirdləri ilə görüşüb, onlara müxtəlif suallar verib, şagirdlərə hədiyyə kimi odekolon və digər parfüm paylayıb. Şagirdlərdən biri V.Jirinovskiyə onun öz portretini hədiyyə edib.

Jurnalistlərə açıqlamasında o, Azərbaycanda çox yaxşı qarşılandığını, burada insanların rus dilində çox yaxşı danışdıqlarını bildirib. O, Azərbaycanda barəsində mənfi fikir formalaşmasına və hazırda Azərbaycan barədə müsbət fikirlər söyləməsinin səbəblərinə aydınlıq gətirib: "Bu, yanlış anlaşılmazlıqla bağlı idi. Müəyyən situasiya ilə bağlı söylənən fikir sonradan xalqa, ölkəyə aid edilir. Məsələn, hazırda Donbassa görə Kiyevdə mənə nifrət edirlər. Haradasa nə isə bir hadisə baş verəndə, biz onu qiymətləndiririk. Sonra da hər hansı situasiya ilə bağlı qiymətləndirməni o ölkə və xalqla bağlayırlar. Nəticədə yanlış anlaşılma olur". Azərbaycanda rusdilli məktəblərin yaxşı saxlanıldığını və fəaliyyət göstərdiyini bildirən V.Jirinovski bu məktəblərin sayının artırılmasının yaxşı olacağını vurğulayıb.



**Natiq Miri:** "O, Bakıya ultimativ xarakterli mesajları çatdıracaq"
**Hafiz Hacıyev:** "Hətərən-pətərən danışsa..."

Jirinovskinin səfərini şərh edən **politoloq Natiq Miri** deyib ki, RLDP sədri rəsmi Moskvanın emissarıdır: "O, Rusiya hakimiyyətinin ən sərt mesajlarını Azərbaycan hakimiyyətinə çatdırmaq üçün gəlib. Bu səfərin işartılarını biz hiss edəcəyik. Söhbət ondan gedir ki, Azərbaycan Rusiyanın istəklərinə uyğun olaraq Avrasiya və Gömrük ittifaqlarına üzvlüyə razılıq verməlidir. Əks təqdirdə Azərbaycana hansı təzyiqlərin, eyni zamanda Azərbaycanda hansı xoşagəlməz hadisələrin baş verə biləcəyi ilə bağlı rəsmi Bakıya ultimativ xarakterli mesajları çatdıracaq. Rusiya Azərbaycandan birmənalı olaraq seçim etməsini istəyir. Çünki Ukraynanı itirəndən sonra Avrasiya modelinin baş tutması üçün mütləq mənada regionda strateji ölkə olan Azərbaycanın Rusiyanın yanında olması lazımdır".

**N.Miri bildirib ki, Rusiyanın çox ciddi planları var və yanında hansı güclərin olacağını müəyyən etməyə qərar verilib:** "Azərbaycanın enerji daşıyıcılarının 85 faizini Qərbə satır. Ölkəmizin MDB ölkələri ilə 10-12 faiz iqtisadi əlaqələri mövcuddur. Azərbaycan hakimiyyətindəki məmurların böyük məbləğlər yatırdıqları bank hesabları, biznesləri məhz Qərb dövlətlərindədir, kapitalları Qərbin əlindədir. Rusiyanın yanında dayanmaqla Qərbdə bu qədər sərvəti saxlamaq, idarə etmək çətin olacaq. Rusiyanın əleyhinə sanksiyaların ən çox oliqarx-məmurların ciddi təşvişinə səbəb olub. Böyük pullar itirirlər. Azərbaycan məmur-oliqarxlarının belə duruma immuniteti varmı? İnanmıram ki, Azərbaycan hakimiyyəti Rusiyaya doğru addım atıb, arxasını Qərbə çevirəcək. Azərbaycan manevr etməyə imkanları da həddən ziyadə daralıb. Jirinovskinin səfəri bu manevrlərin tamamilə aradan qalxmasına hesablanıb".

**V.Jirinovskinin Bakıya gələcəyi təqdirdə qulağını kəsəcəyi haqda bəyanat vermiş Hafiz Hacıyev də danışıb. O, RLDP sədrinin şəcərəsini araşdırdıqlarını açıqlayıb:** "Bu araşdırmalardan sonra Jirinovskinin Azərbaycan qarşı bu qədər neqativ fikirlər söyləməsinin səbəbi bizə aydın oldu. O, bir neçə türkdən əmələ gələndir. Özünə də Türkiyə arxivlərindən araşdırmalarımız nəticəsində tapdığımız sənədlərin surətini göndərdik. Bu adam sarsaqdır, onun boynuna ip salıb tula, ovçarka kimi Bakı küçələrində gəzdirirlər. Alkaşın biridir. Milli Məclisdən onu bura niyə dəvət ediblər bilmirəm, elə Rusiyada 1-2 butulka ucuz konyak alıb verəydilər".

**H.Hacıyev deyir ki, V.Jirinovski ilə görüşməyə, onu başa salmağa çalışıb:** "Bizə imkan vermədilər. Gözləyirəm. Mən onun qulağını kəsəcəyimi deyəndən sonra müəyyən dairələr çağırıb dindirdilər, izahat aldılar. Hətərən-pətərən danışsa, sağ qulağını kəsib sol qulağından sırğa kimi asacağıq".

❑ E.MƏMMƏDƏLİYEV

# "Qərb Azərbaycanla əməkdaşlıqda maraqlıdır"

**Elxan Mehdiyev:** "Avropa və Amerikadakı güclü erməni diaspor təşkilatları ölkə daxilindəki vəziyyətdən istifadə edərək Azərbaycan əleyhinə böyük təbliğat aparırlar"

**Qərb ölkələrinin hökumətləri Azərbaycanın ünvanına tənqidləri daha da artırır. Son olaraq ABŞ prezidenti Barak Obama Klinton Qlobal Təşəbbüsünün illik sessiyasında Azərbaycanda vətəndaş cəmiyyətinə təzyiqlər olduğunu bildirib.**

Bir çox siyasi şərhçilərə görə, Qərbdən, xüsusən də Avropa ölkələrindən Azərbaycana qarşı tənqidlər getdikcə daha da sərtləşir. Son olaraq ABŞ prezidentinin birbaşa Azərbaycanın adını çəkərək tənqid etməsi bu iddiaları gücləndirir. Hətta bir çoxları son olayların fonunda Qərbin Azərbaycan hakimiyyətindən üz döndərdiyini, Bakı ilə savaşdığını qeyd edirlər. Doğrudanmı belədir? Məsələ burasındadır ki, Azərbaycan hakimiyyəti ölkədəki Qərb institutlarına, QHT və mediaya qarşı uzun zamandır basqı siyasəti aparır. Doğrudur. bu vəziyyətlə bağlı Qərb ölkələrindən, nüfuzlu beynəlxalq təşkilatlardan tənqidlər gəlir, ancaq paralel olaraq Qərb dövlətləri Azərbaycanla əməkdaşlığı davam etdirir. İndi isə tənqidlər daha da sərtləşib. Bu vəziyyət Azərbaycan hakimiyyəti üçün nə vəd edir? Doğrudanmı, Qərb Azərbaycan hakimiyyəti ilə düşmən münasibətlərindədir?

**Siyasi ekspert Elxan Mehdiyev** "Yeni Müsavat"a açıqlamasında Azərbaycan hakimiyyəti ilə Qərb dövlətləri arasında münasibətlərə bağlı durumu şərh etdi. Onun fikrincə, Qərb dövlətləri bütün çatışmazlıqların fonunda Azərbaycanla əməkdaşlığa maraqlıdır. Bunun isə bir neçə səbəbi var: "Avropa və Amerika Azərbaycanla münasibətləri dərinləşdirməkdə maraqlıdır. Bu həm Azərbaycanın coğrafi yeri, Rusiya və İranın arasında yerləşməsindən, enerji resurslarından istifadəyə görədir. Qərb Azərbaycanın enerji ehtiyatlarının Rusiyadan yan keçməklə Avropa bazarına çatdırılmasında maraqlıdır. Nəhayət, Ermənistan-Azərbaycan hərbi qarşıdurması bu dövlətləri cəlb edir".

**Ancaq E.Mehdiyevin Qərb üçün əsas mühüm olan Azərbaycanla təhlükəsizlik sahəsində əməkdaşlıqdır:** "Xəzər hövzəsində yerləşməsi, NATO-nun Əfqanıstana dəstəyin təmin olunması və İran-Rusiya faktoru. Nəhayət Qərb Azərbaycanda liberal dəyərlərin inkişaf etdirilməsi, demokratik, yəni xalqın iradəsini əks etdirən hökumətin olmasından yanadır. Bütün bunlardan yanaşsaq Azərbaycanla bağlı insan haqları ilə bağlı hesabatların mənfi olması sadaladığımız sahələrdə əməkdaşlığı dayandırmaq üçün



Elxan Mehdiyev

əsas yaratmır. Əksinə onlar qarşılıqlı ikitərəfli münasibətləri, beynəlxalq səviyyədə əməkdaşlığı gücləndirməklə demokratiya və insan haqları sahəsində islahatlara təkan vermək, repressiyaları aradan qaldırmağa çalışırlar. Yəni Azərbaycan tərəfini inandırmağa çalışırlar ki, bu heç də beynəlxalq aləmdə Azərbaycana fayda gətirmir. Diplomatik danışıqlar bu səpkidə gedir".

**E.Mehdiyev hazırkı durumu Azərbaycan və Qərb arasında münasibətlərin düşmənçilik səviyyəsində olduğunu deməyə əsas vermir. Ekspertə görə, hazırkı vəziyyət hakimiyyət üçün problem yaratmasa da, Azərbaycanın bir nömrəli problemi olan Qarabağ münaqişəsində Azərbaycanın mövqelərini xeyli dərəcədə zəiflədir:** "Əgər Azərbaycanla bu ölkələr düşmən olsaydılar, yəni münasibətlər 2-3 il əvvəlki İran kimi olsaydı o zaman insan haqları məsələsindən Azərbaycana qarşı geniş şəkildə istifadə olunardı. Lakin hazırda belə bir vəziyyət yoxdur. Ancaq bu halın özü də Avropa və Amerikadakı güclü erməni diaspor təşkilatlarının Azərbaycan əleyhinə böyük təbliğat aparmaları üçün imkan yaradır. Onlar bu tribunalardan Azərbaycan əleyhinə geniş təbliğat aparmağa və erməni işğalını pərdələməyə çalışırlar".

**Bəs Azərbaycanda siyasi vəziyyətin pisləşməsi Qərbin Bakıya qarşı sərt təzyiqlərinə səbəb ola bilərmi? E.Mehdiyev deyir ki, bu, yalnız Azərbaycanda repressiyaların daha da dərinləşməsi, vəziyyətin daha pisləşməsi halında mümkün ola bilər:** "Əgər repressiyalar dərinləşərsə, daha da zorakı xarakter alarsa o zaman Avropadakı demokratik düşərgə öz hökumətlərinə Azərbaycanla münasibətlərini məhdudlaşdırmaq tələbini qoya bilərlər. Bu isə yalnız vəziyyətin daha da pisləşməsi, dözülməz hal aldığı zaman ola bilər. Ancaq mən əminəm ki, bizim xaricdəki səfirliklər və XİN oradakı atmosferdən xəbərləri var. Onlar təbii ki, Azərbaycanın adından danışdıqları üçün dövlətin çətin vəziyyətə düşməsini istəməyəcəklər. Əgər dərinləşərsə, bu işin içində olan adam kimi deyirəm ki, bu ancaq erməni işğalının uzanmasına səbəb olacaq, dünya ölkələrində Azərbaycana rəğbət qalmayacaq. Bu isə Qarabağ münaqişəsində dünyadan alacağımız dəstəyi kəskin şəkildə azalda, vəziyyəti bizim əleyhimizə dəyişdirəcək".

❑ KƏNAN

**Sentyabrın 27-də Azərbaycanın ən qədim və aparıcı müxalifət partiyasının - Müsavatın dəfələrlə təxirə salınan və özünəməxsus ziddiyyət daşıyan qurultayı keçiriləcək. Ali toplantıda partiyanın əvəzsiz lideri İsa Qəmbər öz vədinə sadiq olaraq "vida" nitqi söyləyəcək və mahiyyət etibarilə çağdaş Azərbaycanın siyasi praktikasında ilk dəfə olaraq alternativ əsasda və rəqabət formasında Müsavatın yeni başqanı seçiləcək.**



> **"Onun nüfuz və avtoritetinin sirri böyük ölçüdə rasional inama, şəxsi cazibədarlığa və etimad faktoruna əsaslanır"**

# İsa Qəmbər və Müsavat

## Başqanlıqdan getsə də, partiya və o, hələ uzun müddət bir-birinə, ikisi isə cəmiyyətə gərək olacaq...

Bir çox başqa ölkələrdə olduğu kimi, Azərbaycanda da yalnız plüralistik demokratiyanın inkişaf yolunu seçmiş partiyalar əsasən öz liderlərinə görə "tanınır" və dəyərləndirilir. Üstəgəl, bir çox partiyalar liderdən kənar sanki yetərli mövcudluq qabiliyyətinə, real hərəkət proqramına və öz stabil kursuna malik olmur. Bu da təəccüblü deyil, nədən ki, bizdə əksər partiyalar konkret siyasi platforma və rəfə yox, konkret liderə uyğun qurulub. Onlar elə bil ki, öz partiya "boss"unun ambisiyalarının reallaşması işində zəruri əlavəyə çevrilir və liderin (bir qayda olaraq, fors-major vəziyyətlərdə) "gedəcəyi" təqdirdə ya öz fəaliyyətlərinə xitam verir, ya da yeni "boss"un maraq və ambisiyalarına uyğun təzədən qurulurlar.

Sıradan istisnalar isə bizdə olduqca azdır və onlardan biri də Müsavatdır. O partiya ki, orada hətta lider dəyişikliyi də demokratik yolla həyata keçirilir. Şübhəsiz ki, bunda İsa Qəmbərin və partiyanın xidməti az deyil. Əlbəttə ki, Müsavat da partiya olaraq özünün danılmaz liderinə - İsa Qəmbərə görə "tanınır" və dəyər verilir. Ancaq fikrimizcə, əks iddia da ədalətlidir: siyasətçi kimi İsa Qəmbər də nüfuzlu, populyar və özünü çoxdan təsdiqləmiş bir partiyanın - Müsavatın lideri olaraq "tanınır" və ona dəyər verilir.

Bu, xeyli dərəcədə onunla bağlıdır ki, Müsavat zamanın və cəmiyyətin ona tələbatı olan, ehtiyac duyulan partiya olaraq Azərbaycanın siyasi həyatının, siyasi tarixinin ayrılmaz və mühüm elementidir. Dünən partiyanın sükanı arxasında böyük Məmməd Əmin Rəsulzadə durmuşdu, sonra 22 il ərzində İsa Qəmbər dayandı, sabah isə onun yaxın və sadiq silahdaşlarından biri duracaq. Ancaq proqram dəyərləri, ideallar və müsavatçılıq ruhu bu təşkilatda gərək siyasi konyukturaya məruz qalmasın. Çünki cəmiyyət bu yaxınlarda 100 illiyini tamamlamış Müsavata hələ uzun müddət ehtiyac duyacaq.



> **"İsa Qəmbərə hələ uzun illər həm siyasətçi, həm ictimai xadim və ziyalılığın nüfuzlu nümayəndəsi, həm də Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri kimi tələbat olacaq"**

> **"Belə təəssürat yaranır ki, özünün siyasi fəaliyyətində İsa Qəmbər bu prinsipdən istifadə edir: "Düşünülməmiş söz deməmək, düşünülməmiş addım atmamaq". Bu keyfiyyət sayəsində o, praktik olaraq onu gözdən salacaq, siyasi reputasiyasını korlayacaq heç bir aşkar səhvə yol vermir"**

Bununla belə, çağdaş Müsavatı onun əvəzsiz lideri İsa Qəmbərsiz, habelə İsa Qəmbərin özünü də Müsavatsız təsəvvür eləmək çətindir. Partiya yəqin ki, qurultaydan sonra da belə bir təcrübəli, siyasi cəhətcə bərkimiş və nüfuzlu liderə ehtiyac duyacaq: axı, xeyli dərəcədə məhz onun bacarıqlı rəhbərliyi sayəsində müasir Müsavat aparıcı və müxalif təşkilat kimi davamlı imicə sahib olub.



Eyni ölçüdə İsa Qəmbər siyasətçi olaraq öz partiyasının dəstəyinə bundan sonra da ehtiyac duyacaq, çünki onun siyasi imici də əhəmiyyətli dərəcədə Müsavat faktoruna bağlıdır - həm tarixi, həm də müasir kontekstdə. 1918-ci ildə Müsavatın qurucusu M.Ə.Rəsulzadə və onun gözəl silahdaşları tərəfindən qaldırılan "Azadlıq, demokratiya və inkişaf" bayrağı 1988-ci ildə təzədən Ə.Elçibəy, İ.Qəmbər və Azərbaycan Xalq Cəbhəsinin və milli-azadlıq hərəkatının digər liderləri tərəfindən təzədən qaldırılıb.

Məhz həmin dövrdə, müstəqillik uğrunda mübarizə dalğasında Müsavatın tarixi "reabilitasiyası" və reanimasiyası yönündə ilk cəhdlər edilməyə başladı. SSRİ dağılandan və Azərbaycan dövlət müstəqilliyi qazanandan sonra ölkədə Müsavatın fəaliyyətinin bərpası üçün real şərait yetişdi. 1992-ci ildə Bakıda İsa Qəmbərin partiyanın sədri seçilməsi ilə nəticələnən Bərpa Qurultayı keçirildi. Beləliklə də, 70 illik kommunist repressiyalarından, məcburi emiqrasiya və gizli mövcudluqdan sonra Müsavat Azərbaycanda fəaliyyətini bərpa elədi. Üstəlik, olduqca qısa zaman ərzində o, yenidən ölkədə ən populyar və nüfuzlu partiya oldu. Bu da əhəmiyyətli dərəcədə Müsavat, onun Rəsulzadədən tutmuş İsa Qəmbərədək olan liderlərinin şərəfli və vərəsəlik tarixi ilə şərtlənirdi. İndi isə partiya qurultayı həll eləməlidir - şanlı estafeti kim davam etdirəcək.

Hazırkı başqanlığa namizəd siyasətçilər haqda yazmaq çox çətindir. Ona görə ki, dəyərləndirmələr nə qədər obyektiv olsa da, həmişə risk var ki, onlara münasibətdə qərəzli və ya tərəfli yanaşmada suçlanasan. İsa Qəmbər hətta başqan postunu tərk edəndən sonra da çətin ki, siyasi fəaliyyətini dayandırsın və düşünürəm ki, hələ uzun müddət o, ölkənin fəaliyyətdə olan siyasətçisi statusunda qalacaq.



Onun siyasi nüfuzunun sirrini çətin ki, yalnız tarixi kontekstə və Müsavat ideologiyasına bağlamaq mümkün olsun, həmçinin çətin ki, yalnız partiyanın özünün populyarlığı çərçivəsində əsaslandırmaq mümkün olsun. Qənaətimizə görə, xeyli dərəcədə bunda onun özü də "günahkardır". Belə ki, İsa Qəmbərin mövcud rejimin prinsipial opponenti, sadiq demokrat və patriot olaraq, ağıllı strateq, bişmiş və sağlam düşüncəli siyasətçi, maraqlı həmsöhbət və intellektual şəxs olaraq, nəhayət, Rəsulzadə və Elçibəy irsinin ardıcıl davamçısı olaraq sabit imici - təbii keyfiyyətlərin, həyati və siyasi bioqrafiyanın, habelə öz üzərində daim məqsədyönlü şəkildə işləməyin məcmu məhsuludur.

Siyasətçi olaraq İsa Qəmbərə ümumən öz reputasiyası və imicinə münasibətdə olduqca ciddi və ehtiyatlı yanaşma xasdır. Əfsus ki, öz siyasi imicinə və reputasiyasına belə ciddi münasibət bizim siyasi dairələr üçün elə də tipik deyil. Əgər onları qrafik şəkildə təsəvvür eləsək, bizim bir çox siyasətçilərimizin həyat və fəaliyyətinin mərhələləri qalxma və enmələrdən, ideoloji və ya konyuktur ziqzaqlardan, taktiki səhvlər və imic zərbələrindən ibarət sındırılmış sinusoiddir. Bizim bəzi siyasətçilərimizə imic və reputasiya faktoruna münasibətdə ümumən abırsız və yaxud qeyri-ciddi yanaşma tərzi xasdır - bir növ hansısa kostyuma münasibət kimi, nəyi ki, həmişə yumaq, ütüləmək və yaxud birdəfəlik dəyişmək olar.

Müsavat lideri isə imicmeykerlərin xidmətinə xüsusi ehtiyac duymayıb: bu funksiyaları qismən onun özü yerinə yetirib. Onu sırf ətrafdakılara maqnetik təsir göstərən xarizmatik siyasətçilərə aid eləmək də çətin ki, mümkün olsun - hansı keyfiyyət ki, rasional izaha sığmır. İsa Qəmbər əlbəttə ki, xarizmatik keyfiyyətlərə malikdir. Fəqət, onun nüfuz və avtoritetinin sirri böyük ölçüdə rasional inama, şəxsi cazibədarlığa və etimad faktoruna əsaslanır. Sonuncu da öz növbəsində əsasən onun pozitiv imici və qüsursuz siyasi reputasiya ilə əlaqədardır.

Onu da qeyd edək ki, İsa Qəmbər Azərbaycan siyasi səhnəsinə çıxdıqdan dərhal sonra geniş kütlələrin simpatiyasını qazanıb və özü haqda parlaq, ağıllı və ən perspektivli siyasətçi rəyini möhkəmlədib. İlk dəfə olaraq o, özünü inamlı və səs-küylü şəkildə 1985-ci ildə Zori Balayanın qalmaqallı "Ocaq" kitabına sanballı cavab yazmaqla büruzə verib. Bu cavab yazısı uzun illər əllərdə gəzib və hamı oxuyub. 1988-ci ildə isə o, milli-azadlıq hərəkatının və Azərbaycan Xalq Cəbhəsinin liderlərindən biridir. O vaxtdan o, həmişə geniş ictimaiyyətin diqqət mərkəzində və ölkə siyasi meydanında həlledici fiqurlardan biri olub.

Olduqca qısa zaman kəsiyində İsa Qəmbər ən populyar və "tanınan" siyasətçiyə, hakimiyyət piramidasının zirvəsinə ən əsas iddiaçılardan birinə çevrilib. Müsavat lideri haqda çoxdan praktik olaraq kobud səhvlər buraxmayan prinsipial və rasional siyasətçi imici möhkəmlənib. Onun siyasi xarakterinin güclü tərəfi aşkar görünən diplomatik və siyasi qabiliyyətidir. O, qədərində praqmatikdir, taktiki olaraq ehtiyatlıdır, impulsiv hərəkətlərdən qaçır, özünün bütün aksiyaları və siyasi manevrlərini rasional şəkildə hesablayır.

Opponentlər üçün o - həmişə təhlükəli rəqibdir, nədən ki, ehtimal böyüdür ki, istənilən danışıqlardan, debat və qarşıdurmalardan o, qalib çıxmaq qabiliyyətindədir. Belə təəssürat yaranır ki, özünün siyasi fəaliyyətində İsa Qəmbər bu prinsipdən istifadə edir: "Düşünülməmiş söz deməmək, düşünülməmiş addımlar atmamaq". Bu keyfiyyət sayəsində o, praktik olaraq onu gözdən salacaq, siyasi reputasiyasını korlayacaq heç bir aşkar səhvə yol vermir.

Bu gün İsa Qəmbər partiya sükanını başqanlığa 4 namizəddən birinə təhvil verəcək. Yəqin ki, bu ya Arif Hacılı olacaq, ya da Qubad İbadoğlu. Gəlin, onların hər birinə və bütövlükdə Azərbaycanda partiyalı hakimiyyət dəyişikliyinin əsasını qoymuş Müsavat Partiyasına uğurlar arzu edək.

İsa Qəmbərə - Müsavatın 22 illik əvəzsiz liderinə gəlincə, onun üçün mübarizədən, siyasətdən getmək hələ tezdir. Ona hələ uzun müddət həm siyasətçi, həm ictimai xadim və ziyalılığın nüfuzlu nümayəndəsi, nəhayət, özünün yaratdığı Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri kimi tələbat olacaq.

Bütün amplualarda sizə uğurlar, İsa Qəmbər!

**❑ Fikrət QARDABANLI**



# Şəxsiyyətlərin yox, dəyərlərin partiyası

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Müsavat çağdaş tarixində növbəti, mühüm bir mərhələ ərəfəsindədir. Bu gün partiya müstəqil Azərbaycanda özünün bərpasından keçən 22 ildə ilk dəfə olaraq demokratik başqan dəyişikliyinə gedəcək. Yeni lider İsa Qəmbər xarizması və sanbalına malik olmasa da, bu, hadisənin mahiyyətini kiçiltmir.**

Başqan dəyişikliyi şəksiz ki, yetərincə ciddi və ictimai-siyasi əhəmiyyətli bir olay olacaq. Nədən ki, Müsavat firqə çərçivəsinə sığan anlayış deyil, Azərbaycan adı ilə assosiasiya edilən bir məfhumdur. Mübaliğəsiz demək olar ki, bu gün cəmiyyətin ölkə həyatına biganə olmayan kəsiminin, ictimai-siyasi qüvvələrin, dünyadakı, Avropa və Amerikadakı, Türkiyədəki mühacirlərin gözü Müsavat qurultayında olacaq.

Müsavat, onun taleyinə məsul olan yetkililər, qurultay nümayəndələri bu diqqət və marağa adekvat davranmağı bacarmalıdırlar. Buna inanırıq. Hər halda, Müsavat ölkə boyu total şəkildə saxtalaşdırılan seçkilər fonunda indiki hakimiyyətə, cəmiyyətə daim demokratik seçki örnəkləri, pozitiv nümunələr bəxş etməyi bacarmış, seçkilərə, demokratiyaya inamın darmadağın olmasına imkan verməmiş bir siyasi təşkilatdır. Ölkədə ilkin demokratik seçkiləri birinci dəfə Müsavat keçirib, müxalifət düşərgəsində reallaşan praymerz də onun adına bağlıdır.

İnanırıq ki, yeni başqan seçkiləri də demokratiklik sarıdan "korluq" çəkməyəcək. Bunu həmçinin, namizədlərin təbliğat kampaniyasının Nizamnamə və etik qaydalar gözlənilməklə normal keçməsinə nəzərən deyirik. Şəxsən mən prosesə bir qədər də demokratiklik vermək üçün təklif edərdim ki, daha zəif qələbə şansı olan iki namizəd son anda digər iki namizədin xeyrinə öz namizədliyini geri götürsün.

Ən ümdəsi odur ki, nəticəsindən asılı olmayaraq, yerdə qalan rəqiblər demokratik yolla seçilmiş təzə başqanın legitimliyini dərhal tanısınlar və onu təbrik etməyə özlərində güc tapsınlar. Əks halda, belə çıxacaq ki, seçkilərə hiylə qatılıb. Bu da Müsavatın adı və nüfuzuna xələl gətirəcək, ictimai rəydə onu dilə-dişə salaraq, siyasi rəqiblərə uzun müddət çeynəniləcək antitəbliğat saqqızı verəcək. İddiaçıların sayı 4-dür, başqanlıq postu isə - bir. Əgər namizədlərin hamısı partiyaya dəyərlərə görə deyil, vəzifəyə görə gəlibsə, onda çətin olacaq...

Azad, ədalətli, demokratik seçkilər şübhəsiz ki, hər bir cəmiyyəti daha güclü, daha dayanıqlı elədiyi kimi, siyasi partiyalar da vaxtlı-vaxtında reallaşan daxili azad seçkilər sayəsində yeni nəfəs almaqla güclənir, modernləşir, böyük seçkilər üçün təcrübə toplayır. Başlıcası, belə bir siyasi təşkilat iqtidar olanda da demokratik dəyərlərə önəm verir, təməl haqları tərk etmir, ölkədə avtoritarizm meyllərinin yaranmasını əngəlləyir.

Müsavat həqiqi mənada bu cür partiyadır. Ayrı cür ola bilməz. Unutmayaq ki, bu partiya təkcə cibində Müsavat bileti gəzdirənlərin yox, Azərbaycana istiqlaliyyət bəxş eləmiş bir partiyaya, böyük Rəsulzadəyə qarşı qəlbində sevgi daşıyan hər kəsindir. Müsavat ən azı son yüz illik dövrdə Azərbaycanın şərəfli bir tarixidir.

Diqqət edin, Müsavatın rəqib-düşmənləri bir qayda olaraq, Azərbaycana, onun müstəqilliyinə qənim kəsilənlər olub. Sovet rejimi Cümhuriyyət hökumətini həmişə Müsavat hökuməti adlandırıb, bu mövzuda çəkilmiş bir sıra Azərbaycan sovet filmlərində də ("Qatır Məmməd" və s.) eyni istilahdan istifadə olunub. O səbəbə ki, Cümhuriyyət devrilsə də, Müsavat xalqın qəlbindəki taxtını, saflığını qoruyub saxlaya bilib.

**Müsavat başqanlığına keçirilən seçki kimin qalib gəlməsindən asılı olmayaraq ən əvvəl bu meyara, bu imicə və daşlaşmış statusa, nəhayət bu gözləntiyə cavab verməlidir. Yəni çağdaş Müsavat şəxsiyyətlərdən daha çox, dəyərlərin partiyası odluğuna bu gün daha bir möhür vurmalıdır - Müsavatın ən böyük əsəri olan müstəqil Azərbaycanda!**



# Bəd proqnozları puç edən başqan

Xalid KAZIMLI

**İsa Qəmbər Müsavat başqanı statusunda son sözünü dedi, son mətbuat konfransını keçirdi və getdi. Bu gündən o tamam başqa bir statusda olacaq - Müsavat üzvü, eyni zamanda Müsavat lideri.**

Deyirdilər, əslində bu, bir oyundur, İsa Qəmbər başqanlıqdan getməyəcək, vaxtı qəsdən uzadırlar, məqsəd başqa şeydir. Siyavuş Novruzov bu xüsusda bir kitablıq bəd proqnoz vermişdi, hamısı yanlış çıxdı.

"Vəzifəsini oğullarından birinə verib gedəcək" deyənlər, hətta bunu arzulayanlar da vardı. Belə bir şey olsa onların dili uzanacaqdı, "gördünüzmü, sülalə siyasəti pis şeydirsə, İsa Qəmbər niyə elə etdi?", - deyə üzə kükrəmək şansı qazanacaqdılar. Onlar da yanıldılar.

O qədər çox söz deyirdilər, "dərin-dərin" analizlər, uzaqgörən proqnozlar verirdilər ki, bəzən ictimai rəy də çaşırdı.

Zatən, son vaxtlar müxalifət liderlərinin "öz kreslolarından yapışıb durması" məsələsi ümummilli problem halına gəlmişdi, müxalifətin opponentləri eyzən bunu müzakirə edir, müxalifət düşərgəsinin baş töhmətinə çevirmək istəyirdilər.

Sanki müxalifət lideri olmaq xüsusi bir imtiyazdır, adam lider olanda cah-cəlal içində yaşayır, kef edir.

İctimaiyyət arasında doğrudan da belə bir geniş yayılmış qənaət var. Çox az adamlar bilir ki, indiki halda müxalifət lideri olmağın ən böyük "mükafatı" sıxıntı və məhrumiyyətlərin məngənəsində əzilməkdir.

Partiyanın cari xərclərini ödəmək, həbs olunan üzvlərin ailələrinə maddi yardım göstərmək, qonaq-qaranı qəbul etmək, yola salmaq, ehtiyacı olanlara əl tutmaq - neçə-neçə bu cür xərclər var və Azərbaycan reallığında bir müxalif liderin bunların öhdəsindən gəlməsi olduqca çətindir.

Bu ölkənin istənilən möhürlü, ştamplı dövlət vəzifəsini tutan şəxsin maddi imkanları müxalifət liderininkindən qat-qat böyükdür.

"Bəzi məmurların liderlərə gizlicə milyonlar verməsi", "xaricdən axan qrantlar" barədə deyilənlər isə sadəcə mifdir - ən azı İsa Qəmbərə münasibətdə.

Bu hakimiyyət uzun illər müxalifət partiyalarını məhz maddi problemlər içində boğaraq zəifləṫməyə çalışdı və buna müəyyən dərəcədə nail oldu. Partiyaların dövlət büdcəsindən maliyyələşməsinin qarşısını almaq üçün böyük və aparıcı partiyaların nümayəndələrinin 2010-cu il seçkilərində parlamentə düşməsinin qarşısı da buna görə alındı.

Ancaq hər halda meydanda fədakar, dəyanətli və mətin insanlar var, onlar bu keyfiyyətləri daşıyan başqanların ətrafında birləşdilər, dözüb durdular, partiyanı da, müxalifət institutunu da qoruyub saxladılar.

Hazırda İsa Qəmbərin partiya başqanlığından getməsinə görə dərindən üzülənlərlə yanaşı, çırtma çalıb oynamağa hazır olanlar da var.

Bir müddət sonra hər iki qrup yanıldığını anlayacaq. İsa Qəmbər nə tərəfdarlarını üzəcək qədər uzağa gedəcək, nə də rəqiblərini sevindirəcək qədər. O, hələ bir müddət də siyasətdə olacaq, qərarlara, situasiyaya bacardığı qədər təsir edəcək.

Bu, bir örnəkdir, ölkənin demokratikləşməsini istəyən hər bir şəxs öz təcrübəsi, fəaliyyəti ilə bu cür nümunə göstərə bilməlidir.

Bənzər addımı İsa Qəmbərdən də əvvəl atanlar olub, fəqət o zaman həmin addım bu qədər ictimai rezonans doğurmamışdı. Görünür, bu, partiyaların təşkilatlanma, populyarlıq və ictimai rəyə təsir əmsalları ilə bağlı idi.

Bu addım əslində müxalifətə yönəlik bir sıra spekulyasiyaların qarşısını da almalıdır. Siyasi arenada boy göstərmək istəyən bir sıra yeni siyasilər tez-tez deyirdilər: "Onlar qocalıb, təqaüdə getməlidirlər"; "Vitrinə yeni şəxslər gəlməlidir"; "Gənclərin qarşısı açılmalıdır"; "Ənənəvi müxalifət yerini müasir düşüncəli siyasətçilərə verməlidirlər".

Hər dəfə bu kimi iddialar səslənəndə hamı nədənsə İsa Qəmbər tərəfə boylanır, ondan reaksiya gözləyirdi. İsa Qəmbər də "heç kəsin qabağını kəsməmişik, buyurub ortaya çıxsınlar" deyirdi. Ancaq onlar həmişə "Müsavat başqanı İsa Qəmbər" amilinin kölgəsi altına qalırdılar.

**Budur, İsa Qəmbər artıq partiya başqanı deyil, sıravi partiya üzvüdür, iddialı şəxslərin lider olmağa nə dərəcədə potensialı çatdığı tezliklə ortaya çıxacaq.**



# İndi Seçim Anıdır

Zabil MÜQABİLOĞLU
zabil525@yahoo.com

**Yazıya bu başlığı seçməyim təsadüfi deyil. Bu, İsa Qəmbərin 2003-cü ilin prezident seçkilərindəki əsas şüarı idi. İsa Qəmbərin prezidentliyə namizəd kimi möhtəşəm seçki kampaniyası məhz bu şüarla aparılmışdı. İndi isə Müsavatın özündə seçkilərdir. Bu gün Müsavat Partiyasının qurultayı və yeni başqan seçkiləridir. 22 il Müsavata rəhbərlik edən İsa Qəmbər bu gün başqanlıqdan gedir və müsavatçılar özlərinə yeni rəhbər seçəcəklər. Sözün əsl mənasında Müsavat və onun üzvləri üçün İndi Seçim Anıdır. Başqanlığa iddialı olan dörd namizəd təxminən bir aya yaxın təbliğat kampaniyası apardılar və bununla da Müsavat Azərbaycana yeni demokratiya nümunəsi gətirdi, hər bir partiyaya örnək olacaq bir ilkə imza atdı.**

Aparılan seçki kampaniyası Müsavatın strukturlarını, üzvlərini xeyli canlandırdı, partiyanın özünə və ölkənin siyasi həyatına dinamika gətirdi. Facebookdakı bəzi "atışmaları" çıxsaq, ümumilikdə namizədlər seçki kampaniyasını çox təmkinlə, bir-birinin ünvanına hansısa ittihamlar, aşağılayıcı ifadələr işlətmədən apardılar. Məhz Müsavata və onun üzvlərinə, İsa Qəmbərin 22 il başqan olduğu bir partiyaya da yaraşanı budur.

Xüsusən də seçki mübarizəsinə qoşulan Müsavatçı gənclərin bu kampaniyadakı təmkini, özlərini aparmaları, rəqiblərə qarşı hər hansı qara "piar" aparmamaları diqqətçəkən oldu. Adətən bu cür yarışlarda gənclər daha çılğın, daha emosional, daha etirazçı olurlar. Amma Müsavatçı gənclər bunun əksini ortaya qoydular. Bu həm də bir əxlaq məsələsidir. Siyasi baxımdan Müsavatda yetişən gənclər elə bu siyasi əxlaqı da bu partiyada öyrəniblər. Ümumilikdə isə xırda-para məsələləri nəzərə almasaq, bu seçki kampaniyası Müsavatda dəyərlərə, əxlaqa böyük üstünlük verildiyini bir daha ortaya qoydu.

Arzu və ümid edək ki, indiyədək aparılan uğurlu və namizədlərin bir-birini aşağılamadığı, təhqir etmədiyi seçki kampaniyası bu gün elə bu formada da başa çatacaq.

Müsavatçılar öz yeni başqanlarını seçərək hamılıqla bir yerdə yola, mübarizəyə davam edəcəklər.

Əgər bu partiya ölkə siyasətinə bir yenilik gətirərək başqan seçkisini belə bir kampaniyanın sonucu olaraq seçmək nümunəsini ortaya qoyubsa, bunun nəticəsinin də ölkə, cəmiyyət üçün bir nümunə olmasını təmin etməlidir.

Bununla da həm cəmiyyətə, həm də opponentlərə bir mesaj verilməlidir ki, həm Müsavat öz dəyərlərinə sadiqdir, partiyada hansısa xırda qrup maraqları yox, ümumi mübarizə əzmi var. Ən əsası da demokratik seçkinin necə keçirildiyini sübut etməkdir.

Əgər hər kəsin niyyəti doğrudan da Müsavatın güclənməsinə, böyüməsinə, mübarizəni davam etdirməsinə nail olmaqdırsa, o zaman seçkinin nəticəsindən asılı olmayaraq, hər kəs bunun belə olduğunu əməli ilə təsdiqləməlidir.

Müsavat bu qurultaydan hansısa qopmalar, parçalanmalarla yox, daha da bütünləşərək çıxmalıdır. Bu həm də Azərbaycan, onun gələcəyi, ölkə siyasəti üçün lazımdır.

Müsavatın qurultayında iştirak etmək üçün Bakıya gələn Ankaradakı Azərbaycan Kültür Dərnəyinin rəhbəri Cəmil Ünal dünən "Yeni Müsavat"ın redaksiyasını ziyarət edərkən çox gözəl sözlər dedi.

Cəmil bəy dedi ki, əlbəttə bu seçimdə bir kişi qazanacaq, amma qazanmayan olmayacaq. Yəni seçkini qazanmayanlar "mən uduzdum" deməməlidir.

**Çox doğru yanaşma, doğru mövqedir. Bu qurultayda bütövlükdə Müsavat qazanmalıdır. Ümid edək ki, belə də olacaq.**

# Çap mediası deyilənləri nəzərə alır, elektron media isə yox...

## "Çünki çap KİV-ləri xeyli dərəcədə açıq və canlıdır"

**Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevin qəzet və sayt redaktorları ilə son görüşünün izləri mediada özünü göstərir. Artıq hərbi mövzularla bağlı jurnalistlər daha çox həssaslıq nümayiş etdirir, qəzetlər, saytlar xəbər seçimində, ona yanaşmada daha çox professional davranır.**

Amma bu məsələdə diqqət çəkən nüans ölkə mediası ilə bağlı edilən tənqidlərə reaksiya məsələsidir. Xatırlayırsızsa, daha öncə Ramiz Mehdiyev səviyyəsində ölkə telekanalları ilə bağlı bir neçə dəfə tənqidi məqalə dərc edilib. Həmin yazılarda R.Mehdiyev kanalların proqram siyasəti, efir mədəniyyəti ilə bağlı xeyli tənqidlər səsləndirsə də, bunların nəticəsi olmadı. Efirdə yenə də keçmiş ab-hava hökm sürməsi faktdır.

Hər iki hadisə və ardınca baş verənlər müqayisəli təhlil zərurəti yaradır. Belə ki, nə üçün telekanallar çap mediasından fərqli olaraq tənqidə əhəmiyyət vermir və hətta ondan nəticə çıxarmır?

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev** hesab edir ki, çap mediası elektron mediasına nisbətən çox rəngarəngdir. Müsahibimizin fikrincə, çap mediasının idarə təbəqələri bir qayda olaraq aşağı, yəni, icraedici, "qulaqasan" səviyyədədir. Media eksperti dedi ki, televiziyanın ideoloji idarəçiliyi şikayət edən mərkəzlərin özlərindən gəlir: "Ona görə də nə məsələdirsə, orda həll olunmayan məsələlərdir ki, üstündən 4-5 il keçməsinə baxmayaraq bu xəstəliklər xronikləşir. Bizdə elə situasiya yaranıb ki, TV informasiya dünyasının tamam başqa sahəsindədir, çap media başqa sahəsində".




**Müsahibimiz hesab edir ki, elektron mediada bu məsələlərin həlli qat-qat asandır. Onun fikrincə, əgər həll olunmursa, deməli, problem ümumi yanaşmadadır:** "Çap KİV-ləri xeyli dərəcədə açıq və daha canlıdır. Onlar baş verən dəyişikliklərə, səslənən fikirlərə reaksiyanı dərhal göstərirlər. Əgər tapşırıq verilsə, sabah 9 kanalın 9-da da eyni təbliğat gedəcək. Elektron KİV-lərində isə bu, mümkün deyil. Bunların idarəçilik formaları və tabeçilik dərəcələri başqadır".

**A.Əliyevin fikrincə, azadlıq nə dərəcədə çoxdursa, məsuliyyət də bir o qədər çoxdur. Müsahibimiz dedi ki, çap KİV-ləri elektron KİV-lərindən daha azad və məsuliyyətlidir:** "Söhbət yalnız gələn göstərişlərin icra keyfiyyətindən gedə bilir".

❑ Sevinc TELMANQIZI



# Media "hərbi sirr" məsələsində qanuna tabe olacaq

## **Arif Əliyev:** "Bu, media üçün təsiredici məsələ olmayacaq"

**Xəbər verdiyimiz kimi, İlham Əliyev sentyabrın 24-də "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ermənistan Respublikası Silahlı Qüvvələri ilə təmas xəttində bəzi təhlükəsizlik tədbirləri haqqında" Sərəncam imzalayıb.**

Sərəncama əsasən, Nazirlər Kabineti "Dövlət sirri haqqında" Qanuna uyğun olaraq dövlət sirri təşkil edən məlumatların yayılmasına görə məsuliyyətin gücləndirilməsinə dair təkliflərini bir ay müddətində Azərbaycanın prezidentinə təqdim etməli, jurnalistlərin cəbhəboyu zonada akkreditasiyası və cəbhəboyu zonaya xidməti ezamiyyətlərinin Müdafiə Nazirliyi ilə razılaşdırılması qaydasını ölkənin prezidenti ilə razılaşdırmaqla təsdiq etməlidir.

Müdafiə Nazirliyinə tapşırılıb ki, cəbhəboyu zonadakı vəziyyət barədə məlumatların əhaliyə çatdırılması ilə bağlı nazirliyin mətbuat xidmətinin fəaliyyətinin çevikliyini artırmaq üçün tədbirlər görsün, KİV-lərdə və internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə cəbhəboyu zonadakı vəziyyətlə bağlı verilən məlumatların mütəmadi monitorinqini təmin etsin və "Dövlət sirri haqqında" Qanuna görə dövlət sirri təşkil edən məlumatları yayan şəxsləri müəyyənləşdirib onların qanunla müəyyən edilmiş məsuliyyətə cəlb olunmasını təşkil etsin.

Sərəncamda Azərbaycan Mətbuat Şurasına hərbi sahədə Azərbaycan Respublikasının milli təhlükəsizliyinə xələl gətirə bilən məlumatların KİV-lərdə və internet informasiya ehtiyatlarında, sosial şəbəkələrdə yayılmasının qarşısının alınması məqsədi ilə kütləvi informasiya vasitələri və əhali arasında təbliğat-izahat işini təşkil etmək tövsiyə olunub.

Qısa müddət bundan öncə Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyevlə redaktorların görüşündə müzakirə olunan məsələlər artıq qanunvericilik səviyyəsində ortaya çıxıb. Bunun medianın həyatına nə gətirəcəyi ilə bağlı sual isə aktuallığını qorumaqdadır.

**"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev** hesab edir ki, bu, media üçün o qədər də təsiredici məsələ olmayacaq. Onun sözlərinə görə, onsuz da dövlət sirri və ona yaxın informasiyalar mediada ümumi informasiyaların yüzdə bir faizini də təşkil etmir: "Medianı ictimai əhəmiyyətli hadisələr maraqlandırır. Məsələn, DİN və Müdafiə Nazirliyi haqda, eləcə də dövlət təhlükəsizliyi barədə informasiyalar daha çox oxucu cəlb edir. Bu, dövlət üçün ayrıca institut olaraq həssas məsələdir. "Dövlət sirri" haqda qanun qəbul olunandan sonra orda qeyri-dəqiqlik olması barədə jurnalist təşkilatları car çəkmişdilər. Amma bu məsələlərdə dəqiqləşmələr olmalıdır. Bəzən məmur özbaşına deyir ki, filan məsələ dövlət sirridir".

**A.Əliyev məsələnin qoyuluşu baxımdan qəribə heç nə görmədiyini bildirdi. Müsahibimiz hesab edir ki, əsas problem Azərbaycanda sui-istifadəyə çox vaxt cəhdlərin olmasındadır. Ekspertin fikrincə, Müdafiə Nazirliyi mütləq çevikliyi artırmalıdır. Çünki sözügedən qurumda çeviklik yoxdur:** "Sanki maqnitafona deyilən sözlər təkrarlanır. Suallara da cavab verilmir. Bu məsələdə bir tənzimlənmə olmalıdır ki, dövlət strukturları da sirrin yayılması mənasında əziyyət çəkməsin. Bu mövzu Azərbaycan mediasının özünü də 80-ci illərinin sonundan maraqlandırır. Dövlət orqanları düzgün hərəkət etsələr, media bu məsələdə onların köməkçisi olacaq. Məmurların, deputatların özləri ilə bağlı media dəfələrlə məsələ qaldırıb. Bu baxımdan da hərbi sirlə bağlı məsələ nizamlanmalıdır".

"Yeni Nəsil"in sədri hesab edir ki, məsələnin qoyuluşunda ciddi təhlükə yoxdur. Müsahibimizin sözlərinə görə, problem onun icrasındadır.

**Mətbuat Şurasından isə bildirdilər ki, sərəncamdan irəli gələn və onların üzərinə düşən bütün funksiyaları yerinə yetirəcəklər. Hələlik bununla strateji dəqiqləşdirmələr gedir. Kütləvi informasiya vasitələri və əhali arasında təbliğat-izahat işinin təşkili ilə yaxın zamanlarda başlanacaq.**

❑ Sevinc TELMANQIZI

# Mediadakı terror çağırışları

## **Xaqani Səfəroğlu:** "Bununla mübarizə üçün Azərbaycan dünya internet məkanında aparılan mübarizəyə qoşulmalıdır"

**Yaxın Şərqdə terrora qarşı başlayan növbəti savaş artıq Azərbaycana da sirayət edib. İki gün əvvəl MTN xarici ölkələrdə savaşlara qatılan 26 Azərbaycan vətəndaşını həbs edib. Bununla da hökumət rəsmi olaraq terrora qarşı tədbirlər həyata keçirildiyini təsdiqlədi.**

Qeyd edək ki, Azərbaycan vətəndaşlarının xarici ölkələrdə gedən savaşlara qatılması, qeyri-qanuni döyüş birliklərində, terror qruplarında təmsil olunması xəbərləri yeni deyil. Ancaq son illərdə bu məsələ ilə bağlı narahatlıq daha da artıb. Bu isə xaricə savaşmaq üçün gedən ölkə vətəndaşlarının sayının artması ilə bağlıdır. Buna paralel olaraq Azərbaycanın özündə də ekstremist, terrorçu, nifrət yayan, xüsusən də dinlər arasında nifrəti körükləyən çağırışların sayı hiss olunacaq qədər çoxalıb.

Doğrudur, hökumət artıq xarici ölkələrə döyüşmək üçün gedənlər, eyni zamanda bu işin təşkilatçıları, "cihad"a təşviq edənlərlə bağlı müəyyən tədbirlər görür, ilk həbs olunanların siyahısı da bunu deməyə əsas verir. Ancaq qəribə də olsa, bütün çağırışlara, inzibati tədbirlərə baxmayaraq, Azərbaycanda da açıq şəkildə terrora çağırışlar, nifrəti körükləyən fəaliyyətlərə rast gəlinir. Xüsusən də son illərdə internet mediası, saytlar, sosial şəbəkələr üzərindən açıq şəkildə terrora çağırış, terroru müdafiə, bəzən isə təhdidlər və digər nifrəti, zorakılığı təbliğ edən fəaliyyətlər müşahidə olunur. Bunu bir çoxları açıq şəkildə, bir çoxları isə gizli olaraq, saxta adlar altında aparır.



Qeyd edək ki, araşdırmalara əsasən hazırda bir çox terror təşkilatları əsas təbliğat-təşviqat işlərini, o cümlədən yeni üzvlərin cəlb olunması kimi mühüm işləri məhz internet mediası üzərindən həyata keçirir. Ötən gün Qərb mətbuatında İŞİD-ə məxsus sosial şəbəkə hesablarından birinin növbəti dəfə Facebook tərəfindən qapadılması haqda məlumat onu göstərir ki, artıq dünya ölkələri bu prosesə seyrçi qalmır.

Bəs hazırda dünya təcrübəsi necədir? Cəmiyyətə ciddi təsir rıçaqalrından biri və əslində birincisi hesab olunan yeni media üzərindən terror çağırışları, zorakılığı müdafiə kimi təbliğatların qarşısı necə alınmaldır? Tənzimləmələr necə olmalıdır?

**"Yeni Media Jurnalistləri" İctimai Birliyinin sədri Xaqani Səfəroğlu** deyir ki, internet medianın tənzimlənməsi üçün ilk növbədə onun hüquqi statusu aydın olmalıdır. Ancaq X.Səfəroğlunun fikrincə, bu sahədə ciddi boşluqlar var: "Çox təəssüf ki, Azərbaycanda online media bir qədər pərakəndə halda fəaliyyət göstərir. Yəni İnternet KİV-lərin fəaliyyəti üçün qanunda xeyli boşluqlar var. İlk olaraq ölkədə "İnformasiya təhlükəsizliyi haqqında" Qanun qəbul olunmalıdır. Bu qanunda dövləti təhdid edən təhlükələr aydın şəkildə göstərilir".

**Ekspert deyir ki, artıq dünyanın bir sıra qabaqcıl ölkələri terror, nifrət və bölücülüyü təbliğ edən internet mediasını cəzalandıran qanunlar qəbul edib:** "ABŞ-da, Avropada, Rusiyada, Qazaxıstanda belə qanun qəbul olunub. Orada dövlətin, vətəndaşların həyatına təhlükə yarada biləcək amillər əks olunub. Məsələn, Fransada internet və sosial medianın tənzimlənməsi üçün Ali Audiovizual Şura yaradılıb. Bu Şura KİV-də və internetdə irqçi və antisemit çağırışların olmamasını da mütəmadi izləyir. Belə çağırışları yayan saytlar ciddi cəzalandırılır. Böyük Britaniyada yüksək texnologiyalar sahəsində cinayətkarlıqla mübarizə üzrə Milli Şöbə yaradılıb. Bu şöbənin əsas işi internet resursların filtirasiyası ilə bağlıdır. Qonşu Rusiyada isə dini və etnik nifrət çağırışları yayan internet KİV-in yayımı dərhal dayandırılır".

**Azərbaycanda internet mediası üzərindən terrora çağırışların müşahidə olunmadığını qeyd edən həmsöhbətimizin fikrincə, bu məsələdə sosial şəbəkələr bir qədər fərqli durumdadır:** "Azərbaycanın internet KİV üzərindən terrora çağırış və dəstək çağırışları daşıyan xəbərlər yayımlanmır. Yalnız sosial media vasitələrində - Facebbokda və s. şəbəkələrdə belə mesajlar daşıyan səhifələr mövcuddur. Bununla mübarizə üçünsə Azərbaycan dünya internet məkanında aparılan mübarizənin bir tərəfinə çevrilməlidir. İnternet əsrində bu tip çağırışların kökünü kəsmək çətin olsa da, milli təhlükəsizliyi təmin olunması üçün cəmiyyətin, KİV-in və dövlətin birgə səyi ilə mübarizə aparmaq olar".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 241 (5950) 27 sentyabr 2014




# Şeyxin ehsan müharibəsi - səbəb nədir?

## QMİ sədri bir qayda olaraq din sahəsində ona qarşı çıxanların cəzalandırılmasına nail olur

**Azərbaycanda hökumətin yas məclislərinin sadə keçirilməsi ilə bağlı qadağası ölkədə birmənalı qarşılanmadı. Əhalinin böyük qismi ehsan qadağasını və ya tənzimləmələrini dəstəkləsə də, qarşı çıxanlar da oldu. Prosesə qarşı çıxanların əsas arqumentləri isə budur ki, toy məclisləri ilə bağlı da islahatlar aparılmalı, bahalı qəbir yerləri, baş daşları və sair kimi israfçı qaydalar dəyişdirilməlidir.**

Qəribə də olsa bu məsələdə hökumət təşəbbüsçü oldu. Ehsan qadağasının müəllifinin prezidentin millətlərarası, multikulturalizm və dini məsələlər üzrə müşaviri Kamal Abdulla olduğu iddia edilsə də, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və digər dövlət orqanları qadağanı dəstəklədi. Hətta Milli Məclisin deputatı Musa Quliyev dəfn xərclərinin dövlətin təşkil etməsi ilə bağlı təklif irəli sürdü.

Əlbəttə ki, qadağa gündəmə gələndən sonra gözlər ölkənin formal olaraq dini mərkəzi hesab edilən Qafqaz Müsəlmanları İdarəsinə dikildi. Ancaq qadağanın səhəri günü yerli mətbuata açıqlama verən QMİ-nin sözçüsü bildirdi ki, hələ 3 il əvvəldən, yəni 2011-ci ilin iyulundan QMİ ictimaiyyətə müraciət edərək ehsan məclislərinin israfdan uzaq şəkildə qeyd etməyə çağırıb. Yəni QMİ-nin qadağanı dəstəklədiyini bəyan etdi. Ancaq sonrakı günlərdə QMİ-nin binasında yerləşən mərasim zallarında ehsan məclislərinin davam etməsi medianın yenidən QMİ-yə müraciətinə əsas yaratdı. Və bu zaman idarədən açıq şəkildə bildirdilər ki, QMİ ehsan süfrələrinin məcburi olaraq qadağan edilməsinə qarşıdır. Ötən həftə isə Şeyxülislamın kiçik qardaşı, deputat Cavanşir Paşazadə ehsan süfrələrinin məcburi qadağan edilməsinə sərt təpki verərək bunu 1937-ci il repressiyaları ilə müqayisə edib.

Bundan sonra mətbuatda Şeyxin açıq şəkildə ehsan qadağasına qarşı olduğu, məcburi olaraq ehsan süfrələrinin yığışdırılmasına etiraz etdiyi haqda məlumatlar yayıldı. Hətta mediada Şeyxin bu məsələ ilə bağlı DQİDK sədrinə etiraz bildirdiyi və bu məsələni ölkə rəhbərliyi ilə müzakirə etməyə hazırlaşdığı ilə bağlı məlumatlar yayıldı. O da bildirildi ki, Şeyx qadağanı dəstəkləyən DQİDK sədrinə kəskin etiraz edib. Bu hadisədən sonra DQİDK sədri Mübariz Qurbanlı ilə Şeyxülislam arasında münasibətlərin pisləşdiyi qeyd edilir. Diqqət çəkən məqam ondan ibarətdir ki, məhz bu xəbərlər çıxandan sonra Mübariz Qurbanlı bir qədər geri çəkilərək ehsan qadağasının məcburi olmadığını, insanların könüllü şəkildə bu qadağadan imtina etməli olduğunu bəyan etdi. Görünən odur ki, DQİDK sədri Şeyxlə qarşıdurmaya getmək istəmir. Əslində bunda müəyyən qədər haqlı məqamlar da var.

Məsələ ondadır ki, uzun illər hakim partiyanın rəhbərliyində təmsil olunmuş, hakimiyyət içindəki münasibətlər sistemini yaxşı bilən M.Qurbanlı Şeyxin siyasi elitada hansı gücünün olduğunu yaxşı bilir. Eyni zamanda onu da bilir ki, Şeyx çox ağıllı və tədbirli siyasi xadimdir. QMİ sədri onun sahəsinə müdaxilə edilməsinə bir qayda olaraq müqavimət göstərir və təcrübəyə əsasən onunla toqquşan məmurlar bir qayda olaraq məğlub olurlar. Şeyxin ölkə rəhbərliyinə çox yaxın olması, üstəlik siyasi bacarığı onun gücünü daha da artırır.

Yeri gəlmişkən, Azərbaycanda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi 2001-ci ildə yaradılıb. Formal olaraq DQİDK-in funksiyası fərqli olsa da, müəyyən mənada QMİ ilə səlahiyyət bölgüsündə sərhədlərin dəqiq cızılmaması səbəbindən iki qurum arasında ötən 13 ildə hər zaman soyuqluq yaranıb. Bəzən isə qarşıdurma baş verib. Komitənin demək olar ki, bütün sədrləri vəzifəyə təyin olunmamışdan əvvəl və təyin olunduqdan sonra Şeyxlə çox isti münasibətləri olsa da, sonradan münasibətlər kəskin şəkildə soyuyub, hətta açıq şəkildə qarşılıqlı ittihamlara çevrilib. Son nəticədə məhz DQİDK sədrləri cəzalandırılaraq vəzifələrini itiriblər. Azərbaycanda 10-15 il nazirlər bir postda qaldığı halda DQİDK sədrləri qəribə də olsa ən çoxu 6 il postunu qoruya bilib. Sonuncu sədr isə cəmi 2 il vəzifədə qaldı.

**DQİDK-in birbaşa Şeyxin rəhbərlik etdiyi sahədə işlədiyini nəzərə alsaq, QMİ sədrinin bu qurumla yola getmədiyini deyə bilərik. Sonuncu fakt isə açıq şəkildə göstərdi ki, QMİ sədri ölkədə hətta pozitiv yönlü fəaliyyətlərə belə maraqlarına cavab vermədiyi təqdirdə qarşı çıxmaq gücündədir. Və bunu çəkinmədən edir.**

❑ **Kənan RÖVŞƏNOĞLU**



# Ehsan qadağaları paytaxtda niyə işləmir?

## Ekspert: "Hansısa bir qadağaya görə şeyxlə körpüləri yandırmaq olmur"

**Hökumətin yas mərasimləri ilə bağlı qadağaları artıq məişət səviyyəsindən çıxaraq siyasi qarşıdurmaya çevrilib. Bir tərəfdən bölgələrdə məmurların yas mərasimlərinə kobud müdaxiləsi əhalinin narazılığına səbəb olub, digər tərəfdən paytaxtda bu islahatlar Qafqazın şeyxinin müqaviməti ilə üzləşib. Bakıda ehsan qadağaları "işləmir".**

Ehsan süfrələrində israfçılığın aradan qaldırılması qərarı nə qədər bəyənilsə də, bunun inzibati üsullarla həyata keçirilməsi ictimaiyyətdə qınaq obyektinə çevrilib. Eləcə də yas mərasimləri ilə bağlı tədbirlər zorakılığa qədər gətirib çıxarsa da, toy mərasimləri ilə bağlı həmin qaydalar söz olaraq qalır.

**"Yeni Müsavat" qəzetinin dini mövzuda yazarı Kənan Rövşənoğlu yas mərasimləri ilə bağlı qadağaları müsbət qarşılasa da, bunun zorakılıq və kobud müdaxilə ilə tənzimlənməsinin əleyhinə olduğunu bildirdi:** "Ehsan islahatları ilə bağlı zorakı mübarizə sui-istifadələrə yol açır. Bölgələrdə bu məsələnin yerli icra orqanlarına tapşırılması hər yerdə etirazlara səbəb olub. Paytaxtda bu bir növ mərkəzləşdirilmiş sistemdir və QMİ-nin nəzarətindədir deyə, müdaxilə edə bilmirlər. Bu mənada ortaq bir yol tapılmalıdır ki, həm məcburiyyət və zorakılıq olmasın, həm də ehsan israfçılığı aradan qalxsın. Dünyanın heç bir yerində bu cür ehsan təmtərağı yoxdur".

**K.Rövşənoğlunun sözlərinə görə, məlum qadağalar Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsini bütün Qafqazın şeyxi ilə üz-üzə gətirib:** "Qafqaz Müsəlmanları İdarəsi ehsan islahatlarının məcburi olmasına qarşıdır və açıq şəkildə buna riayət eləmir. Arqument odur ki, bu qaydalar məcburi ola bilməz. Təbii ki, məcburi olmamalıdır, ancaq QMİ-nin də bu prosesə qoşulması yaxşı olardı.

Bu mübahisə onu göstərir ki, ənənəvi mövcu yenə də davam edir. Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi ilə Qafqaz Müsəlmanlar İdarəsi arasında səlahiyyət sərhədləri müəyyən olunmadığına görə zaman-zaman bu idarələr arasında belə münaqişələr yaranır. Bu məsələnin paytaxtda da yoluna qoyulması üçün hökumət şeyxlə ortaq yol tapmağa məcburdur. Çünki şeyx öz sahəsinin nüfuzlu adamıdır və hakimiyyət şeyxi qəbul edir və onun statusunu tanıyır. Buna görə də, hansısa bir qadağaya görə şeyxlə körpüləri yandırmaq olmur. Ancaq bu istənilən halda şeyxin sahəsinə müdaxilə olduğuna görə, o narazıdır və öz hüquqlarını tələb edir ki, onun sahəsinə müdaxilə olmasın".

**Baş verənləri insan haqlarının kobud şəkildə pozulması və qanunsuz hərəkət adlandıran "Yeni Müsavat"-ın yazarı Azər Rəşidoğlu bunun cinayət məsuliyyətinə səbəb olacağını vurğulayıb:** "Bu, mülkiyyət hüququna qarşı qəsddir. Heç bir qanun və normativ akt olmadan bu cür zorakılıq hallarına yol verənlər cinayət məcəlləsinin tələbinə görə, 7 il müddətində azadlıqdan məhrum edilə bilər. Polisin və ya icra nümayəndələrinin belə zorakılıqları ilə üzləşmiş vətəndaşlar mütləq məhkəməyə müraciət etsinlər və həmin məmurların cəzalandırılmalarına nail olsunlar. Əlbəttə ki, israfçılıq bəyənilən deyil. Bunun qarşısının alınması barədə tədbir görülməlidir. Bunu sırf ziyalılar, ruhanilər və vətəndaş cəmiyyətinin öndə olan insanları təbliğ yolu ilə həyata keçirməli idilər. Heç bir inzibati üsula əl atmaq olmaz. Hazırda baş verənlər isə israfçılığın qarşısını almağa yönəlməyib, sırf yeni bir rüşvət yerinin açılmasıdır və vətəndaşların azadlığına qarşı qəsddir.

O ki, qaldı "Təzəpir" məscidində ehsan süfrələrinin əvvəlki kimi davam etməsinə, bütün Qafqazın şeyxinin nəzarətində olan mərasim zallarına müdaxilə etməyə çətin ki, hansısa məmurun cürəti çatsın. Şeyxin arxasında şəxsən kimin dayandığı hər kəsə məlumdur. Bu səbəbdən həmin zallara müdaxilə mümkün olmayacaq".

**Musavat.com saytının redaktoru Xalid Kazımlı da yas mərasimlərində israfçılığın qarşısının alınmasını maarifləndirmə yolu ilə həyat keçirməyin vacibliyini vurğuladı:** "Bunun üçün ən əsas təbliğat üsulu kimi könüllü örnəklər olmalı idi, bu cür zorakılığa yol verilməməli idi. Bu qadağalar bir kampaniya xarakteri daşıya bilər, 2-3 ildən sonra yas mərasimlərində yenidən əvvəlki qaydada ehsan verilməsi bərpa olunar və yaxınlarını yasında ehsan verə bilməyən insanlar töhmət altında qalar. Ona görə yaxşı olar ki, bu məsələdə ali məzhəb sahibləri, imkanlı şəxslər öz əzizlərinin yasında israfçılıq etməyib nümunə göstərərdilər və daha sonra xalq istər-istəməz onların yolu ilə gedəcəkdi. Ancaq israfçılığa qarşı mübarizədən söhbət gedirsə, buna birinci toy mərasimlərindən başlamaq lazım idi. Çünki daha çox israfçılıq toy biznesindədir, bir stolun qiyməti az qala 70-80 manata çatır. Əsasən toylar nəzarətə götürülməli idi, ancaq bu müşahidə olunmur. Bunun əvəzində rayonlarda kəndlilərin ehsan qazanlarını müsadirə edirlər, insanlara təzyiq edirlər, bu yolverilməzdir.

Görünür, bu islahatlarda məqsəd israfçılığın qarşısını almaq yox, yas biznesini çökdürməkdir".

❑ **Nərgiz LİFTİYEVA**

# Hökməlidə xüsusi əməliyyat: kənd mollası da saxlanıldı

**Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə Baş İdarəsi və Abşeron Polis Şöbəsinin əməkdaşları bu gün sübh çağı xüsusi əməliyyat keçiriblər. Axar.az-a daxil olan məlumata görə, Hökməli qəsəbəsində keçirilən əməliyyat nəticəsində 5 nəfər saxlanılıb. Onların arasında kənd mollası da var. Saxlanılanlar bir müddət öncə həbs edilən Hökməli sakini Rasim Cəbrayılova yaxınlıqları ilə tanınırlar.**

Abşeron RPŞ-dən faktı təsdiqləyiblər. Bildirilib ki, bu gün səhər saatlarından başlayaraq Abşeron rayonu, Hökməli qəsəbəsində Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə Baş İdarəsinin Abşeron polisi ilə birgə həyata keçirdiyi əməliyyat məhkəmə qərarı əsasında reallaşdırılıb və bir sıra şəxslərin evinə baxış keçirilib. Evində narkotik vasitə və kol aşkarlanan 5 nəfər şəxs saxlanılaraq polis şöbəsinə gətirilib.

Əməliyyata Mütəşəkkil Cinayətkarlığa qarşı Mübarizə Baş İdarəsi rəisinin birinci müavini Heydər Xəlilov başçılıq edib.

Saxlanılan şəxslərdən biri Həsən Əliyoldaşov kənd mollasıdır və kənddə təxribatçı çıxışları ilə tanınır.



Foto TURAN

YENİ MÜSAVAT
N 241 (5950) 27 sentyabr 2014

**Sentyabrın 30-da, saat 11:00-da Nərimanov Rayon Məhkəməsində “Space” telekanalının “Etiraf” verilişinin aparıcısı, dələduzluq ittihamı ilə həbs olunan İlham Mirzəyevin işi üzrə məhkəmə davam etdiriləcək. İ.Mirzəyevin hüquqlarını vəkillər Xanlar Bayramzadə və İkram Abdullayev müdafiə edir.**

**Redaksiyamıza işdə adı zərərçəkən kimi keçən şəxslərdən biri olan Aynur Əhmədovanın məktubu və iş üzrə tərtib olunan ittiham aktı daxil olub. A.Əhmədova məktubunda İ.Mirzəyevin vergi cinayətlərinin araşdırılmamış qaldığını, talama cinayəti üzrə ona ittiham elan edilmədiyini qeyd edib. O, teleaparıcının məhkəmə qarşısına xırda maddələrlə çıxarılmasına diqqət çəkərək bildirir ki, işə baxan hakimlə İlham Mirzəyevin çox yaxşı münasibətləri var və buna qədər də bu hakim teleaparıcının iddiası əsasında qəzetlərə qarşı qərar qəbul edib. Zərərçəkənin redaksiyamıza təqdim etdiyi ittiham aktında yer alan epizodları oxuduqca teleaparıcının qəbuluna gedən və əli hər yerdən üzülmüş, övlad həsrətində olan insanların pullarını necə mənimsəməsi sadəcə ikrah doğurur.**

**İttiham aktından aydın olur ki, 10 aprel 2014-cü ildə DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi İ.Mirzəyevi saxlamasaydı, o, bu gün də sahibi olduğu falçılıq klinikasında iş başında olacaqdı. Efirdən söylədiyi yalanlarına uyanlar qapısını kəsdirib ondan min bir dərdlərinə əlac umacaq, son qəpiklərini verib nəticə gözləyəcəkdilər.**

**Həmin gün məlum əməliyyatın keçirilməsinə əsas verən müraciəti hazırda işdə adı zərərçəkən kimi keçən A.Əhmədova edib. İstintaqçılar məsələni araşdırıblar və belə bir ittiham aktı tərtib ediblər. İttiham aktında adı keçən zərərçəkənlərin ad-soyadlarını etik səbəblərdən yazmırıq. Baş prokurorun 1-ci müavini Rüstəm Usubovun təsdiqlədiyi ittiham aktından seçmələri təqdim edirik:**

# İlham Mirzəyev pasiyentlərdən “təsəlli haqqı” alırmış

## Həbsdəki teleaparıcı ona müraciət edən vətəndaşları inandırmaq üçün fotoşəkillərini alıb və bir kənara tullayıb

*(əvvəli ötən sayımızda)*

### İfadə verir İlham Mirzəyev

Cinayət işi üzrə şübhəli şəxs qismində dindirilən İlham Mirzəyev ifadəsində göstərib ki, 10 yanvar 2014-cü ildən etibarən Bakı şəhəri, Nərimanov rayonu, İ.Dadaşov küçəsi 57 ünvanında yerləşən özünə məxsus 247 kvadrat metr sahəsi olan qeyri-yaşayış sahəsində Vergilər Nazirliyi, Səhiyyə Nazirliyi və Sosial Müdafiə Fondundan qeydiyyatdan keçirərək “İlhaMed” tibb mərkəzini açıb. Mərkəzinin təsisçisi və direktoru özüdür. O, tibb mərkəzində vətəndaşlara psixoloji yardım göstərməklə məşğul olur. Orada yerləşən digər otaqlarda isə ali təhsilli mütəxəssislər tərəfindən psixoloq, massajist, fizioterapiya və ultrasəs müayinəsi təşkil olunub. Qəbul zamanı vətəndaşlara pullu xidmət göstərilir. Həmin xidmətlərin qiyməti respublikada bu sahədə mövcud qiymətlərə uyğun ümumi qaydalara əsasən müəyyən edilib. Qəbula gələn vətəndaşlar qəbul şöbəsində qeydiyyatdan keçərək, əvvəlcədən göstəriləcək xidmətlərə görə ödənişlərini xəzinədara ödəyərək, mütəxəssislərin qəbuluna buraxılır. Ondan şikayət edən A.Əhmədova təxminən bir həftə əvvəl iki dəfə onun qəbulunda olub, onun tərəfindən psixoloji yardım göstərilib və hər dəfə 50 manat xidmət haqqı ödənib. Sonrakı günlərdə A.Əhmədova 2-3 dəfə tibb mərkəzinə gələrək onun qəbulunda olub, həmin ərəfədə dəfələr işi olduğunu bildirib, tələsdiyi üçün heç bir ödəniş etmədən çıxıb gedib və deyib ki, göstərdiyi psixoloji yardıma görə ödənişin hamısını birdəfəlik ödəyəcək. Əvvəlki dəfələrdə A.Əhmədova stresslə bağlı müraciət edib və ağlayaraq dörd aydır ki, anasını itirdiyini, göz yaşları içində boğula-boğula özünə qəsd etmək istədiyini, həyatın mənasız olduğunu deyib, o isə saatlarla onun intihar etməməsini, Allaha sığınıb səbr etməsini məsləhət görüb və ona psixoloji yardım edib. Sonra isə onun yanına gələrək deyib ki, “mən sakitləşdim və bununla barışdım. Amma məni sevən oğlan mənə qarşı laqeyddir, təmamilə məndən soyuyub, əgər o mənimlə heç olmasa, bir az mehriban olarsa, mən hər şeyi unudaram”.

### “3 min avro verərsən...”

9 aprel 2014-cü il tarixdə A.Əhmədova yanına gələrək bildirib ki, yaxın münasibətdə olduğu şəxslə münasibətlərinin bərpa olunmasına, barışmasına köməklik etsin. O, A.Əhmədovaya deyib ki, “özünün və tanışının şəkillərini mənə gətir. Əvvəlki və gələcəkdə göstərəcəyim psixoloji xidmət də daxil olmaqla 3 min avro verərsən, sənə köməklik edərəm”.


İlham Mirzəyev

### Fotoşəkilləri alıb, amma istifadə etməyəcəyini də əvvəldən bilib!!!

A.Əhmədova onunla razılaşıb, həmin tarixdə günortadan sonrakı saatlarda A.Əhmədova iş otağına gələrək özünün və tanışının 2 ədəd ayrıca fotoşəkillərini və 1600 avro pulu ona verib. Pullar 500, 100 və 50-lik avrolardan ibarət olub. A.Əhmədova qalan 1400 avro pulu sabah gətirəcəyini bildirib. O, A.Əhmədovadan özünün və tanışının fotoşəkillərini götürsə də, fotoşəkillərlə bağlı heç bir addım atmayacaqdı, fotoşəkillərdən heç bir məqsədlə istifadə etməyəcəkdi. 10 aprel 2014-cü il tarixdə, saat 15:30 radələrində A.Əhmədova iş otağına gəlib və 14 ədəd 100-lük avro olmaqla, cəmi 1400 avronu ona verib. O, A.Əhmədovaya bildirib ki, hər şey yaxşı olacaq, köməklik edəcək. A.Əhmədova iş otağından çıxdıqdan sonra otağa mülki geyimli şəxslər daxil olub, vəsiqələrini təqdim edərək, polis əməkdaşları olduqlarını bildiriblər. Polis əməkdaşları ondan A.Əhmədovanı tanıyıb-tanımadığını və ondan pul alıb-almadığını soruşublar. O, polis əməkdaşlarına bir qədər əvvəl A.Əhmədovadan 1400 avro aldığını bildirərək polis əməkdaşlarına təqdim edib. DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində izahat yazan İ.Mirzəyev A.Əhmədovadan 3 min avro və 2 ədəd rəngli fotoşəkli aldığını qeyd edib.

### Teatr aktyoru, inşaatçı, psixoloq, aparıcı elmi işçi və fəlsəfə doktoru!

İttiham aktından bəlli olur ki, İ.Mirzəyev 1986-cı ildə Əli-Bayramlı şəhər sənaye texnikumunun “Mülki tikintilər” fakültəsini texniki inşaatçı üzrə, 1995-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “Teatr aktyoru” fakültəsini bitirib. Sonradan Azərbaycan Müəllimlər İnstitutunda psixoloq ixtisasına yiyələnib. 2004-cü ildən etibarən Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun Sosial psixoloji şöbəsində kiçik elmi işçi, elmi işçi, böyük elmi işçi vəzifələrində çalışıb. 2006-cı ildə “Posttravmatik stresslərin sosial-psixoloji təhlili” adlı dissertasiya işini müdafiə edərək, psixologiya üzrə fəlsəfə doktoru elmi adına yiyələnib.Müqavilə əsasında “Space” telekanalında aparıcı işləyir. 5 il əvvəl “Tanrı” Elmi-İstehsalat Firmasını təsis edib. 2009-cu ildə Səhiyyə Nazirliyi təsisçisi və direktoru olduğu “Tanrı” Elmi-İstehsalat Firmasına tibb fəaliyyətinin həyata keçirilməsinə icazə verib. 2014-cü ildə firmasının nəzdində “İlhaMed” tibb mərkəzini açıb və həmin vaxtdan etibarən tibb mərkəzi fəaliyyət göstərib. Belə ki, tibb mərkəzinin direktoru özüdür, mərkəzin baş həkimi Gülər İbrahimovadır. “İlhaMed” tibb mərkəzində uşaq psixoloqu, surdoloq, kəkələmə mütəxəssisi, böyüklər üçün psixoloq, nevropotoloq, psixoterapevt, ultrasəs müayinə həkimi, fizioterapiya və massaj xidmətləri fəaliyyət göstərib. “İlhaMed” tibb mərkəzində vətəndaşlara ödənişli xidmət göstərilir və tibbi xidmət üçün ödənilən məbləğlər razılaşma yolu ilə müəyyən olunur, konkret qiymətlər müəyyən olunmayıb.

### Təsəlli haqqı - günə 50 manat!

İ.Mirzəyev ifadəsində deyib ki, psixoloq olaraq A.Əhmədovaya təsəlli verib. Ondan ailəsi barədə sorğu-sual edib, ona izah edib ki, anasının vəfatı ilə barışmalıdır. Allaha sığınmaq lazımdır, anası ağır xəstə olub, uzun müddət yataqda yatsa idi, o, buna dözə bilməzdi. O, həmin pasientə özünəqapanma, depressiya və intihara meyillilik diaqnozu "müəyyən edib" və ona 30 günlük psixoloji seans keçməsini məsləhət görüb. Hətta A.Əhmədovanı tibb mərkəzində fəaliyyət göstərən şüa-diaqnostika aparatına göndərib ki, orada beyni aparata salınsın. Şüa-diaqnostika aparatına baxan həkim Mətanət xanım bildirib ki, A.Əhmədovanın beynində heç bir problem yoxdur və beləcə, onun qoyduğu diaqnoz düzgün çıxıb. Sabahı gün, günortadan sonrakı saatlarda A.Əhmədova növbəti dəfə “İlhaMed” tibb mərkəzinə gələrək, bu dəfə də 50 manat birdəfəlik qəbul üçün ödəniş haqqını ödədikdən sonra onun qəbulunda olub, o A.Əhmədova ilə şifahi söhbət aparıb ona psixoloji yardım göstərib.

❑ **E.MƏMMƏDƏLİYEV**




# Şəhid qəbirlərini təhqir etmiş şəxsin işi prokurorluqda araşdırılır

## Vəkil: “Bu şəxs 2 il islah işi, yaxud 5 il azadlıqdan məhrumetmə ilə cəzalandırıla bilər”

**Xəbər verildiyi kimi 2014-cü il avqustun 21-dən 22-nə keçən gecə naməlum şəxslər tərəfindən Şəhidlər Xiyabanında İlham və Fərizə Allahverdiyevlərin qəbirləri üzərində təhqiredici hərəkətlərə yol verilmiş şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə həmin şəxs sentyabrın 24-də, səhər saatlarında, Şəhidlər Xiyabanında növbəti dəfə təhqiredici hərəkətlərə yol verərkən yaxalanmış və istintaqa təhvil verilib.**

Araşdırmalarla müəyyən edilib ki, bu, 1963-cü ildə Bakı şəhərində anadan olmuş, heç bir yerdə işləməyən, əvvəllər məhkum olunmuş, Xəzər rayonunun Albalı bağlar massivində yaşayan Nüsrət Qasımovdur.

Bu durumla bağlı ötən sayımızda informasiya vermiş şəhid İlham Allahverdiyevin qardaşı Elxan Allahverdiyev səhih məlumata malik olmadığını bildirmişdi. Hazırda hansı yeniliklərin olub-olmamasını öyrənmək üçün bir daha E.Allahverdiyevlə əlaqə saxladıq:

“Bakı şəhər Baş Polis İdarəsindən müstəntiq Zaur bəylə yenidən danışmışıq. O dedi ki, hələ açıqlama verməyin. Çünki tutulan insan üçün ekspertiza təyin edilməlidir ki, bilinsin o dəlidir, ya yox. Ona görə biz də düşünürük ki, yalan informasiya olmaması üçün hələ nəsə demək düzgün deyil. Gərək mətbuatda dürüst məlumat getsin”.

Saxlanılan şəxslə bağlı hüquqi məqamlara şərh verən vəkil Fariz Namazlı isə bunları dedi: “Cinayət Məcəlləsinin 245-ci maddəsinə əsasən bu şəxs 2 il islah işi, yaxud 5 il azadlıqdan məhrumetmə ilə cəzalandırıla bilər. Onud a qeyd edim ki, qəbir üzərində təhqiredici hərəkətlər etməyə görə islah işi maaşdan tutulur. Bu 5 faizlə 20 faiz arasında olur”.

**Baş vermiş olaydan sonra “İlham və Fərizə aksiyası”na start vermiş idman jurnalisti Təranə Xudabaxşiyeva da öz fikirlərini bildirdi:**

“Əslində mənim şəhidlərlə bağlı layihəm çoxdan fikrimdə var idi. Axı niyə insanlar yalnız 20 yanvar, 26 fevral və başqa faciə günlərində şəhidləri yad edirlər? İlham və Fərizənin qəbri üstə baş verən hadisə mənim layihəmin keçirilməsinə böyük səbəb oldu və qərar verdim ki, elə aksiyanın adını da ”İlham və Fərizə" aksiyası qoyaq. Aksiyada 100-ə yaxın gənc iştirak edib. Bir faktı deyim ki, aksiyanın açılışı zamanı biz gedəndə xiyabanda qəbirlərin üstündə gül yox idi. Bu aksiyanın növbəti həftəsi biz yenidən Xiyabana gedəndə bütün məzarlar üstündə qərənfil gördük. Ürəyimdə Allaha şükr etdim ki, çox şükür deməli vətənə bağlı insanlar hələ də var. Bu aksiyaya idmançılar, jurnalistlər, müğənnilər, reperlər, gənc fəallar, parapisixoloq, vəkillər və başqa sahələrdən olan insanlar qoşulub. Hətda İsmayıllı gəncləri İsmayıllı şəhidlər xiyabanını ziyarət edərək bizim aksiyaya qoşulub. Hələ də aksiyamız davam edir. Yaxın günlərdə Sumqayıt Şəhidlər xiyabanını ziyarət edəcəyik.

O ki qaldı cinayıtkara.. O insan kimliyimdən asılı olmayaraq mənim üçün cani və dəlidir. Adam nə qədər düşüncəsiz ola ki, illər əvvəl belə faciə ilə ölərək yarımçıq həyat yaşayan insanın məzar daşı ilə bu cür davranar..."

**Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Ehsan Zahidovla** əlaqə saxlayaraq proseslə bağlı son məlumatın nədən ibarət olmasını xəbər aldıq. İstintaq prosesinin davam etdiyini bildirən E.Zahidov cinayət işinin polisdə deyil, Bakı şəhər prokurorluğunda başladıldığını da vurğuladı. Yəni artıq faktlar toplanaraq prokurorluğa verilib və araşdırmalar orada davam etdirilir.

❑ **Fərìdə ABDIYEVA**

# Bahalaşma əksər alıcıları yaz-yay tərəvəzlərindən imtinaya vadar edib

**Bazarlarda qiymət artımı və qıtlıq davam edir; Azər Mehtiyev:**
“Bahalaşma olmaması üçün istehsalatın həcmi kifayət qədər olmalıdır...”









**Rusiyanın bəzi Avropa ölkələrindən məhsul idxalına qadağa tətbiq etməsindən sonra Azərbaycandakı bazarlarda vəziyyəti gərginləşdirib. Qadağalar kənd təsərrüfatı məhsullarının azalması ilə yanaşı, qiymətlərə də öz mənfi təsirini göstərib.**

Bazarlardakı meyvə-tərəvəzin qiyməti ilə daha yaxından tanış olmaq üçün “Yaşıl bazar”a yollandıq. Bazarda meyvə kifayət qədər olsa da, sanki tərəvəz yoxa çıxmışdı. Qiymətlərin od tutub yandığını son ay yarım - iki ayda müşahidə edirik. Amma maraqlı burasıdır ki, əvvəllər yenə az da olsa, bazarı dörd dolanıb nisbətən orta qiymətə məhsul tapmaq mümkün olurdusa, indi bu, da mümkün deyil. Nisbətən ucuz qiymətə ancaq əzik, az yararlı tərəvəzi almaq olar. Bunu da az saylı piştaxtalarda görmək mümkün idi.

Ümumiyyətlə, tərəvəzlərin olduğu piştaxtalar barmaqla sayılacaq qədər azalmışdı. Satıcılardan bəziləri bahalığın və qıtlığın səbəbini kənd təsərrüfatı məhsullarının Rusiyaya daşınması ilə, bəziləri isə bu il məhsuldarlığın aşağı olması ilə bağlı olduğunu dedi. Qiymətlərə gəlincə, üzüm 1 manat 50 qəpikdən 4 manatadək, xiyar 70 qəpik 1 manat arası, pomidor 1 manat 50 qəpik - 4 manat, kartof 80 qəpik - 2 manat, soğan 50 qəpik - 1 manat, banan, lobya 2 manat 50 qəpik, badımcan 50 qəpik, kələmin bir kilosu 1 manat, alma 1-3 manat arası, şaftalı 4 manat, bibərin 10 dənəsi 1 manata satılırdı.

Bahalaşmanın ilk “müjdəçisi” olan kartofun qiymətinin qalxmasını qıtlıqla əlaqələndirən satıcı Akif Səlimovun sözlərinə görə, bu il kartof az əkilib deyə, qiymətlər bahadır: “Bunun Rusiya və ya başqa bir şeylə əlaqəsi yoxdur. Sadəcə, kartof çox azdır”.

**Meyvə satıcısı Elşən Əliyev** isə qiymətlərin bu səviyyəyə çatmasının səbəbini Rusiya faktoru ilə əlaqəli olduğuna əmindir: “Alverçi hansısa kənd təsərrüfatı məhsulunu kəndlidən ucuz, yəni bu vaxta qədər aldığı qiymətə istəyir. Kəndi isə həmin qiymətə o məhsulu satmaqdan imtina edir. Çünki bu məhsulu Rusiyaya aparanlar ona alverçinin təklif etdiyi pulun iki qatını təklif edir. Kəndli də öz məhsulunu həmin çox pul təklif edən adama satır. Üstəlik məhsulu qonşu ölkəyə aparan alverçi bizim kimi 50-60 kilo yox, tonlarla alıb aparır. Yerdə qalan az saylı məhsulu isə yerli bazara çıxardır. Elə məndə elə edirəm. Almanı gəlib qapımdaca aldılar. Yerdə qalanını da gətirmişəm burda satmağa”.

**Digər satıcı Əlağa Ağayev** alıcıların da azaldığını dedi: “Demək olar ki, insanların çoxu artıq yaz-yay tərəvəzlərindən imtina edib. Pomidor, xiyar alanlar azalıb. Alıcılar daha çox gündəlik ehtiyac duyulan tərəvəz məhsulları - kartof, soğan, kələm alırlar. Əvvəllər iki kilo pomidor, 5 kilo soğan alan adamlar indi hərəsindən yarım kilo, maksimum bir kilo alır”.

***

**İqtisadçı ekspert Azər Mehtiyevə** görə, qiymətlərin artmaması üçün istehsalatın həcmi kifayət qədər olmalıdır: “Əgər bu il Azərbaycanda kənd təsərrüfatı məhsulları kifayət qədər istehsal olunmayıbsa və ya istehsal olunan məhsulların əsas hissəsi Rusiyaya aparılırsa, ölkə daxilində bu məhsula tələbat artır. Diqqət çəkən məqamlardan biri odur ki, ixraca seçilərək daha yaxşı məhsul göndərilir. Ölkə daxilində isə daha az keyfiyyətlisi satılır. Bir tərəfdən, ölkə daxilində məhsul satışının sitimullaşdırılmasına şərait yaradılmalıdır, ikinci tərəfdən isə rəqabət aparan digər ölkələrdə məhsul gətirilməsinə nail olmaq olar ki, məhsul qıtlığı aradan qalxsın və qiymətin aşağı düşülməsi təmin edilsin. Təbii ki, burada Rusiya amili əsas rol oynasa da, Azərbaycanın geniş kənd təsərrüfatı imkanlarına malik olmasına rəğmən ölkədə kənd təsərrüfatı səviyyəsinin kifayət qədər olmaması və kəndlilərin öz məhsullarını sata bilməməsi üzündən onların istehsalatın həcmini artırmaqda elə də marağının olmamasını da səbəb kimi göstərmək olar”.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

## Hamilə müğənni Bakıda dəhşətli qəzada öldü



**Bakıda baş vermiş dəhşətli qəza ilə bağlı bəzi məqamlar üzə çıxıb. Lent.az-ın verdiyi məlumata görə, Xətai rayonu ərazisində, Zığ yolunda “VAZ 2107", ”Opel" və “QazEl” markalı avtomobillərin toqquşması nəticəsində həlak olan 24 yaşlı Bayramova Samirə Afət qızı müğənnidir. O, bir sıra mahnı müsabiqələrinin iştirakçısı və laureatı olub.**

S.Bayramova bir müddət əvvəl ailə həyatı qurubmuş və hamilə imiş.

S.Bayramova həzin səsi ilə bir çox tanınmış müğənnilərin diqqətini çəkib, onun ifa etdiyi mahnılar radiolarda səsləndirilib.

Allah rəhmət eləsin!

## Məhkum kişi və qadın həbsxanada evləndilər




**Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin 11 saylı Cəzaçəkmə Müəssisəsində nikah mərasimi keçirilib. APA-nın məlumatına görə, 11 saylı Cəzaçəkmə Müəssisəsində saxlanılan Masallı rayon sakini Məmmədov Rüfət Kamal oğlu ilə 4 saylı Cəzaçəkmə Müəssisəsində saxlanılan Astara rayon sakini Ağayeva Fərzanə Allahverdi qızının müraciətləri əsasında onların nikah mərasiminə şərait yaradılıb. Bu gün təşkil olunmuş tədbirdə onların nikahı rəsmiləşdirilib.**

Tədbirdə iştirak edən Penitensiar Xidmətin rəis müavini Rafiq Ramazanov, 11 saylı Cəzaçəkmə Müəssisəsinin rəisi Mahir Əliyev hər iki şəxsi təbrik edib, onlara gələcək həyatlarında uğurlar arzu ediblər. R. Ramazanov bildirib ki, iki məhkumun nikaha daxil olması ilk dəfədir ki, baş verir.

R. Məmmədov və F. Ağayeva isə yaradılan şəraitə görə, Ədliyyə Nazirliyinin və Penitensiar Xidmətin rəhbərliyinə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, R. Məmmədov və F. Ağayeva azadlıqda olanda ailə həyatı qursalar da, rəsmi qaydada nikaha daxil olmayıblar. Onların iki azyaşlı uşaqları var.

Hər iki şəxs Cinayət Məcəlləsinin 180-ci (soyğunçuluq) maddəsinə əsasən ittiham ediliblər. Məhkəmənin hökmü ilə R. Məmmədov 7 il, F. Ağayeva isə 4 il müddətinə azadlıqdan məhrum ediliblər.

## Yol qəzalarında 8 nəfər ölüb

**Sentyabrın 25-də Azərbaycanda baş verən yol qəzalarında 8 nəfər ölüb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, ötən gün ölkənin avtomobil yollarında 6 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 8 nəfər ölüb, 2 nəfər yaralanıb.**

## Elan

**Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının memarlıq və dizayn fakültəsinin 4-cü kurs tələbəsi Cabbarova Gülxar Ədalət qızının tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com “doktor Vaiz Səmədov”.**



## «Bakcell» şirkəti öz müştərilərinə əvvəlcədən ödənişli (prepaid) Asan İmza kartlarını təklif edir

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkəti mobil imza xidmətlərini bütün abunəçilərinə daha yaxın etmək məqsədilə əvvəlcədən ödənişli (prepaid) Asan İmza kartlarını təqdim edir. Qeyd olunan xidmət bu günə qədər yalnız sonradan ödənişli (postpaid) müştərilərə göstərilirdi və xidmətdən istifadə etmək istəyən əvvəlcədən ödənişli (prepaid) abunəçilər yalnız sonradan ödənişli (postpaid) sistemə keçməklə xidmətdən yararlana bilirdilər.**

**«Bakcell»in əvvəlcədən ödənişli (prepaid) Asan İmza kartları 1 saylı “ASAN Xidmət” mərkəzindən, eləcə də Bakı şəhərində və bölgələrdə yerləşən bütün müştəri xidməti mərkəzlərindən əldə oluna bilər.**

**Hər üç kateqoriyaya (fərdi şəxslər, sahibkarlıqla məşğul olan fiziki və hüquqi şəxslər və dövlət qulluqçuları) aid olan postpaid və prepaid abunəçiləri üçün Asan İmza xidmətinin 3 il müddətinə aktivləşdirilməsinin qiyməti 18 AZN təşkil edir.**

**Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikası Vergilər Nazirliyi, Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və mobil imza xidmətləri operatoru “B.est Solutions” şirkəti ilə birlikdə həyata keçirilən “Asan İmza” mobil imza xidməti elektron xidmətlərə daxil olan və rəqəmsal imzalar edən zaman kimliyin təsdiqləməsi üçün mobil identifikasiyadır.**

**Xidmət abunəçinin mövcud nömrəsində və ya yeni SİM kartda aktivləşdirilə bilər. Mövcud nömrədə “Asan İmza” xidmətini aktivləşdirmək üçün abunəçi SİM kartın dublikatını almalıdır.**

**Fiziki şəxslər, hüquqi şəxslər və dövlət orqanları (və yaxud onları təmsil edən şəxslər) «Bakcell» müştəri xidmətləri mərkəzlərinə öz şəxsiyyət vəsiqələrini və müvafiq dövlət qurumlarından məktub gətirməlidirlər. Abunəçi “Asan İmza”nın aktivləşdirildiyi SİM kartı əldə etdikdən sonra mobil imza sertifikatını aktivləşdirmək üçün Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzinə müraciət etməldir.**

**Asan İmza xidmətini öz abunəçilərinə daha yaxın etmək məqsədilə «Bakcell» şirkəti yaxın gələcəkdə digər ASAN Mərkəzlərini də əvvəlcədən ödənişli (prepaid) Asan İmza kartları ilə təmin edəcək.**



# Cəmiyyət eynicinslilərin "nişanlanmasına" niyə susur?

## Elşən Mustafaoğlu: "Eynicinsli insanların nikahı İslama görə məqbul hesab edilmir"
## Fazil Mustafa: "Bu qəbildən olan insanların fəxri adlar və titullar alması onların ciddi himayə olunduğunu göstərir"
## Azad İsazadə: "Cəmiyyətdə böhran vəziyyəti son həddə çatdıqdan sonra əks hərəkata başlayır"

**Bir neçə gün öncə Azərbaycanda eynicinsli şəxslərin nişan mərasimi keçirildi. Mətbuat, xüsusən də internet media bu şəxslərin facebook statusuna istinadən xəbəri tirajladı və bu şəxslər cəmiyyətə verdiyi "Homofob cəmiyyətimizə meydan oxuduq", "Sevginin cinsi yoxdur, unutmayın" mesajlarını da yaymaqdan çəkinmıədilər. Təəccüblü olan isə eyni cinsdən olan iki şəxsin nişanlanması və bunu açıq şəkildə bəyan etməsi deyil. Təəccüblü olan cəmiyyətin buna səssiz qalması, heç bir irad səsləndirməməsidir. Təbii ki, söhbət həmin şəxslərə qarşı fiziki cəzalandırmadan yox, ictimai qınaqdan gedir. İctimai qınaq isə digər məsələlərdə olduğu kimi bu məsələdə də səsini çıxartmadı. Üstəlik facebookda bu şəxsləri təbrik edənlər də tapıldı.**

"Yeni Müsavat" olaraq bu məsələdə cəmiyyətin mövqeyini və səssizliyinin səbəbini araşdırmağa çalışdıq. "Namus-qeyrət" məsələləri üstündə qan tökən cəmiyyət belə bir hadisəyə niyə səssiz qalır? Qısa bir zamanda bu qədərmi "müasirləşdik", "avropalaşdıq"?

**Psixoloq Azad İsazadə** deyir ki, bu Azərbaycan cəmiyyəti üçün anormal bir hadisədir: "Ancaq cəmiyyətin buna  səssiz yanaşmasından görünür ki, insanların münasibəti çox dəyişib. 50 il əvvəl bu hadisə baş versə idi, onları öldürərdilər. Həyat çox dəyişib, tələblər dəyişib, cəmiyyətin qanunları dəyişib. Əvvəllər cəmiyyətin yazılmamış qanunları daha ciddi işləyirdi. İndi belə hadisələr təəccüb belə doğurmur. Allah bizi o gündən qorusun ki, 50 ildən sonra cəmiyyətimizi nələr gözləyir.

Psixoloqun sözlərinə görə, bu kimi hadisələrə qarşı səssizlik cəmiyyətin tolerantlığı yox, passiv vəziyyətdə olmasının nəticəsidir: "Bəzən biz həssaslıq göstərməli olduğumuz məsələlərə biganə yanaşırıq. Apatiya, depressiya cəmiyyəti bürüyüb. Sosiologiyada belə bir anlayış var- "kritik vəziyyətin dibə qədər enməsi". Böhran vəziyyəti son həddə çatdıqdan sonra əks hərəkata başlayır. Ancaq bu son məqam nə zaman baş verəcək, bunu demək çətindir. Bu əks hərəkat sabah da başlaya bilər, 10 ildən sonra da. Bu səbəbdən sosioloji araşdırmalar aparılmalıdır ki, sosial partlayışın nə zaman olacağını müəyyənləşsin. Cəmiyyətdə zaman- zaman anomal hadisələrə qarşı partlayışlar baş. verir".

**Millət vəkili Fazil Mustafa** bu şəxslərin cəmiyyətə açıq-aşkar mesaj verməsini stimullaşdıran amillərin olduğunu bildirdi: "Qapalı şərtlərdə Azərbaycanda bu cür şəxslərin olması hər kəsə məlumdur. Xüsusən də şou-biznes nümayəndələri və məmurlar arasında belə insanların olması heç kimə sirr deyil. Bunu stimullaşdıran bir çox vasitələr də var. Bu qəbildən olan insanların fəxri adlar və titullar alması bu cür insanların ciddi himayə olunduğunu göstərir. Bunun müxtəlif mətbu orqanlarında, televiziyalarda təbliğ olunması da səbəbsiz deyil. Bu təkcə diqqət cəlb etmək üçün edilmir, həm də bu cür anormal, qeyri-əxlaqi  həyat tərzinin, insanın bioloji mahiyyətinə zidd olan prosesin insanlar üçün adiləşdirilməsindən söhbət gedir. Xüsusən də, belə hallar şərq cəmiyyətində qabarıq şəkildə üzə çıxır. Bu hallar qanunvericiliyə də ziddir və eyni cinsdən olan şəxslərin nikahının qeydə alınması yolverilməzdir. Belə halların şüuraltı təbliğ olunması əvəzinə qınanması vacibdir. İnsanın öz mahiyyətindən kənara çıxması artıq anomral bir həyat yaşaması deməkdir. Avropada bu məsələ insan haqları kateqoriyasına daxil olduğu üçün qorunsa da , cəmiyyət üçün bir bəlaya çevrilib və bunu özləri də etiraf edirlər. Biz Avropa dəyərlərini qəbul etməliyik, ancaq bizim insan kimi azadlığımızı təmin edirsə, öz mahiyyətimizdən uzaqlaşdırmırsa onu qəbul etməliyik. Ancaq harada axmaq dəyərlər varsa ona meyllənmək yaxşı hal deyil və cəmiyyəti məhvə aparır.

Bu cür xəbərlərin mediada yayılmasına da həssas yanaşmaq lazımdır. Xəbərdə bu hadisələrə simpatiya əksini tapmamalı və haqq qazandırılmamalıdır, əksinə, qınaq obyektinə çevrilməlidir. Media da cəmiyyətin tərkib hissəsidir və onun əxlaqi dəyərlərini qorumalıdır".

Sözügedən məsələ ilə bağlı İslam dininin mövqeyinə gəlincə, **ilahiyyatçı Elşən Mustafaoğlu** deyir ki, eynicinsli insanların nikahı İslama görə məqbul hesab edilmir: "İslam dini yalnız əks cinslər arasında nikahı məqbul sayır. Dinə görə, insanın sağlam təbiətinə uyğun olmayan və mənəvi böhran kimi baxılan eyni cinslər arasında nikah günah hesab edilir. Qurani-Kərimdə Lut peyğəmbərin (ə) qövmünün bu günaha bulaşması və buna görə ilahi qəzəbə düçar olması göstərilir. Ayələrdən aydın olur ki, Həzrət Lut (ə) Allahın buyruğu ilə eynicinslilərin bir-birilə cinsi əlaqəyə girməkdən çəkindirməyə çalışmışdır. Lakin qövmü onun sözlərinə əhəmiyyət verməmiş, əksinə, onu yurdlarından çıxaracaqları ilə hədələmişlər. "Ey Lut! əgər buna bir son verməsən, şübhəsiz ki, sürgün edilənlərdən olacaqsan." (Şuara surəsi ayə 167). Ayələrdən belə məlum olur ki, Lut qövmü bu günahı etmiş ilk toplum olmuşdur. Bu, Quranın "Əraf" surəsinin 80 və "Ənkəbut" surəsinin 28-ci ayələrində göstərilir. Bu qövm onlardan öncə kimsənin etmədiyi bir əxlaqsızlığı edir və onlar kimi olmayanları yurdlarından qovurdular.

**Quranda oxuyuruq: "Lutu da (xatırla!) Bir zaman o öz qövmünə belə demişdi:** "Doğrudan da, siz özünüzdən əvvəlki aləmlərdə heç kəsin etmədiyi iyrənc bir iş tutursunuz. Həqiqətən, siz kişilərin yanına (şəhvətlə) gedir, yol kəsir və məclislərinizdə (bir-birinizlə) murdar işlər görürsünüz?" Qövmünün cavabı isə ancaq: "Əgər doğru danışanlardansansa, bizə Allahın əzabını gətir!"- dəmələri oldu. (Lut) dedi: "Ey Rəbbim! Fitnə-fəsad törədən qövmün əleyhinə mənə kömək et!" (Ənkəbut surəsi, ayə 28-30). Həmin əməllərə görə Allah həmin qövmə qəzəbləndi və cəzalandırdı".

❑ Nərgiz LİFTİYEVA

# Bütün dünya bu boşanmalardan danışır

## Ən sərsəm, ən bahalı, ən maraqlı boşanmaları barədə bilinməyənlər...

**Nikah, toy mərasimi kimi boşanma da səs-küy doğuran hadisədir. Biri sevinc, digəri kədərlə müşayiət olunsa da... Və maraqlıdır ki, dünyada evliliklərin sayı da boşanmalara adekvatdır. Artıq adi boşanma ilə heç kimi təəccübləndirmək mümkün deyil. Dünyada hər gün bir-birindən fərqli, səs-küylü boşanma hadisələri qeydə alınır.**



### İsveçrə boşanmaya görə lider sayılır

Öncə statistik müqayisə. 2002-ci ildə boşanma ilə nəticələnən yeni nikahların sayına görə birinci yerdə İsveçrə qərarlaşmışdı. Sonrakı yerlərdə Belarus və Finlandiya, 12-ci pillədə Rusiya, Azərbaycan 38, Ermənistan 41, Türkiyə 42, 46-cı pillədə isə Hindistan dayanmışdı. 2010-cu ildə boşanmaların sayına görə siyahıya Rusiya, Belarusiya və və Ukrayna rəhbərlik edib. İlk onluqda ölkəmizin adı qeyd olunmayıb. Ötən il dünyada boşanmalar daha çox 45-49 yaş arasında olan cütlüklər arasında qeydə alınıb. Sonrakı pillədə 50-54, 55-59 yaş hədlərində olan cütlüklər qərarlaşıb. 40 yaşdan aşağı olanlar arasında isə bu faktlar daha az qeydə alınıb. 2013-cü ildə açıqlanan hesabata görə, boşanan kişilərin say üstünlüyünə görə Dominikan Respublikası siyahıya liderlik edir. Daha sonrakı yerdə Latviya və Çexiya qərarlaşır. Boşanan qadınların say üstünlüyünə görə Latviya, Litva və Çexiya ön pillədədi. Boşanma faktlarının say üstünlüyünə görə şəhər və kənd tipli ərazilərdə də mövcud durum fərqlidi. Bir çox dünya ölkələrində, məsələn, Kuba, Kipr, Meksika, Hollandiya, İsveçrədə kənd yerləri ilə müqayisədə şəhərdə yaşayan cütlüklər arasında boşanma faktları daha çox  qeydə alınıb.

### Biri tutuquşuya görə boşanır, o biri vasvasılığına görə

Dediyimiz kimi, dünya səs-küylü boşanma hadisələrinə dəfələrlə şahidlik edib. Nəticədə isə xeyli qabarıq siyahı formalaşıb. Öncə ilginc, hətta deyərdik, gülməli boşanma olaylarının siyahısına diqqət yetirək.

Hindistanın Bombey şəhərində bir nəfər həyat yoldaşından daha çox sevgi-məhəbbət istədiyi, amma bu istəyinə cavab ala bilmədiyi üçün boşanma ərizəsi ilə məhkəməyə müraciət edib. O, ərizəsində arvadı tərəfindən məcbur edildiyi üçün dərmanlar qəbul etdiyini, amma bu dərmanlar üzündən də xəstəxanaya düşdüyünü deyib. Arvadının istəklərini yerinə yetirməyi rədd etdiyi zamanlarda isə yoldaşının təhdidi ilə qarşılaşdığını söyləyib. İddia boşanma ilə nəticələnib. Ancaq bu bilinən ən qəribə boşanma hekayəsi deyil.

İtaliyada anasından ayrıla bilməyən kürəkən, bal ayına gedəndə anasını da apardığı üçün evliliyi 3 həftə çəkib.

Almaniyada bir qadın həyat yoldaşının təmizlik xəstəliyi üzündən boşanmağa qərar verib. Yaxşı bəs niyə? Yoldaşının son qərarı "çirkli" olduğu üçün divarı uçurub, yeni divar tikmək istəyi olub. 15 ilin tamamında evlilik başa çatıb.

30 yaşında olduğu halda yoldaşına 24 yaşı olduğunu söyləyən qadının yalanı 10 il sonra açılıb. Bu yalan isə boşanma ilə nəticələnib.

2001-ci ildə evindəki quşlar sayəsində bir qadın həyat yoldaşının onu aldatdığını öyrənib və boşanmağa qərar verib.

99 yaşı olan ər 96 yaşlı yoldaşının 60 illik eşq məktublarını tapdığı üçün boşanma ərizəsi ilə məhkəməyə üz tutub. Bu ayrılıqla dünyanın "boşanan ən yaşlı cütü" adı ilə Ginnesin Rekordlar Kitabına düşüblər.

Fransız bir qadın həyat yoldaşını 20 ildir onunla yaşamadığı üçün məhkəməyə verib. Hakim "romantik zərər" verdiyi üçün ərə 14 min dollar dəyərində təzminat cəzası verib və onları boşayıb.

### Onlar boşanır, milyonlar havada uçuşur...

Amerikanın CelebrityCafe portalı məşhurlar arasında ən bahalı boşanmaların reytinqini müəyyənləşdirib. Reytinqə Maykl Cordan ilə xanımı Xuanitanın boşanması başçılıq edir.

17 il birgə yaşadıqdan sonra 2006-cı ildə ayrılmış cütlüyün boşanması Cordana 168 milyon dollara başa gəlib. O, eks-xanımına məhz bu qədər pul ödəyib.

İkinci yerdə müğənni Nil Daymond və prodüseri Mörfinin boşanmasıdır. Mörfi bundan 150 milyon dollar qazanıb.

İlk üçlüyü məşhur rejissor Stiven Spilberqlə aktrisa Emi İrvinqin boşanması qapayır. Boşanma Spilberqə 100 milyon dolllara başa gəlib.

Sərvəti "Forbes" tərəfindən 8,8 milyard dollar qiymətləndirilən rusiyalı milyarder Dmitri Rıbolovlev keçmiş arvadına 3,3 mlrd avro (4,5 mlrd dollar) ödəməli olacaq.

Bu qərarı Cenevrə məhkəməsi verib. Ərlə arvad evlənəndə nikah müqaviləsi bağlamayıblar. Buna görə də, İsveçrə qanunvericiliyinə görə, onların bütün əmlakı evlilik dövründə birgə yığılmış sərvət sayılır, uyğun olaraq boşanma zamanı yarı bölünür. Amma vəkil bildirir ki, Cenevrə məhkəməsinin qərarından şikayət etmək mümkündür.

Ərlə-arvad birlikdə 24 il yaşayıblar, altı ildir ki, əmlakı bölməklə məşğuldurlar. Rıbolovleva 2008-ci ildə boşanma ərizəsi verib və buna səbəb ərinin ona xəyanət etməsi olub.

Rıbolovlev hazırda Monakoda yaşayır. Onun İsveçrədə, Havay adalarında, Floridada Nyu-Yorkda əmlakı var və iki yunan adası ona məxsusdur. Milyarder həm də Pikasso, Van Qoq, Qoqen və Mone kimi rəssamların əsərlərindən ibarət başqa bir sərvətə də malikdir. Onların boşanması çağdaş tarixin ən bahalı boşanması sayılır.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT

Son səhifə

N 241 (5950) 27 sentyabr 2014



## Çində qız bürcündə doğulanları işə götürmürlər

Çində bəzi şirkətlər işçilərini bürclərə görə seçir. Qız bürcü bu siyahıda ən şanssız olaraq qəbul edilir. Buna səbəb qız bürcü altında doğulan insanların "seçici, ərköyün və kompromisə getməyən" olmasıdır. Nəticədə də işçi namizədinin qız bürcü olduğu aşkarlanan kimi onun ərizəsi kənara qoyulur. Qızdan sonra ən sevilməyən digər bürc isə balıqlardır. Onların ardınca əqrəb bürcü gəlir. Çinin "New Republic" adlı yerli qəzeti yazıb ki, ölkədəki bir səyahət şirkəti əkizlər, tərəzi və dolça bürcü altında doğulan adamlar arasından işçi axtarır. Yenə eyni qəzetdə bir əmlak şirkəti sırf əqrəb bürcü olan işçiləri işə qəbul etməməsi ilə bağlı açıqlama verib.



## Çe gevara və uqo çavesin ətirləri bazarda...

Kubanın Labiofam adlı parfümeriya kampaniyası Ce Gevaranın şərəfinə ətir istehsal edib. Bundan başqa, firma Venesuelanın keçmiş prezidenti Uqo Çavesin də şərəfinə parfüm istehsal edib. Bu ətirlər 1.5 il müddətində hazırlanıb. Ətirlər fransız firması Robertetlə birgə ərsəyə gətirilib. Layihənin rəhbəri Mario Valdes bildirib ki, kampaniya tanınmış adamların adından istifadə etməklə öz ətirlərini reklam etmək məqsədi güdməyib. Hətta ətir hazırlanmazdan əvvəl Çe Gevara və Uqo Çavesin qohumlarından icazə alınıb.

# Yanğınsöndürənlər qurbağanı xilas etdilər

Texas şəhərinin yanğınsöndürənləri alovun içindən qurbağanı xilas ediblər. Bu barədə lenta.ru saytı xəbər verib. Xidmətin əməkdaşları yaşayış binasındakı yanğını söndürmək üçün ştatın cənubundan gəliblər. İçəri girəndə isə orada heç kimi görməyiblər. Bundan sonra hadisə yerinə evin sahibi olan Ceymi Uilson gəlib və yanğınsöndürənlərdən evin içindəki heyvanı xilas etmələrini istəyib. Yanğınsöndürənlər növbəti dəfə, qurbağanı xilas etmək üçün evə girməli olublar. Onu evin içində, zərər dəyməmiş bir akvariumda sağlam vəziyyətdə tapıblar. Heyətin rəhbəri Riçard Harrison qurbağanın xilasını öz təcrübəsində ilk belə hal adlandırıb. Deyib ki, daha öncə odun içindən ancaq it və pişikləri xilas edib. Ümumilikdə, yanğından dəyən ziyanın məbləği 60 min dollar olub. Onun törəmə səbəbi isə bəlli olmayıb.



# Pulunu oğurladılar, sonra avtobus pulu verdilər



Ohayo ştatında baş verən bir oğurluq hadisəsi görənləri şoka salıb. Lenta.ru saytının yazdığına görə, avtobus dayanacağında avtobus gözləyən 38 yaşlı bir kişi qəflətən iki oğrunun basqınına məruz qalıb. Oğrular ona yaxınlaşaraq, üstündə olan bütün pulları və mobil telefonu tələb edib. 40 dolların və telefonunu alandan sonra dayanacaqdan uzaqlaşmaq istəyən oğrulardan biri kişidən "avtobusa minməyə pulun qaldımı" deyə soruşub. İnkar cavabı alandan sonra isə oğrular kişiyə 2 dollar məbləğində pul qaytarıb. Ohayolu kişi bu jestdən şoka düşsə də, oğrular aralanandan dərhal sonra özünə gəlib və onlar barəsində polisə şikayət edib.

## Bu maşın qadınların qırışını azaldır

Yaponiyanın avtomobil istehsalı ilə məşğul olan firması Honda ancaq qadınlar üçün maşın istehsal edib.



"Honda Fit She's" adlı maşın ultrabənövşəyi şüalardan qoruyan şüşələri sayəsində xanımların qırışlarına mane olur. Kondisionerin yaydığı soyuq isə havadakı bakteriya və virusları məhv edir. Hələlik ancaq Yaponiyada istehsal edilən bu maşının qiyməti 17 min 500 dollardır. Maşının çəhrayı, boz və ağ rəngləri var. Bir internet saytı isə yazıb ki, yapon qadınların yarısı evlənib evinin qadını olur. Zövqləri isə qərbdəki həmcinslərindən fərqlidir.



## Adam çox düşünəndə də arıqlayır

Alimlər krossvord həll etməyin insanı arıqlatdığını sübuta yetirib. Tədqiqat müəllifləri bunu artıq çəki problemi olan şəxslərə xoş xəbər kimi təqdim edir. Onların bildirdiyinə görə, arıqlamaq istəyən şəxsin fiziki işə həvəsi yoxdursa, o, özünü zehni əməyə verməlidir: krossvord həll etməli, pazl yığmalı və ya məntiqi tapşırıqlarla məşğul olmalıdır.

Məsələ ondadır ki, intellektual işin öhdəsindən gəlmək üçün beyinə daha çox kalori tələb olunur. Beynin bu cür fəaliyyəti zamanı orada milyonlarla əsəb impulsu yaranır və bunun üçün böyük enerji tələb olunur. Nəticədə bu, insan orqanizminin kalori "xərcləməsinə" aparıb çıxarır.




**QOÇ** - Təzadlı gündür. Bir tərəfdən maraqlı sövdələşmələr, digər tərəfdənsə rəqiblərinizin hücumu ilə rastlaşacaqsınız. Deməli, işlətdiyiniz hər bir ifadənin yerini bilməli, məsuliyyətli olmusunuz.

**BUĞA** - Səhhətinizin qeydinə qalsanız, bu günü olduqca yüksək ovqatda başa vura biləcəksiniz. Saat 13-17 arası bir yerdə oturmaqdansa, sizə vəd verən şəxslərlə görüşməyiniz vacibdir.

**ƏKİZLƏR** - Riskli hərəkətlərə yol verməsəniz, Göy qübbəsi müdafiənizdə duracaq. Uzaqda yaşayan qohumlarınızla mütləq əlaqə saxlayın. Pulla bağlı şanslı təkliflər alacağınız da gözlənilir.

**XƏRÇƏNG** - Ulduzlar bu təqvimi savab işlərə riayət etməyi tövsiyə edir, xoş söz və duaları əsirgəməyin. Çağrılan yerə ar etməyin. Axşam dostlarınızla aranızda yaranmış problemləri həll edin.

**ŞİR** - Hansısa riskli işlərə girişib gərginliklə rastlaşmaqdansa, əsas vaxtınızı ailənizlə, sevdiyiniz adamlarla birgə keçirin. Axşam saatlarında yaxın ünvanlara qonaq gedin.

**QIZ** - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimi bütünlüklə istirahətə həsr edəsiniz. Başqalarının işinə müdaxilə etməyin. Maddi imkanınız yetərsə, ehtiyac sahiblərini sevindirin.

**TƏRƏZİ** - Təxminən saat 13-ə qədər ümumi işlərinizdə müəyyən gərginlik müşahidə olunacaq. Odur ki, ciddi qərarlar qəbul etməyin. Sonrakı müddətdə isə təzə və sevindirici xəbərlər gözlənilir.

**ƏQRƏB** - Dünəndən Ay bürcünüzdə qərar tutsa da, bu, planlarınızı pozmayacaq. Məqsədlərə çatmaqda iradənizi gücləndirin. İkitərəfli görüşlərdə müsahibinizin sözaltı mənalarına fikir verin.

**OXATAN** - O qədər də düşərli gün deyil. Doğmalarınızla mübahisələriniz ovqatınızı təlx edə bilər. Yeganə yolunuz səbrli olmaqdır. Əgər sizi başa düşmürlərsə, günahı özünüzdə axtarın.

**OĞLAQ** - Bu təqvimdə hansısa gəlir əldə edəcəyiniz mümkünsüz olduğundan bu kimi tədbirləri təxirə salın. Əbəs yerə riskə getməyin. Yoxsa nəticədə bəzi xoşagəlməzliklə rastlaşacaqsınız.

**SUTÖKƏN** - Bu təravətli təqvimdə ziyarətgaha getsəniz, düyünə düşmüş işləriniz çox qısa vaxtda qaydasına düşəcək. Axşama doğru sevindirici hadisələrin iştirakçısı ola bilərsiniz. Amma səfərə çıxmayın.

**BALIQLAR** - Çoxsaylı yeniliklər yolunuzu gözləyir. Əvvəlcədən nəzərə alın ki, bu, yalnız müsbət mənada baş verəcək. Qızışdırıcı amilləri başınızdan çıxarın. Uzaq yola çıxmaqdan yayının.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Şərab da arıqlamağa kömək edir



Norveç Yaşam Elmləri Universitetinin araşdırmasına görə, şərab iştahı kəsir və həddən artıq yemək yeməyin qarşısını alır. Arılar üzərində aparılan təcrübələr göstərib ki, şərabda olan aktioksidan resveratrol maddəsi yeməyi kəsir. Resveratrol adlı maddə arılara ehtiyac duyduqları enerjini verdiyi üçün alimlər düşünür ki, bu vəziyyət insanlar üçün də keçərlidir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.650